Xalqın qəzeti!

# Xalq qəzeti

№ 33 (30437) 14 fevral 2024-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az

Dünən Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenimunun qərarı ilə prezidentliyə namizəd Əliyev İlham Heydər oğlu ölkə Prezidenti seçilmiş elan edildi.

# Azərbaycanda seçki marafonu finişə çatdı

## Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası Prezidenti seçkilərinin yekunlarını elan edib

**Fevralın 13-də Fərhad Abdullayevin sədrliyi ilə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun iclası keçirilib.**





İclas növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinin rəsmən elan olunmasına həsr edilib.

Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev iclası açaraq bildirib ki, xüsusi konstitusiya icraatı üzrə məhkəmə iclasında 2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin yekunlarına dair Mərkəzi Seçki Komissiyasının (MSK) 2024-cü il 11 fevral tarixli protokolunun təsdiq və rəsmən elan edilməsinə dair konstitusiya işinə baxılacaq.

Məhkəmə iclasının katibi deyib ki, iclasda xüsusi konstitusiya icraatı üzrə maraqlı subyekt qismində Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, sədr müavini Rövzət Qasımov, katibləri Arifə Muxtarova və Mikayıl Rəhimov, komissiyanın digər üzvləri, habelə ekspert qismində Dövlət Statistika Komitəsinin ümumi şöbəsinin müdiri Sevda Süleymanova və Aparatın statistika şöbəsinin sektor müdiri Fərid Əhmədov, Bakı Dövlət Universitetinin hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru Nəsib Şükürov, İnsan hüquqları və informasiya hüququ kafedrasının professoru, hüquq elmləri doktoru Etibar Əliyev iştirak ediblər.

Sonra Fərhad Abdullayev məhkəmənin tərkibini elan edib.

"Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi haqqında" Qanunun 43-cü maddəsinə əsasən maraqlı subyektlərin qanuni nümayəndələrinin hüquq və vəzifələrini izah edən Konstitusiya Məhkəməsinin sədri bildirib ki, onlar bu Qanuna əsasən, iclasda çıxış edə, sübutları təqdim edə, ekspertlərə suallar verə və sualları cavablandıra bilərlər.

Məruzəçi kimi çıxış edən hakim Sona Salmanova bildirib ki, "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 40.3.5-ci maddəsinə əsasən, Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinin rəsmən elan edilməsi ilə əlaqədar işlərə xüsusi konstitusiya icraatı qaydasında baxılır. 2016-cı il 26 sentyabr tarixli ümumxalq səsverməsi – referendumla Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin 1-ci hissəsinə edilmiş dəyişikliyə əsasən, Azərbaycan Respublikasının Prezidenti ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə 7 il müddətinə seçilir.

Diqqətə çatdırılıb ki, Seçki Məcəlləsinin 203.1-ci maddəsinə əsasən MSK səsvermə günündən başlayaraq 10 gündən gec olmayan müddətdə prezident seçkilərinə yekun vurur və nəticələri təsdiq olunmaq üçün Konstitusiyanın 102-ci maddəsinə uyğun olaraq Konstitusiya Məhkəməsinə təqdim edir. Mərkəzi Seçki Komissiyası səsvermənin nəticələri haqqında dairə seçki komissiyalarının protokollarındakı bütün məlumatları ümumiləşdirərək fevralın 7-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələri barədə 2024-cü il 11 fevral tarixli protokol tərtib edib.

*(ardı 2-ci səhifədə)*

# Şərti sərhəddə sükut niyə pozuldu?

**Ermənistan–Azərbaycan şərti sərhədində bir neçə aydır hökm sürən nisbi sakitlik fevralın 12-də pozuldu. Həmin gün Ermənistan tərəfinin Azərbaycan Ordusunun Zəngilan istiqamətində, rayonun Kolluqışlaq kəndi ərazisində yerləşən mövqelərini atəşə tutması nəticəsində Dövlət Sərhəd Xidmətinin N saylı hərbi hissəsinin hərbi qulluqçusu, əsgər Pərviz Xəlilzadə yaralandı.**



Baş vermiş hərbi təxribat ölkəmizdə, haqlı olaraq, ciddi etiraz yaratdı. Fevralın 13-də Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən qisas əməliyyatı keçirildi. DSX-nin mətbuat mərkəzinin yaydığı məlumata görə, əməliyyat nəticəsində əsgərimizə atəş açılan Ermənistan ordusunun Qafan rayonunun Nerkin-And yaşayış məntəqəsi yaxınlığındakı döyüş postu tamamilə darmadağın edildi, döyüş mövqeləri susduruldu. Məhv edilmiş döyüş postunun şəxsi heyəti arasında ciddi itkilərin olması barədə məlumatlar var.

DSX Ermənistan tərəfinin şərti sərhəddə əməliyyat şəraitinin gərginləşdirilməsinə yönələn hər bir təxribatına bundan sonra daha ciddi və qəti tədbirlərlə cavab veriləcəyini bəyan etdi. Eyni zamanda, baş vermiş hadisəyə görə məsuliyyətin tam şəkildə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşdüyü qeyd edildi.

Fakt üzrə Qubadlı Hərbi Prokurorluğunda Cinayət Məcəlləsinin 29,120.2.12-ci (milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə qəsdən adam öldürməyə cəhd) maddəsi ilə cinayət işi başlanılaraq, şahidlər dindirilir, müvafiq ekspertizalar təyin edilərək, icraya yönəldilib və təxirəsalınmaz zəruri istintaq hərəkətləri həyata keçirilir.

Eyni zamanda, Müdafiə Nazirliyinin dünən yaydığı məlumatda bildirildi ki, fevralın 12-si saat 20:50-də və 23:40-da Ermənistan silahlı qüvvələrinin bölmələri Tovuzqala rayonunun Çinarlı yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən ordumuzun Tovuz rayonunun Koxanəbi yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub. Ermənistan müdafiə nazirliyi isə dörd hərbçisinin öldüyünü, birinin yaralandığını etiraf edib.

*(ardı 9-cu səhifədə)*

# Hərbi təxribat Ermənistanın sülhə çıxışını ağırlaşdıracaq!

*Rəsmi İrəvan və havadarları bunu anlamalıdırlar*



**Əminliklə deyə bilərik ki, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin Azərbaycan Prezidenti İlham Əliyevə yenidən dövlət başçısı seçilməsi münasibətilə etdiyi telefon zəngi zamanı səsləndirdiyi fikirlər heçə endi. Daha doğrusu, Ermənistan tərəfindən heçə endirildi. Xatırladaq ki, Ş.Mişel ölkəmizin liderindən Brüsseldə Azərbaycan–Ermənistan danışıqlarının davamına münasibət bildirməsini xahiş etmişdi. Prezident İlham Əliyev isə öz növbəsində vurğulamışdı ki, Azərbaycan Brüssel formatı çərçivəsində Ermənistanla sülh təmaslarına hazırdır.**

Görünür, İrəvan sülhə hazır, daha doğrusu, razı deyil. Əslində, baş nazir Nikol Paşinyan bir neçə gün əvvəl Britaniyanın "Teleqraf" nəşrinə müsahibəsində, faktiki olaraq, prosesdə maraqlı olmadığını göstərmişdi. Qonşu ölkələrə ərazi iddiasını hüquqi normaya çevirmiş Ermənistanın lideri Bakını nəinki İrəvana, eləcə də digər qonşu dövlətlərə hücum potensialını özündə daşıyan təcavüzkar kimi qələmə vermişdir. Nikol müsahibəsində sülh prosesinə zidd digər aqressiv tonlu fikirlər də səsləndirmişdir. Deməli, hazırkı təxribat üçün zəminin haradan qaynaqlandığı aydındır.

Bəli, birmənalı qaydada bildirmək mümkündür ki, sərhəd insidenti Ermənistanın növbəti təxribatıdır. Fikrimizin isbatı üçün bir məqama diqqət yetirək. Ermənistan müdafiə nazirliyi ölkənin silahlı qüvvələrinin bölmələrinin qarşı tərəfin mövqelərini atəşə tutması barədə Azərbaycan Müdafiə Nazirliyinin yaydığı məlumatı təkzib edib. Ancaq Ermənistanın hərbi polisi bildirib ki, məsələ araşdırılmaqdadır. İkincinin məlumatında o da bildirilib ki, yuxarı komandanlığın yazılı əmrlərində vəziyyəti qiymətləndirən hərbçinin atəş açmaq barədə qərar qəbul edə biləcəyi və ya etməyə borclu olduğu hallar dəqiq müəyyənləşib. Fakt təsdiqlənərsə, əmri pozan şəxslər məsuliyyətə cəlb ediləcəklər. Göründüyü kimi, Ermənistan MN-nin qəti təkzib ritorikası ilə ölkənin hərbi polisinin yanaşması üst-üstə düşmür. Bu da bir daha hadisənin təxribat, ancaq çiy düşünülmüş təxribat olduğunu təsdiqləyir.

*(ardı 6-cı səhifədə)*



# İrəvan Moskvadan qopmağa çalışır

**Bu ilin mayında Nikol Paşinyanın Ermənistana rəhbərlik etməsinin altı ili tamam olacaq. Paşinyanın hakimiyyətə gəlişi böyük hay-küyə səbəb olmuşdu. Həmin dövrdə İrəvanda baş verənlər dünyada və regionumuzda, o cümlədən, Azərbaycanda və Rusiyada da diqqətlə izlənilirdi. Məsələ onda idi ki, Paşinyanın rəhbərlik etdiyi hərəkat bu müddət ərzində Ermənistanda kök salmış və bütün sahələrə öz adamlarını yerləşdirmiş, talançılıqla məşğul olmuş "Qarabağ klanı"nı tarixin səhnəsindən, necə deyərlər, süpürüb atmışdı.**

*(ardı 8-ci səhifədə)*

# Tramp Avropanın təhlükəsizlik arxitekturasını lərzəyə gətirib



**ABŞ-da prezident seçkiləri yaxınlaşdıqca, Avropada siyasi gərginlik də mütənasib olaraq artır. Bu gərginlik ondan irəli gəlir ki, Respublikaçıların namizədi Donald Tramp Ağ Evə qayıtsa, Aİ və NATO üçün çətin günlər başlayacaq.**

Ukraynanı dəstəkləyən, Rusiyanı cilovlamağa çalışan Avropa ABŞ kimi mühüm ticarət və güclü hərbi müttəfiqini itirmək riski ilə üzləşəcək.

*(ardı 11-ci səhifədə)*

# Prezidentin Mətbuat Xidmətinin məlumatı

**Fevralın 13-də Moldova Respublikasının Prezidenti Maya Sandu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Maya Sandu İlham Əliyevi prezident seçkilərində qələbə münasibətilə təbrik edib, ölkənin inkişafı naminə fəaliyyətində uğurlar arzulayıb.

Dövlətimizin başçısı göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə olunub, əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb.

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli cənab Prezident.**

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırır və bu şərəfli, həmçinin məsuliyyətli missiyanın yerinə yetirilməsində uğurlar arzulayıram.

Ümidvaram ki, Polşa ilə Azərbaycan arasında uzunmüddətli dostluq və məhsuldar əməkdaşlıq bundan sonra da dinamik inkişaf edərək həm dövlətlərimizə, həm də xalqlarımıza nəzərəçarpacaq faydalar gətirəcəkdir. Həmçinin ümid edirəm ki, ölkələrimiz arasında intensiv siyasi dialoqun davam etdirilməsi və ikitərəfli münasibətlər xüsusən də iqtisadi sahədə birgə layihələrin və öhdəliklərin həyata keçirilməsi yolu ilə davamlı şəkildə inkişaf etdiriləcəkdir. Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin yeni əməkdaşlıq Sazişi çərçivəsində daha da dərinləşəcəyinə və bunun ikitərəfli sahədə də nəzərəçarpacaq faydalar gətirəcəyinə ümidvaram.

Cənab Prezident, arzu edirəm ki, növbəti səlahiyyət müddətinizdə Azərbaycanın hərtərəfli inkişafı, ölkənin beynəlxalq aləmdə imicinin möhkəmləndirilməsi üçün nəzərdə tutduğunuz bütün proqramları həyata keçirəsiniz.

Bundan əlavə, mən Sizin üçün əlverişli vaxtda Polşaya rəsmi səfər dəvətimi bir daha təsdiq edirəm.

Cənab Prezident, Sizə cansağlığı, Azərbaycan Respublikasının möhkəmlənməsi və onun bütün vətəndaşlarının firavanlığı naminə fəaliyyətinizdə böyük uğurlar arzulayıram.

**Böyük hörmətlə,**

***Andjey DUDA,***
***Polşa Respublikasının Prezidenti***

# Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası Prezidenti seçkilərinin yekunlarını elan edib

*(əvvəli 1-ci səhifədə)*

Səsvermənin nəticələri haqqında MSK-nın protokolu, qərar və ona əlavə olunmuş sənədlər səsvermənin nəticələrinin təsdiq və rəsmən elan edilməsi üçün Konstitusiya Məhkəməsinə təqdim olunub. “Konstitusiya Məhkəməsi haqqında” qanunun 56.3-cü maddəsinə müvafiq olaraq Konstitusiya Məhkəməsinin Plenumu seçkilərin yekunlarına dair MSK-nın sənədlərinin Seçki Məcəlləsinin tələblərinə uyğun olduğunu müəyyən etdikdə seçkilərin nəticələrinin təsdiq olunması barədə qərar qəbul edir.

Daha sonra məruzəçi hakim Kamran Şəfiyev çıxış edərək diqqətə çatdırıb ki, seçkilərin nəticələri ilə bağlı MSK tərəfindən təqdim olunmuş protokolun Seçki Məcəlləsinin tələblərinə uyğun olub-olmamasının öyrənilməsi məqsədilə Dövlət Statistika Komitəsinin və Bakı Dövlət Universitetinin əməkdaşları iş üzrə ekspert qismində cəlb olunub. Bundan başqa, “Konstitusiya Məhkəməsi haqqında” qanunun 56-cı maddəsinə əsasən Azərbaycan Respublikasının Apellyasiya məhkəmələrindən, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsindən, Azərbaycan Respublikasının Ali Məhkəməsindən və Azərbaycan Respublikasının Prokurorluğundan seçki hüquqlarının müdafiəsi ilə bağlı baxılmış ərizələr əsasında məlumatlar tələb etmişdir. Konstitusiya Məhkəməsinə daxil olmuş məlumatlardan göründüyü kimi, seçki hüquqlarının müdafiəsi ilə bağlı Bakı Apellyasiya Məhkəməsində 8, Sumqayıt Apellyasiya Məhkəməsində isə 1 ərizəyə baxılıb. Həmin ərizələr əsassız olduğuna görə təmin edilməyib. Ali Məhkəmədən daxil olmuş məlumatlara əsasən, verilmiş üç kassasiya şikayəti təmin edilmədən saxlanılıb. Gəncə, Şirvan, Şəki Apellyasiya məhkəmələri və Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi seçki hüquqlarının müdafiəsi ilə bağlı hər hansı ərizənin daxil olmadığını bildiriblər. Azərbaycan Respublikası Prokurorluğunun məlumatına əsasən, seçki hüquqlarının pozulması ilə əlaqədar bir şikayət üzrə aparılmış araşdırma zamanı həmin şikayətdə irəli sürülmüş dəlillərin öz təsdiqini tapmadığı müəyyən edilib.

Məruzəçi hakim bildirib ki, Seçki Məcəlləsinin 28.2-ci maddəsinə uyğun olaraq, MSK-nın qərarları açıq səsvermə yolu ilə komissiyanın iclasında üzvlərinin 18-nin iştirak etdiyi halda və azı 12 üzvün səs çoxluğu ilə qəbul edilir. Seçki Məcəlləsinin 100.12-ci maddəsində nəzərdə tutulub ki, protokollar komissiyanın həlledici səs hüquqlu üzvünün ümumi sayının ən azı üçdə ikisi tərəfindən imzalanmalıdır. MSK-nın təqdim etdiyi protokoldan da göründüyü kimi, bu protokol komissiyanın 18 üzvündən 18-i tərəfindən imzalanıb.

Konstitusiyanın 101-ci maddəsinin II hissəsinə və Seçki Məcəlləsinin 203.4-cü maddəsinə müvafiq olaraq, Azərbaycan Respublikasının Prezidenti səsvermədə iştirak edənlərin yarısından çoxunun səs çoxluğu ilə seçilir. MSK-nın protokolundan göründüyü kimi, etibarlı hesab edilmiş seçici səslərindən 4 milyon 567 min 458-i və ya 92,12 faizi Əliyev İlham Heydər oğlunun lehinə verilib.

Sonra maraqlı subyektin qanuni nümayəndəsi, Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov çıxış edib. MSK sədri deyib ki, Azərbaycan Respublikasının Prezidenti tərəfindən növbədənkənar prezident seçkilərinin keçirilməsi ilə bağlı Sərəncam imzalandıqdan sonra MSK seçkilərin hazırlanıb keçirilməsinə məsul ali orqan kimi öz işinə başlamışdı. Seçkilər elan edildikdən sonra namizəd kimi iştirak etmək arzusunda olan 17 subyektdən Mərkəzi Seçki Komissiyasına müraciətlər daxil olub. Bu müraciətlərin 5-i siyasi partiyalar tərəfindən, 12-si isə namizədliyi özü tərəfindən irəli sürülmüş şəxslər tərəfindən idi. MSK bütün tərəflərə ilkin mərhələdə müsbət cavab verib. Komissiyanın iclasında 17 nəfərin namizədliyi təsdiqlənib. Seçki Məcəlləsinin tələbinə uyğun lazım olan seçici imzalarının toplanması üçün həmin namizədlər imza vərəqələri ilə təmin edilib. Məcəllənin tələbinə görə, 40 min imza toplamaq tələb olunurdu. Həmin 40 min imza mövcud 125 dairənin 60-dan toplanmalı idi. İmza vərəqələrini və ona əlavə olunmuş sənədləri geri qaytaran 7 iddiaçının hamısının namizədliyi qeydə alınıb. Onlardan 5-nin namizədliyi siyasi partiyalar tərəfindən irəli sürülüb, 2-si isə öz təşəbbüsü ilə seçkilərə qatılıb.

Seçkilərdə şəffaflığın yüksək səviyyədə təmin olunmasına xüsusi diqqət yetirildiyini deyən Məzahir Pənahov qeyd edib ki, seçkilər keçirildikdən iki gün ərzində protokollar MSK-ya təqdim olunur: “Biz bu sənədlərlə tanış olduqdan sonra hər hansı çatışmazlıqların olub-olmadığını müəyyən edirik. Hər hansı xoşagəlməz hal olduğu zaman araşdırılır. Budəfəki seçkilərdə araşdırmadan sonra 11 məntəqə seçki komissiyasında nöqsanlar olduğu aşkar edilib. MSK-nın qərarı ilə həmin seçki məntəqələrinin məntəqə seçki komissiyaları buraxılıb”.

MSK sədri bildirib ki, prezident seçkiləri ərəfəsində Mərkəzi Seçki Komissiyasına vətəndaşlar tərəfindən çoxsaylı müraciətlər daxil olub. Vətəndaşlar xahiş ediblər ki, Mərkəzi Seçki Komissiyası qeydiyyatdan çıxma vəsiqələri almaları və azad edilmiş ərazilərdə səs vermələri üçün onlara şərait yaratsın. Onlara izah olunurdu ki, bu, indiki mərhələdə mümkün olmayan məsələdir.

“Biz Mərkəzi Seçki Komissiyasının ilk iclasında bu seçkiləri Zəfər seçkiləri adlandırmışdıq. İlk günlərdən etibarən işğaldan azad edilmiş ərazilərdə səsvermənin necə təşkil edilməsi ilə bağlı araşdırmalar apardıq. Seçki Məcəlləsinin tələbinə görə, orada son iki ildə həyata keçirilən tikinti, bərpa və quruculuq işlərində iştirak edən şəxslər son 6 ay ərzində həmin ərazidə yaşadıqlarına görə onlar da həmin ərazi üzrə siyahılara daxil edilməli idi. Nəticədə həmin ərazidə təxminən 22 mindən artıq daimi əsaslarla yaşayan seçicini siyahıya aldıq”, – deyə MSK sədri qeyd edib.



Sonra Məzahir Pənahov Konstitusiya Məhkəməsinin hakimlərinin suallarını cavablandırıb.

İclasa ekspert qismində dəvət olunmuş Dövlət Statistika Komitəsinin ümumi şöbəsinin müdiri Sevda Süleymanova bildirib ki, Azərbaycan Respublikası Prezidenti seçkilərinə dair Mərkəzi Seçki Komissiyasının 2024-cü il 11 fevral tarixli protokolu Seçki Məcəlləsinin 100.2-ci, 100.12-ci, 108.2-ci və 203.3-cü maddələri baxımından düzgün tərtib edilib və qanunvericiliyin tələblərinə uyğundur.

Digər ekspert – Bakı Dövlət Universitetinin hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru Nəsib Şükürovun rəyinə əsasən, prezident seçkilərinin nəticələrinə dair MSK-nın protokolu Seçki Məcəlləsinin müvafiq maddələrinin tələblərinə tam cavab verir.

Ekspertlərin rəyləri Konstitusiya işinə əlavə olunub.

Sonra MSK sədri Məzahir Pənahov yekun sözlə çıxış edib. Bildirib ki, Seçki Məcəlləsinin və digər qanunvericilik aktlarının tələblərinə uyğun olaraq bu proseslərdə vəzifələri olan qurumlar öz vəzifələrinin öhdəsindən uğurla gəliblər.

Konstitusiya Məhkəməsi Plenumunun prezident seçkiləri ilə bağlı keçirilən iclasında hakimlər qərarın elan olunması üçün müşavirəyə gediblər.

Müşavirədən sonra Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinin təsdiq və rəsmən elan olunmasına dair qərarı oxuyub.

Qərarda deyilir ki, 2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 11 fevral tarixli protokolunda əks olunmuş nəticələr təsdiq edilsin.

Azərbaycan Respublikasının Prezidentliyinə namizəd Əliyev İlham Heydər oğlu Azərbaycan Respublikasının Prezidenti seçilmiş elan edilsin.

Qərar elan olunduğu andan qüvvəyə minir, Azərbaycan Respublikasının rəsmi dövlət qəzetlərində və “Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı”nda dərc edilsin, habelə Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.

Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Fərhad Abdullayev Konstitusiya Məhkəməsi Plenumunun iclasını bağlı elan edib.

# Azərbaycan Respublikası adından Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun qərarı

**2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinin təsdiq və rəsmən elan edilməsinə dair**

**13 fevral 2024-cü il**
**Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova (məruzəçi-hakim), Humay Əfəndiyeva, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, İsa Nəcəfov və Kamran Şəfiyevdən (məruzəçi-hakim) ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyev və Vüqar Zeynalovun,

maraqlı subyektin nümayəndələri Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahovun, sədr müavini Rövzət Qasımovun, katibləri Arifə Muxtarova və Mikayıl Rəhimovun, üzvləri Fuad Cavadov, Şaitdin Əliyev, Bəxşeyiş Əsgərov, Nailə Əsgərova, Tofiq Həsənov, Ramiz İbrahimov, Validə Kazımova, İlham Məmmədov, Nizami Nadirxanlı, Qabil Orucov, Hüseyn Paşayev, Almas Qəhramanlı, Etibar Quliyev və İlkin Şahbazovun,

ekspertlər Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin əməkdaşları Sevda Süleymanova və Fərid Əhmədovun, Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru Nəsib Şükürov və İnsan hüquqları və informasiya hüququ kafedrasının professoru, hüquq elmləri doktoru Etibar Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 102-ci maddəsinə və 130-cu maddəsinin VIII hissəsinə müvafiq olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasından daxil olmuş protokol və ona əlavə edilmiş sənədlər üzrə 2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinə dair xüsusi konstitusiya icraatı qaydasında konstitusiya işinə baxdı.

Hakimlər S.Salmanova və K.Şəfiyevin məruzələrini, maraqlı subyektin nümayəndəsi M.Pənahovun çıxışını, ekspertlər S.Süleymanova və N.Şükürovun rəylərini dinləyib, iş materiallarını öyrənərək Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**M Ü Ə Y Y Ə N  E T D İ:**

Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin I hissəsinə, Azərbaycan Respublikası Seçki Məcəlləsinin müvafiq maddələrinə və Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 7 dekabr tarixli Sərəncamına uyğun olaraq 2024-cü il fevralın 7-də növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri keçirilmişdir.

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 108.2 və 203.3-cü maddələrinə müvafiq olaraq səsvermənin nəticələri haqqında dairə seçki komissiyalarının protokollarında olan bütün məlumatları ümumiləşdirərək, Azərbaycan Respublikası Prezidenti seçkiləri üzrə səsvermənin nəticələrinə dair 2024-cü il 11 fevral tarixli protokolu tərtib etmişdir. Həmin protokol Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 11 fevral tarixli 10/36 saylı qərarı ilə təsdiq edilmişdir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 203.1-ci maddəsinə əsasən, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Konstitusiyasının 102-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrini təsdiq və rəsmən elan edilməsi üçün Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə təqdim etmişdir.

Seçkilərin yekunlarına dair Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası tərəfindən təqdim olunmuş sənədlərin Azərbaycan Respublikası Seçki Məcəlləsinin tələblərinə uyğunluğunun yoxlanılması məqsədilə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi müvafiq ekspertləri cəlb etmiş, “Konstitusiya Məhkəməsi haqqında” Azərbaycan Respublikası Qanununun 56-cı maddəsinə əsasən Azərbaycan Respublikasının apellyasiya məhkəmələrindən, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsindən, Azərbaycan Respublikasının Ali Məhkəməsindən və Azərbaycan Respublikasının Prokurorluğundan seçki hüquqlarının müdafiəsi ilə bağlı məlumatları tələb etmişdir.

Azərbaycan Respublikası Prezidenti seçkilərinin yekunlarına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası tərəfindən təqdim olunmuş sənədlərdən göründüyü kimi, seçki qutularında 4 967 795 (dörd milyon doqquz yüz altmış yeddi min yeddi yüz doxsan beş) seçki bülleteni müəyyən edilmiş, bunlardan 9 828 (doqquz min səkkiz yüz iyirmi səkkiz) səs etibarsız hesab edilmişdir.

Etibarlı hesab edilmiş 4 957 967 (dörd milyon doqquz yüz əlli yeddi min doqquz yüz altmış yeddi) səs prezidentliyə namizədlər arasında aşağıdakı qaydada bölünmüşdür:

**Əliyev Fuad Ağası oğlu** – lehinə 26 517 (iyirmi altı min beş yüz on yeddi) səs və ya 0.54 faiz;

**Əliyev İlham Heydər oğlu** – lehinə 4 567 458 (dörd milyon beş yüz altmış yeddi min dörd yüz əlli səkkiz) səs və ya 92.12 faiz;

**Həsənquliyev Qüdrət Müzəffər oğlu** – lehinə 85 411 (səksən beş min dörd yüz on bir) səs və ya 1.72 faiz;

**Musayev Elşad Nəbi oğlu** – lehinə 32 885 (otuz iki min səkkiz yüz səksən beş) səs və ya 0.66 faiz;

**Mustafa Fazil Qəzənfər oğlu** – lehinə 98 421 (doxsan səkkiz min dörd yüz iyirmi bir) səs və ya 1.99 faiz;

**Nurullayev Razi Qulaməli oğlu** – lehinə 39 643 (otuz doqquz min altı yüz qırx üç) səs və ya 0.80 faiz;

**Oruc Zahid Məhərrəm oğlu** – lehinə 107 632 (yüz yeddi min altı yüz otuz iki) səs və ya 2.17 faiz.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 100.12-ci maddəsinə görə, protokollar seçki komissiyasının həlledici səs hüquqlu üzvlərinin ümumi sayının ən azı 2/3-si tərəfindən imzalanır. Həmin Məcəllənin 28.2-ci maddəsinə əsasən, Mərkəzi Seçki Komissiyasının qərarları açıq səsvermə yolu ilə Mərkəzi Seçki Komissiyasının iclasında komissiya üzvlərinin 17-si və ya 18-i iştirak edərsə – azı 12 üzvün səs çoxluğu ilə qəbul edilir.

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə təqdim olunmuş səsvermənin nəticələri haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının protokolu Mərkəzi Seçki Komissiyasının 18 üzvündən 18-i tərəfindən imzalanmışdır.

Ekspert S.Süleymanova bildirmişdir ki, Azərbaycan Respublikası Prezidenti seçkilərinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 11 fevral tarixli protokolu Azərbaycan Respublikası Seçki Məcəlləsinin 100.2, 100.12, 108.2 və 203.3-cü maddələri baxımından düzgün tərtib edilmişdir və qanunvericiliyin tələblərinə uyğundur.

Ekspert N.Şükürovun rəyinə əsasən, Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının protokolu Azərbaycan Respublikası Seçki Məcəlləsinin müvafiq maddələrinin tələblərinə tam cavab verir.

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə daxil olmuş məlumatlardan göründüyü kimi, seçki hüquqlarının müdafiəsi ilə bağlı Bakı Apellyasiya Məhkəməsində səkkiz, Sumqayıt Apellyasiya Məhkəməsində isə bir ərizəyə baxılmış və həmin ərizələr əsassız olduğundan təmin edilməmişdir.

Azərbaycan Respublikası Ali Məhkəməsinin məlumatına görə, məhkəmə aktlarından verilmiş üç kassasiya şikayəti təmin olunmadan saxlanılmışdır.

Gəncə, Şirvan, Şəki Apellyasiya Məhkəmələri və Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi seçki hüquqlarının müdafiəsi ilə bağlı hər hansı ərizənin daxil olmadığını bildirmişlər.

Azərbaycan Respublikası Prokurorluğunun məlumatına əsasən, seçki hüquqlarının pozulması ilə əlaqədar bir şikayət üzrə aparılmış araşdırma zamanı həmin şikayətdə irəli sürülmüş dəlillərin öz təsdiqini tapmadığı müəyyən edilmişdir.

Göstərilənləri nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu 2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 11 fevral tarixli protokolunu Azərbaycan Respublikası Seçki Məcəlləsinin 100.2, 100.12, 108.2 və 203.3-cü maddələrinin tələblərinə uyğun hesab edir.

Bununla əlaqədar olaraq Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu belə nəticəyə gəlir ki, Azərbaycan Respublikası Prezidenti seçkilərinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının protokolunda əks olunmuş nəticələr təsdiq edilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin II hissəsinə əsasən, Azərbaycan Respublikasının Prezidenti səsvermədə iştirak edənlərin yarısından çoxunun səs çoxluğu ilə seçilir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 203.4-cü maddəsinə müvafiq olaraq, Azərbaycan Respublikasının Prezidentliyinə namizədə səsvermədə iştirak etmiş seçicilərin yarısından çoxu səs verdikdə, o, Azərbaycan Respublikasının Prezidenti seçilmiş sayılır.

Qeyd olunduğu kimi, etibarlı hesab edilmiş seçici səslərindən 4 567 458 (dörd milyon beş yüz altmış yeddi min dörd yüz əlli səkkiz) səs və ya 92.12 faiz Əliyev İlham Heydər oğlunun lehinə verilmişdir.

Beləliklə, Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin II hissəsinin və Azərbaycan Respublikası Seçki Məcəlləsinin 203.4-cü maddəsinin tələblərinə uyğun olaraq Azərbaycan Respublikasının Prezidentliyinə namizəd Əliyev İlham Heydər oğlu Azərbaycan Respublikasının Prezidenti seçilmiş elan edilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 102-ci maddəsini, 130-cu maddəsinin VIII və IX hissələrini, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 203.1-ci maddəsini, “Konstitusiya Məhkəməsi haqqında” Azərbaycan Respublikası Qanununun 56, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**Q Ə R A R A  A L D I:**

1. 2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 11 fevral tarixli protokolunda əks olunmuş nəticələr təsdiq edilsin.
2. Azərbaycan Respublikasının Prezidentliyinə namizəd Əliyev İlham Heydər oğlu Azərbaycan Respublikasının Prezidenti seçilmiş elan edilsin.
3. Qərar elan olunduğu andan qüvvəyə minir.
4. Qərar Azərbaycan Respublikasının rəsmi dövlət qəzetlərində və “Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı”nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.
5. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr Fərhad ABDULLAYEV**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

Azərbaycan Respublikasının Prezidenti seçkilərində qələbəniz münasibətilə Zati-alinizə səmimi təbriklərimi və ən xoş arzularımı bildirməkdən məmnunam.

Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Azərbaycan Respublikasının hökumətinə və xalqına tərəqqi və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***Şeyx Məhəmməd bin Zayed Al NƏHYAN,***
***Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti***

***

**Möhtərəm cənab Prezident!**

Növbədənkənar Prezident seçkilərində qazandığınız inamlı qələbə münasibətilə Zati-alinizə ən səmimi təbriklərimi çatdırır və ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirəm.

Zati-aliləri, Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Azərbaycan Respublikasının hökumətinə və xalqına inkişaf və firavanlıq arzulayıram.

**Dərin hörmətlə,**

***Şeyx Məhəmməd bin Rəşid Al MƏKTUM,***
***Birləşmiş Ərəb Əmirliklərinin Vitse-prezidenti,***
***Baş naziri və Dubayın Əmiri***

***

**Cənab Prezident!**

İcazə verin, Sizi Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Vyetnam Sosialist Respublikasının dövləti və xalqı adından, şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edim.

Vyetnam Sizin rəhbərliyinizlə ölkənin quruculuq və inkişafı işində Azərbaycan xalqının əldə etdiyi nailiyyətləri maraqla izləyir və buna görə sevinir.

Tam əminəm ki, Vyetnam və Azərbaycan arasında ənənəvi dostluq, bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlıq getdikcə daha da möhkəmlənəcək, inkişaf edəcək və bu, iki xalqın istəklərinə və maraqlarına cavab verəcək.

Cənab Prezident, fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və şərəfli vəzifənizdə çoxlu qələbələr arzulayıram.

**Hörmətlə,**

***Vo Van TXIONQ,***
***Vyetnam Sosialist Respublikasının Prezidenti***

***

**Hörmətli cənab Prezident!**

Yenidən dost Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Fürsətdən istifadə edərək dost ölkələrimizi birləşdirən sıx əlaqələrdən məmnunluğumuzu ifadə edirəm. Bu əlaqələrin ölkələrimizin ortaq mənafeyi naminə daha da inkişaf etdirilməsi və gücləndirilməsinə olan əzmimizi bir daha vurğulayıram.

Zati-aliləri, Sizə cansağlığı və uğurlar, Azərbaycan Respublikasına və xalqına davamlı inkişaf və tərəqqi arzulayıram.

**Dərin hörmət və ehtiramımı qəbul edin.**

***Şeyx Məşəl əl-Əhməd əl-Cabir əs-SABAH,***
***Küveyt Dövlətinin Əmiri***

***

**Zati-aliləri Prezident İlham Əliyev!**

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz və xalqınızın Zati-alinizə inamının bir daha təsdiqi münasibətilə Sizə səmimi təbriklərimizi və xeyir-duamızı çatdırmaqdan məmnunluq hissi duyuruq.

Bəhreyn Krallığı və Azərbaycan Respublikası arasında bizim də diqqət yetirdiyimiz və yüksək dəyərləndirdiyimiz ikitərəfli münasibətlərə görə Sizə dərin minnətdarlığımızı bildiririk. Ölkələrimiz və xalqlarımızın maraqları naminə bu əlaqələri bütün sahələrdə möhkəmləndirmək istiqamətində Zati-alinizlə işləməyə ümidvarıq.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Azərbaycan xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

Zati-alinizə ən yüksək ehtiramımı bildirirəm.

**Hörmətlə,**

***Həməd bin İsa Al XƏLİFƏ,***
***Bəhreynin Kralı***

***

**Hörmətli cənab Prezident!**

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edir, ali dövləti fəaliyyətinizdə daha möhtəşəm uğurlar arzulayıram.

Bu fürsətdən istifadə edərək Zati-alinizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Azərbaycan Respublikasının hökumətinə və xalqına isə firavanlıq diləyirəm.

**Hörmətlə,**

***Mansur bin Zayed Al NƏHYAN,***
***Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti,***
***Baş nazirin müavini, Prezident işləri naziri***

***

**Hörmətli cənab Prezident!**

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz və xalqınızın Sizə etimadının bir daha təsdiqi münasibətilə Zati-alinizə səmimi təbriklərimizi və xeyir-duamızı çatdırmaqdan məmnunuq.

Bəhreyn Krallığı ilə Azərbaycan Respublikası arasında bizim də diqqət verdiyimiz və yüksək qiymətləndirdiyimiz ikitərəfli münasibətlərə görə Sizə dərin təşəkkürümüzü ifadə edirik. Ölkələrimizin və xalqlarımızın maraqları naminə bu münasibətləri bütün sahələrdə inkişaf etdirmək istiqamətində Zati-alinizlə işləməyə ümid edirik.

Sizə möhkəm cansağlığı, səadət, dost Azərbaycan xalqının firavanlığı naminə fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram.

Zati-alinizə ən yüksək ehtiramımı bildirirəm.

**Hörmətlə,**

***Salman bin Həməd Al XƏLİFƏ,***
***Bəhreyn Krallığının vəliəhdi və Baş naziri***

***

**Hörmətli İlham Heydər oğlu!**

Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Səsvermənin nəticələri Azərbaycanın qarşısında xidmətlərinizin təsdiqinin, əhalinin rifahının yüksəlməsinə, beynəlxalq aləmdə ölkənin nüfuzunun möhkəmləndirilməsinə yönəlmiş kursunuza birmənalı dəstəyin əyani sübutudur.

Rusiya ilə Azərbaycan arasında geniş əməkdaşlığın inkişafına Sizin şəxsi töhfəniz çox böyük əhəmiyyət kəsb edir. Əminəm ki, müttəfiqlik qarşılıqlı əlaqələrinin gələcəkdə də hərtərəfli genişləndirilməsi xalqlarımızın maraqlarına cavab verir, Cənubi Qafqazda və Xəzər regionunda təhlükəsizliyin möhkəmləndirilməsinə xidmət edir.

Hörmətli İlham Heydər oğlu, Sizə yeni uğurlar, Azərbaycan vətəndaşlarına isə əmin-amanlıq və firavanlıq arzu edirəm.

**Ən xoş arzularla,**

***Dmitri MEDVEDEV,***
***Rusiya Federasiyası Təhlükəsizlik Şurası sədrinin müavini***

***

**Hörmətli İlham Heydər oğlu!**

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Seçkilərdə qazandığınız inamlı qələbə ümumxalq etimadının və Azərbaycan dövlətinin fəaliyyətinin bütün sahələrinin hərtərəfli inkişafına, ölkənizin beynəlxalq arenada mövqelərinin möhkəmlənməsinə, regional və qlobal təhlükəsizliyin təminatına yönələn kursun parlaq sübutudur.

Qırğızıstanla Azərbaycanı çoxəsrlik sıx dostluq telləri bağlayır. Bizim dövlətlərarası münasibətlərimiz bu möhkəm təməl üzərində uğurla inkişaf edir. Biz Qırğızıstan-Azərbaycan hərtərəfli əməkdaşlığının genişlənməsinə Sizin şəxsi töhfənizi yüksək dəyərləndiririk.

Əminəm ki, Qırğızıstan ilə Azərbaycan arasında strateji tərəfdaşlığın möhkəmləndirilməsi üzrə birgə səylərimiz bundan sonra da qardaş xalqlarımızın və ölkələrimizin maraqlarına, regionda sülhə, təhlükəsizliyə və tərəqqiyə kömək edəcək.

Möhtərəm Prezident, icazə verin, Sizə möhkəm cansağlığı, səadət, ali dövləti vəzifənizdə yeni-yeni uğurlar və nailiyyətlər, qardaş Azərbaycan xalqına sülh və firavanlıq arzu edim.

**Dərin hörmətlə,**

***Kamçıbek TAŞİYEV,***
***Qırğız Respublikasının Nazirlər Kabineti sədrinin müavini, Dövlət Milli Təhlükəsizlik Komitəsinin sədri***

***

**Zati-aliləri!**

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram. Bu nəticə Azərbaycan xalqının Sizin liderliyinizə və ölkənizlə bağlı strategiyanıza olan inamını və etimadını nümayiş etdirir. Sizin rəhbərliyinizlə Azərbaycan müxtəlif sahələrdə, o cümlədən turizm sahəsində mühüm nailiyyətlər əldə etmiş və bu nailiyyətlər ölkənin inkişafına töhfə vermişdir.

Sizin iqtisadi inkişafa yüksək diqqətiniz, mədəni müxtəlifliyin təşviqinə və dayanıqlı turizmin inkişafına sadiqliyiniz BMT-nin Dünya Turizm Təşkilatının müdafiə etdiyi məqsəd və dəyərlərlə harmonik şəkildə uyğundur. Mən bu təşkilatın Baş katibi olaraq əminəm ki, Sizin müdrik rəhbərliyinizlə Azərbaycan bundan sonra da beynəlxalq turizmə töhfə verəcəkdir.

Biz Azərbaycanla əməkdaşlığımızı daha da möhkəmləndirməyə ümidvarıq və Sizin həm yerli icmaların, həm də daha geniş beynəlxalq turizm sektorunun faydalana biləcəyi turizm sahəsinin inkişafı, eləcə də davamlı və məsuliyyətli turizmin təşviqi istiqamətində fəaliyyətinizə dəstək verməyə hazırıq.

Sizin liderliyinizin Azərbaycanın daha da inkişafına töhfə verməkdə davam edəcəyinə əmin olduğumu bildirirəm. Sizi yenidən Prezident seçilməyiniz münasibətilə bir daha təbrik edir, uğurlar və firavanlıq arzulayıram.

Zati-aliləri, Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Zurab POLOLİKAŞVİLİ,***
***Dünya Turizm Təşkilatının Baş katibi***

***

**Zati-aliləri cənab Prezident!**

Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) Katibliyi adından və şəxsən öz adımdan Sizi 2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

İlk dəfə olaraq seçkilərin ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş qardaş Azərbaycanın bütün ərazisində keçirilməsi mühüm tarixi hadisə kimi qiymətləndirilir.

Xalqın rifahına və ölkənin hərtərəfli inkişafına yönəlmiş məqsədyönlü və uğurlu siyasəti təmin etməyə, respublikanın beynəlxalq aləmdə mövqeyini möhkəmləndirməyə qadir lider kimi növbəti dəfə bu şərəfli vəzifəyə seçilməyiniz Azərbaycan xalqının Sizə və siyasi kursunuza olan etimadının bariz nümunəsidir.

Bu xoş fürsətdən istifadə edərək, Sizi bir daha təbrik edir, Sizə möhkəm cansağlığı, ali dövləti fəaliyyətinizdə və bütün təşəbbüslərinizdə uğurlar diləyirəm.

**Dərin hörmət və ehtiramla,**

***Mehmet Süreyya ER,***
***Türk Dövlətləri Parlament Assambleyasının Baş katibi***

***

**Hörmətli cənab Prezident!**

Şimali Amerikanın Mərkəzi Asiya mənşəli 80 min Buxara yəhudisi adından 2024-cü il fevralın 7-də keçirilən demokratik seçkilərdə qazandığınız yeni qələbə münasibətilə səmimi təbrikləri qəbul etməyinizi xahiş edirəm.

Sizin inamlı qələbəniz, yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz həyatın bütün sahələrində demokratik dəyişikliklərin dərinləşdirilməsi üzrə kursunuzun gələcəkdə də həyata keçirilməsinə zəmin yaradır. Şübhəsiz ki, Siz beynəlxalq əməkdaşlığa yeni impuls verirsiniz və ölkəni inkişaf etmiş demokratik dövlət quruculuğu yolu ilə inamla irəli aparırsınız.

Ölkənin yenidən seçilmiş Prezidenti olmaq həqiqətən də qürurvericidir və bütün dünyaya özünün beynəlxalq səviyyədə tanınan universallığını göstərir. Bu gün respublikada hüquqi bərabərlik, milli və dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşların azadlığı üçün hər cür şəraitin yaradılması bizi sevindirir.

Biz amerikalılarla görüşlərimiz zamanı və Amerika mediasında çıxışlarımızda Azərbaycanın həyatında müsbət dəyişiklikləri məmnunluqla diqqətə çatdırırıq və xalq diplomatiyasının imkanlarından istifadə edərək ABŞ ilə Azərbaycan arasında dostluq körpüsü rolunu oynamaqda davam edirik.

İstəyirik ki, Sizin həyatınız gələcəkdə də müdrikliklə və məğlubedilməzliklə zəngin olsun. Qoy, bu seçkilər respublikanın yeni zirvələr fəth etməsi yolunda yeni mərhələ olsun!

Sizi bir daha səmimi-qəlbdən təbrik edirik. Azərbaycana gələcəkdə də tərəqqi arzulayırıq.

Sizə və ailənizə möhkəm cansağlığı, əmin-amanlıq və dövlət başçısı kimi məsuliyyətli vəzifənizdə uğurlar diləyirəm.

Sizə dərin ehtiramıma əmin ola bilərsiniz.

**Səmimiyyətlə,**

***Boris KANDOV,***
***ABŞ və Kanadanın Buxara Yəhudiləri Konqresinin prezidenti***

***

**Hörmətli İlham Heydər oğlu!**

Azərbaycan Respublikası Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Rusiya ilə Azərbaycan arasında əməkdaşlıq ölkələrimizin xalqlarının maraqları naminə bundan sonra da uğurla inkişaf edəcəkdir.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, firavanlıq, Azərbaycan Respublikasının rifahı naminə yeni-yeni uğurlar və nailiyyətlər arzulayıram.

**Hörmətlə,**

***Leonid KALAŞNİKOV,***
***Rusiya Federasiyası Dövlət Dumasının MDB məsələləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə əlaqələr komitəsinin sədri***

***

**Hörmətli İlham Heydər oğlu!**

Azərbaycan Respublikası Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Sizin yenidən Prezident seçilməyiniz ölkə vətəndaşları arasında şəksiz nüfuzunuzu və Azərbaycanın sosial-iqtisadi inkişafının sürətləndirilməsi istiqamətində fəaliyyətinizə verilən yüksək qiyməti təsdiq etdi.

Əminəm ki, Sizin köməyinizlə ölkələrimiz arasında çoxplanlı əməkdaşlığın mühüm tərkib hissəsi olan Rusiya-Azərbaycan dialoqu gələcəkdə də inkişaf edəcəkdir.

Hörmətli İlham Heydər oğlu, Sizə ali dövləti fəaliyyətinizdə uğurlar, cansağlığı və əmin-amanlıq arzulayıram.

**Hörmətlə,**

***Gennadi ZÜQANOV,***
***Rusiya Federasiyası Federal Məclisinin Dövlət DumasındaKommunist Partiyası fraksiyasının rəhbəri***

***

**Möhtərəm cənab Prezident!**

İcazə verin, Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun rəhbərliyi və beynəlxalq kollektivi adından Sizi Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə təbrik edim.

Sizin növbədənkənar prezident seçkilərində qazandığınız qələbə ölkənin, o cümlədən milli elmin və beynəlxalq əlaqələrin dinamik inkişafı üzrə həyata keçirdiyiniz kursa geniş xalq dəstəyinin göstəricisidir.

Fürsətdən istifadə edərək bildirirəm ki, Sizin rəhbərliyiniz altında və hərtərəfli dəstəyiniz sayəsində respublikada aparılan elmi tədqiqatlar yüksək və dayanıqlı inkişaf templəri nümayiş etdirir. Bu tendensiya Azərbaycanın alimləri və gənc mütəxəssislərinin bizim institutun bazasında həyata keçirilən irimiqyaslı beynəlxalq layihələrdə uğurlu iştirakında da öz təsdiqini tapır.

Əminəm ki, gələcəkdə də elmi tərəfdaşlığımızın möhkəmləndirilməsi kadrların hazırlanması üçün istiqamət spektrlərini genişləndirməyə, Azərbaycanın və Birləşmiş Nüvə Tədqiqatları İnstitutuna digər üzv dövlətlərin maraqlarına uyğun fundamental və tətbiqi tədqiqatların aparılmasına imkan verəcəkdir.

Möhtərəm cənab Prezident, Sizə möhkəm cansağlığı və xalqınızın rifahı naminə böyük uğurlar, Azərbaycan Respublikasının vətəndaşlarına isə sabitlik, sülh və əmin-amanlıq arzulayıram.

**Dərin hörmətlə və səmimi arzularla,**

***Qriqori TRUBNİKOV,***
***Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun direktoru,***
***Rusiya Elmlər Akademiyasının akademiki***

***

**Möhtərəm İlham Heydər oğlu!**

Ümumdünya Türk Xalqları Assambleyası ümumtürk təşkilatının üzvləri – Türk superetnosu birliyinin və türk sivilizasiyasının dirçəlişi konseptual–nəzəri əsaslarının müəllifləri olaraq Sizi yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə təbrik edirik.

Öz ləyaqətli oğlunu, yeni zirvələrin fəthinin təminatçısını seçən bütün Azərbaycan xalqını da təbrik edirik.

Qardaş Azərbaycan xalqı Ümummilli lider, Türk dünyasının görkəmli xadimi Heydər Əliyevin müəyyənləşdirdiyi yolla irəliləyərək Sizin rəhbərliyinizlə sosial–iqtisadi inkişaf, dövlətçiliyin möhkəmləndirilməsi sahələrində böyük uğurlara nail olub.

Sizin hakimiyyətdə olduğunuz illər Azərbaycan xalqının tarixində, Türk dünyasının birliyi və dirçəlişində çox mühüm mərhələdir.

Bu nailiyyətlər həlledici məqamlarda özünü qeyri-adi şəkildə göstərən və Sizə xas olan yüksək mədəniyyət, diplomatik məharət, təmkin, sərkərdəlik keyfiyyətləri sayəsində əldə edilib. Məhz bu keyfiyyətlər sayəsində işğalçı Ermənistanla çox çətin Vətən müharibəsini tam Qələbə ilə başa çatdırmaq mümkün olub.

Bəzi ölkələrin bacarıqsız rəhbərlər üzündən öz sərvətlərini, torpaqlarını itirdiyi bir vaxtda Siz böyük Azərbaycanın Bayrağını ölkənin bütün guşələrində ucaltdınız. Xalq güclü birlik, vətənpərvərlik nümayiş etdirdi, Azərbaycan Ordusu Qarabağda ildırımsürətli Qələbə qazandı. Buna görə də Şuşa şəhərini azad etmiş döyüşçülər bizim Assambleyanın yüksək mükafatları ilə təltif olundular. Şübhəsiz ki, Türk dünyasında böyük ruh yüksəkliyinə, sevincə səbəb olan bu hadisələr dünyanın hərb tarixinin salnaməsinə daxil ediləcəkdir. Bütün bu uğurlar görkəmli Lider, mahir sərkərdə olaraq Sizin müdrikliyiniz, xalqın birliyi sayəsində qazanıldı. Ona görə də Assambleyamız Sizi əfsanəvi türk sərkərdəsi “Kültigin” adına “Türk dünyasının Bahadırı” qızıl medalı ilə təltif edib.

Bizim nümayəndə heyətimiz Sizi şəxsən xüsusi mükafatla təltif etməyimiz münasibətilə təbrik edəcəyi, Sizinlə qiymətli fikirləri bölüşəcəyi günü səbirsizliklə gözləyir.

Xalqınız haqlı olaraq Sizi gələcəyə baxan böyük Azərbaycanın Prezidenti seçdi.

Yaşasın Azərbaycan!

Yaşasın görkəmli Prezident İlham Heydər oğlu Əliyev!

Yaşasın Türk birliyi!

**Hörmətlə,**

***Yermentay SULTANMURAT,***
***Qazaxıstanda fəaliyyət göstərən***
***Ümumdünya Türk Xalqları Assambleyasının sədri***

***

**Möhtərəm İlham Heydər oğlu!**

2024-cü il fevralın 7-də Azərbaycan Respublikası və onun hər bir vətəndaşı üçün əlamətdar hadisə oldu, növbədənkənar prezident seçkiləri keçirildi. “Doveriya” Prezident Klubu Sizi inamlı qələbəniz münasibətilə təbrik edir və ali dövləti vəzifənizdəki fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayır.

Siz Azərbaycanın tarixinə öz adınızı qızıl hərflərlə yazmısınız. Sizi nüfuzlu, müdrik və uzaqgörən siyasətçi, mükəmməl strateq, dəqiq və dərin təfəkkürə malik parlaq peşəkar dövlət başçısı kimi tanıyırlar. Siz ölkənizi onun maraqları ilə hamının hesablaşmalı olduğu böyük, güclü, qüdrətli dövlətə çevirmisiniz. Bu gün Azərbaycanda bütün nailiyyətlər Sizin adınızla bağlıdır və bu nailiyyətlər çox prinsipial, məsuliyyətli mövqeyiniz sayəsində əldə edilib.

Xahiş edirik, Azərbaycanın rifahı naminə ən xoş arzularımızı qəbul edəsiniz. Sizə uzun ömür, əmin-amanlıq, xoşbəxtlik, ölkənizin maraqlarının qorunmasında və vətəndaşlarınızın mənafelərinin təmin edilməsində uğurlar diləyirik.

**Dərin hörmətlə,**

***Nikolay TARAKANOV,***
***Rusiyanın “Doveriya” Prezident Klubunun Əlaqələndirmə Şurasının sədri, texniki elmlər doktoru, Rusiya Təbiət Elmləri Akademiyasının Rəyasət Heyətinin üzvü, Rusiya Yazıçılar İttifaqının üzvü***
***Viktoriya LAZİÇ,***
***“Doveriya” Prezident Klubunun İdarə Heyətinin sədri***

***

**Zati-aliləri!**

Yenidən Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Albaniya Həmkarlar İttifaqları Konfederasiyası adından və şəxsən öz adımdan Sizə qardaşlıq salamlarımızı və səmimi təbriklərimizi çatdırırıq. Biz çox sevinirik ki, Siz bundan sonra da Azərbaycan xalqına rəhbərlik edəcək, ölkənizin müstəqilliyinin daha da möhkəmləndirilməsi, iqtisadi inkişafının sürətləndirilməsi istiqamətində fəaliyyətinizi davam etdirəcəksiniz.

İnanırıq ki, Sizin yenidən Azərbaycan Prezidenti seçilməyiniz ölkələrimiz arasındakı ikitərəfli əməkdaşlığı möhkəmləndirəcək və daha yüksək səviyyəyə qaldıracaq.

Fürsətdən istifadə edərək qarşıdakı illərdə Sizə və Azərbaycan xalqına uğurlar, tərəqqi və əmin-amanlıq arzulayıram.

**Dərin hörmətlə,**

***Kol NİKOLAY,***
***Albaniya Həmkarlar İttifaqları Konfederasiyasının sədri***

***

**Möhtərəm cənab Prezident!**

Növbədənkənar prezident seçkilərində yenidən dövlət başçısı seçilməyiniz münasibətilə Sizə təbriklərimizi çatdırıram. Zati-alinizin liderliyi ilə Azərbaycanın tərəqqidə qət etdiyi uğurlu yol təqdirəlayiqdir və bizim üçün sevindiricidir. Qarabağın azad edilməsi hamımızı çox şad etdi və fərəhləndirdi. Azərbaycanın kədəri bizim kədərimiz, sevinci sevincimizdir.

Fürsətdən istifadə edərək müasir Azərbaycan dövlətinin qurucusu, unudulmaz Ümummilli liderimiz Heydər Əliyevi ehtiramla yad edirəm.

Zati-aliləri, Sizə, ailə üzvlərinizə və Sizin şəxsinizdə azərbaycanlı qardaşlarıma cansağlığı və daha xoşbəxt gələcək arzulayıram.

“Bir millər, iki dövlət şüarı” ilə yaşasın Türkiyə və Azərbaycan!

**Hörmətlə,**

***Cemail BAKINDI,***
***Türkiyənin Avrasiya Qida, Kənd Təsərrüfatı, Meşəçilik və Turizm İşçiləri Həmkarlar İttifaqının sədri***

***

**Hörmətli cənab Prezident!**

Yenidən Prezident seçilməniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Mən ölkəmin rifahı və inkişafında mühüm istiqamətlər yaradan müqayisəolunmaz Liderliyinizlə fəxr edirəm. Sizin qətiyyətli qərarlarınız əbədi olaraq Azərbaycan tarixinə yazılıb.

Sizə cansağlığı, uğurlar və yeni qələbələr arzulayıram.

**Hörmətlə,**

***MƏMMƏDOV İlqar Yaşar oğlu,***
***ikiqat Olimpiya çempionu, Rusiya Qılıncoynatma Federasiyasının prezidenti, Rusiya Federasiyası, Moskva şəhəri***

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Möhtərəm cənab Prezident, Müzəffər Ali Baş Komandan!**

Bu il fevralın 7-də keçirilən növbədənkənar prezident seçkilərində qazandığınız parlaq qələbə münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Şübhəsiz ki, bu qələbə xalqın Sizə olan etimadının bariz nümunəsidir. Azərbaycanın inkişafı istiqamətində atdığınız addımlarda Siz hər zaman qətiyyət nümayiş etdirmiş, xalqın rifahı üçün əlinizdən gələni etmisiniz.

Sizin müdrik rəhbərliyiniz sayəsində Azərbaycan xalqı öz tarixi torpaqlarına qovuşdu. Bu Zəfər bütün azərbaycanlıların qəlbində sevinc və qürur hissi yaratdı. Bunun nəticəsidir ki, Azərbaycan xalqı növbədənkənar prezident seçkilərində öz layiqli liderinin - Sizin namizədliyinizi mütləq səs çoxluğu ilə dəstəklədi.

Prezidentlik fəaliyyətinizin yeni dövründə Sizə uğurlar arzulayıram. Əminəm ki, bu uğurlar ölkənin davamlı inkişafında müstəsna rol oynayacaqdır.

Yaşasın bütöv Azərbaycanın Prezidenti!

**Hörmətlə,**

***Adam AMİLOV,***
***AZİZ - Azərbaycan-İsrail Beynəlxalq Assosiasiyasının prezidenti***

***

**Hörmətli İlham Heydər oğlu!**

Beynəlxalq Rusdilli Vəkillər Assosiasiyasının, Rusiya Vəkillər Gildiyasının, H.B.Mirzəyev adına Rusiya Vəkillik və Notariat Universitetinin adından və şəxsən öz adımdan Sizi Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Ümumxalq səsverməsinin nəticələri Sizin çoxprofilli islahatlar kursunuza tam etimadın parlaq nümunəsi və milli birlik, ərazi bütövlüyü, dövlətin dinamik inkişafının təmin edilməsində xidmətlərinizin qiymətləndirilməsi oldu.

Azərbaycan Sizin səmərəli rəhbərliyinizlə irimiqyaslı siyasi, iqtisadi islahatlar, əhalinin sosial rifahının yüksəldilməsi yolu ilə inamla addımlayır və aktual beynəlxalq və regional problemlərin həllində fəal iştirak edir. Azərbaycan ilə Rusiya, iki dövlətin başçıları arasında etimada, qarşılıqlı hörmətə, anlayışa və dəstəyə əsaslanan əlaqələrin olması bizi sevindirir. Rusiya və Azərbaycan xalqlarının münasibətləri qədim tarixə malikdir və zamanın sınağından keçib. İki xalq arasında dostluq körpüləri möhkəm və sarsılmazdır, ortaq mədəni və tarixi dəyərlərə, həmçinin sıx iqtisadi və siyasi əlaqələrə əsaslanır.

Sevindirici haldır ki, Siz atanızın – Azərbaycan xalqının dahi oğlu Heydər Əliyevin layiqli davamçısısınız, onun Azərbaycanın inkişafı ilə bağlı ideyalarını həyata keçirirsiniz. Bir soydaş kimi mən bununla fəxr edirəm.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, tükənməz enerji, uzun ömür, ali dövləti fəaliyyətinizdə uğurlar və Azərbaycan xalqının rifahı naminə yeni-yeni nailiyyətlər arzulayıram.

**Dərin hörmətlə,**

***Həsən MİRZƏYEV,***
***Beynəlxalq Rusdilli Vəkillər Assosiasiyasının prezidenti, Beynəlxalq Rusiyalı Həmvətənlər Şurasının sədri, Rusiya Federal Vəkillər Palatasının vitse-prezidenti, Rusiya Vəkillər Gildiyasının prezidenti, H.B.Mirzəyev adına Rusiya Vəkillik və Notariat Universitetinin rektoru, Rusiya Federasiyasının Əməkdar hüquqşünası, hüquq elmləri doktoru, professor, Rusiyanın fəxri ədliyyə işçisi***

***

**Hörmətli İlham Heydər oğlu!**

Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində qələbəniz münasibətilə səmimi təbriklərimizi qəbul edin.

Azərbaycan Respublikasının vətəndaşları olan gürcülər və müxtəlif ölkələrdə, o cümlədən Rusiya Federasiyasında, Qazaxıstanda, Gürcüstanda Avropa ölkələrində yaşayan soydaşlarımız Sizin yenidən Prezident seçilməyinizi böyük sevinclə qarşıladılar.

Hörmətli cənab Prezident, Siz Azərbaycan xalqının layiqli oğlusunuz. Sizin adınız Vətənin şanlı tarixinə qızıl hərflərlə yazılıb. Siz Azərbaycanın ərazi bütövlüyünü bərpa edən və müstəqilliyini möhkəmləndirən böyük Lidersiniz.

Sizə cansağlığı və uzun ömür, fəaliyyətinizdə yeni-yeni qələbələr arzulayıram.

**Hörmətlə,**

***Rostom ŞAPİAŞVİLİ,***
***Rusiyada fəaliyyət göstərən "Hereti" Milli Dirçəliş Regionlararası İctimai Təşkilatının rəhbəri***

***

**Hörmətli cənab Prezident!**

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edirəm. Azərbaycanın yaxın tarixində ilk dəfə olaraq prezident seçkiləri bütün ölkəni əhatə etdi. Sizin müdrik və uzaqgörən siyasətiniz sayəsində seçkilər Azərbaycan Respublikasının bütün ərazisində keçirilə bildi. Bu, Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü təsdiqləyən tarixi məqamdır.

Cənab Prezident, Azərbaycana firavan gələcək arzu edirəm. Əminəm ki, Sizin rəhbərliyinizlə ölkəniz bu çətin zamanda doğru istiqamətdə irəliləmək üçün etibarlı əllərdədir.

Mən Azərbaycan adını öz ölkəmdə və dünyada incəsənət, mədəniyyət və musiqi sahələrində daha yaxşı tanıdılması üçün həyati missiyamı davam etdirəcəyəm.

**Hörmətlə,**

***Cefri VERBOK,***
***Amerika Muğam Cəmiyyətinin sədri.***

**Amerika Birləşmiş Ştatları**

***

**Möhtərəm Prezident!**

Ərazi bütövlüyü təmin olunmuş Azərbaycanda keçirilən növbədənkənar prezident seçkilərində qazandığınız möhtəşəm qələbə münasibətilə Sizi və Sizin simanızda bütün Azərbaycan xalqını "Azərbaycan Dağ Yəhudiləri" dini icması adından səmimi-qəlbdən təbrik edirəm.

Sizin uzaqgörən siyasətinizin nəticəsidir ki, Azərbaycan Respublikası inamlı addımlarla iqtisadiyyatını dinamik inkişaf etdirir və Azərbaycan xalqı azad və əmin-amanlıq şəraitində yaşayır.

Sizə Azərbaycanımızın çiçəklənməsi yolunda gördüyünüz bütün işlərinizdə böyük uğurlu qələbələr diləyir, Uca Tanrıdan Sizə möhkəm cansağlığı, ailə səadəti və uzun ömür arzu edirik.

Qalib xalq, qalib Liderini seçdi!

**Dərin hörmətlə,**

***Milix YEVDAYEV,***
***"Azərbaycan Dağ Yəhudiləri" Dini İcmasının sədri***

**Azərbaycan Respublikası, Bakı şəhəri**

***

**Əziz Prezidentimiz!**

Hörmətli Ali Baş Komandanımız!

Sizi ərazi bütövlüyünü tam şəkildə bərpa etmiş Azərbaycan Respublikasının bütün bölgələrində 2024-cü il fevralın 7-də keçirilən növbədənkənar prezident seçkilərində layiqli qələbəniz münasibətilə ürəkdən təbrik edirəm!

Seçkilərdə qələbəniz Sizin uzaqgörən, müdrik, liderlik qabiliyyətlərinizin hər bir azərbaycanlı tərəfindən yüksək qiymətləndirildiyini əks etdirir.

Rəhbərliyinizlə torpaqlarımızın düşmən tapdağından azad olunması, o cümlədən, təhlükəsizliyin təmin edilməsi, həmçinin Azərbaycanın geniş beynəlxalq əlaqələrə və dinamik iqtisadiyyata nail olması yaşayış yerindən asılı olmayaraq, bütün azərbaycanlıların ürəklərində qürur və sevinc doğurmuşdur. Biz əminik ki, Sizin uzaqgörən siyasətinizlə ölkəmiz daha çox nailiyyətlər əldə edəcəkdir! Sizin rəhbərliyiniz qarşıda duran vəzifələrin həllində və bütün azərbaycanlılar üçün firavanlığın və təhlükəsiz mühitin təmin edilməsində mühüm rol oynayır.

Cəmiyyətimizin üzvləri adından Sizə səmimi təbriklərimizi, möhkəm cansağlığı, səadət, əmin-amanlıq və işlərinizdə yeni müvəffəqiyyətlər arzulayıram.

**Hörmətlə,**

***Təranə NOVRUZOVA,***
***Kanada Britaniya Kolumbiyası Azərbaycanlıları Cəmiyyətinin sədri***

**Kanada, Vankuver şəhəri**

***

**Zati-aliləri, möhtərəm cənab Prezident!**

İcazə verin, ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş Azərbaycan Respublikasında fevralın 7-də keçirilmiş növbədənkənar Prezident seçkilərində qazandığınız inamlı qələbə münasibətilə Sizi səmimi-qəlbdən təbrik edim.

Sizin uzaqgörən siyasətiniz sayəsində Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü bərpa etdi. Xalqımıza yaşatdığınız zəfər bütün azərbaycanlıların qəlbində sevinc və qürur hissi oyatmışdır. Şübhəsizdir ki, bu qələbə xalqın Sizə olan etimadının bariz nümunəsidir.

Biz, Kanadanın Ottava şəhərində yaşayan Azərbaycan diasporu olaraq hər zaman Sizi dəstəkləyirik. Növbədənkənar prezident seçkilərində qələbə qazanmağınız münasibətilə Sizi bir daha təbrik edirik.

Cənab Prezident, Sizə möhkəm cansağlığı və fəaliyyətinizdə yeni-yeni uğurlar arzu edirəm!

**Hörmətlə,**

***Nigar ƏLİYEVA,***
***"Qarabağ" Azərbaycan dili məktəbinin həmtəsisçisi***

**Kanada, Ottava şəhəri**

***

**Hörmətli cənab Prezident!**

Azərbaycana rəhbərlik etdiyiniz dövrdə həyata keçirdiyiniz uğurlu daxili və xarici siyasət dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıları bir daha əmin etdi ki, Vətənimizin müstəqilliyini, onun inkişafını və xalqımızın firavanlığını təmin edə biləcək yeganə namizəd Sizsiniz. Məhz bunun nəticəsidir ki, fevralın 7-də keçirilmiş növbədənkənar prezident seçkilərində Siz üstün qələbə əldə etdiniz.

Cənab Prezident, əminik ki, Sizin müdrik rəhbərliyinizlə Azərbaycanımız davamlı uğurlara imza atacaq və gündən-günə inkişaf edəcək.

Kanadada yaşayan Azərbaycan diasporu olaraq Sizə möhkəm cansağlığı, Azərbaycanın rifahı və firavanlığı naminə ali dövləti fəaliyyətinizdə uğurlar arzulayırıq.

**Dərin hörmətlə,**

***Yaşar Pur ƏLİ,***
***"Az Media Group"un rəhbəri.***

**Kanada, Toronto şəhəri**

***

**Hörmətli cənab Prezident!**

Seçkilərdə qazandığınız qələbə münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Qazandığınız uğur xalqımız tərəfindən ölkəmizin tərəqqisi və inkişafı naminə göstərdiyiniz xidmətlərə verilən qiymətin göstəricisidir.

Cənab Prezident, torpaqlarımızın azad olunmasında nümayiş etdirdiyiniz prinsipial mövqe, apardığınız müdrik siyasət sayəsində Azərbaycan dünyada nüfuzlu ölkələrdən birinə çevrilmişdir.

Sizi əmin etmək istəyirəm ki, mən Kanadada yaşayan diaspor üzvü kimi ölkəmizin tərəqqisinə töhfə verməyə həmişə hazıram.

Cənab Prezident, xaricdə yaşayan bir azərbaycanlı olaraq xalqımız üçün göstərdiyiniz misilsiz xidmətlərin şahidi oldum. Bütün bunlara görə Sizə dərin minnətdarlığımı bildirirəm.

**Hörmətlə,**

***Elman PUR ƏLİ,***
***Kanada, Toronto şəhəri***

***

**Hörmətli cənab Prezident!**

Zati-alinizi 2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar prezident seçkilərində qazandığınız parlaq qələbə münasibətilə Komitəmiz, eləcə də Almaniyada yaşayan həmvətənlərimiz adından təbrik edirik. Bu seçki bir daha sübut etdi ki, Azərbaycan xalqı daim apardığınız daxili və xarici siyasətdə Sizin yanınızdadır. Qalib sərkərdə olaraq tariximizə qızıl hərflərlə yazdırdığınız adınız dünyanın ayrı-ayrı guşələrində yaşayan azərbaycanlıların qürur mənbəyinə çevrilmişdir. Harada yaşamasından, hansı sahədə fəaliyyət göstərməsindən asılı olmayaraq xalqımızın bütün nümayəndələri Sizinlə fəxr edirlər.

Biz də Ulu Öndərimiz Heydər Əliyevin adını daşıyan Boks Komitəsi olaraq Sizə növbəti prezidentlik fəaliyyətiniz dövründə möhkəm cansağlığı, bol-bol uğurlar arzulayırıq. İnanırıq ki, Sizin rəhbərliyinizlə dövlətimiz daim öz gücü və uğurları ilə seçilən dövlətlər sırasında mövqeyini daha da möhkəmləndirəcəkdir. Bir daha Sizi təbrik edirik, cənab Prezident!

**Zati-alinizə sonsuz hörmətlə,**

***Yaşar NİFTƏLİYEV,***
***Heydər Əliyev adına Dünya Boks Komitəsinin rəhbəri, Almaniya Federativ Respublikası, Maqdeburq şəhəri***

***

**Hörmətli cənab Prezident!**

Almaniya Federativ Respublikasının Bremen əyalətində yaşayan diaspor üzvləri adından Sizi Azərbaycan Respublikasında keçirilmiş prezident seçkilərində qazandığınız qələbə münasibətilə təbrik edirəm.

İkinci Qarabağ müharibəsinin gedişi zamanı Sizin bütün xarici ölkələrin dövlət nümayəndələri, jurnalistləri, televiziya işçiləri ilə söhbətləriniz və müsahibələriniz bir daha onu göstərdi ki, Siz bir siyasi rəhbər, dövlət başçısı kimi haqlı olaraq bir daha Prezident seçildiniz. Sizin "dəmir yumruğunuz" altında birləşən müzəffər Ordumuz dünyaya sübut etdi ki, bir qarış torpağımızı heç kimə güzəştə getməyəcəyik.

Cənab Prezident, biz əminik ki, Siz dövlət başçısı kimi gələcəkdə də ölkəmizin iqtisadi gücünün və beynəlxalq nüfuzunun davamlı möhkəmləndirilməsini təmin edəcəksiniz.

Sizə möhkəm cansağlığı, daha güclü Azərbaycan Respublikası naminə görəcəyiniz işlərdə müvəffəqiyyətlər arzulayıram.

**Hörmətlə,**

***Nurlan RƏHİMLİ,***
***Bremen Azərbaycan Mədəniyyət Evi.***

**Almaniya Federativ Respublikası, Bremen şəhəri**

***

**Hörmətli cənab Prezident!**

Avropa Azərbaycan Mərkəzinin kollektivinin üzvləri olaraq Azərbaycan Respublikasında keçirilən növbədənkənar prezident seçkilərində əldə etdiyiniz qələbə münasibətilə Sizi və xalqımızı səmimi-qəlbdən təbrik edirik. Bu böyük uğurunuz, Azərbaycanın daha da inkişaf etməsi, bölgədəki sülh və sabitliyin təminatı üçün mühüm bir addım kimi qəbul edilir.

Sizin rəhbərliyinizlə Azərbaycanın yeni nailiyyətlərə imza atması, sosial-iqtisadi sahədə əldə etdiyi inkişaf və beynəlxalq arenada mövqeyinin möhkəmlənməsi bizim üçün böyük bir qürur mənbəyidir.

Biz – Avropa Azərbaycan Mərkəzinin kollektivi Sizə ali dövləti fəaliyyətinizdə uğurlar, bu seçkilərin nəticəsinin müstəqil Azərbaycan üçün daha bir dövrün başlanğıcı olmasını arzulayaraq, dəstəyimizi ifadə etmək istəyirik. Sizin liderliyinizlə ölkəmizin daha da güclənəcəyinə inanırıq. Uğurlarımızın davam etməsini arzulayır və bu nailiyyətlərin Azərbaycan xalqına daha çox səadət və rifah gətirməsini gözləyirik.

**Hörmətlə,**

***Avropa Azərbaycan Mərkəzinin kollektivi.***

**Almaniya, Münster şəhəri**

***

**Möhtərəm cənab Prezident!**

Bizə böyük zəfəri yaşadan qalib Lider, fevralın 7-də keçirilən növbədənkənar prezident seçkilərində qələbə qazanmağınız münasibətilə Sizi təbrik edirəm. Sizə cansağlığı və yeni uğurlar arzulayıram!

Sizin möhkəm iradəniz, uzaqgörən siyasətiniz sayəsində ölkəmiz hər keçən gün daha da inkişaf edir. Rəhbərliyinizlə ərazi bütövlüyümüzün bərpa edilməsi bütün dünyaya Sizin qətiyyətinizi və iradənizi, Azərbaycanın gücünü, qüdrətini göstərdi. Siz əsrin Prezidentisiniz!

Biz hər zaman Sizin yanınızdayıq!

**Hörmətlə,**

***Fərəh TAHİROVA,***
***Sənətşünaslıq üzrə fəlsəfə elmləri doktoru, "Biz – Zəfər yoluna davam" təşəbbüs qrupunun üzvü, "Culture Meeting Point" mədəniyyət təşkilatının musiqi üzrə rəhbəri.***

**Avstriya, Vyana şəhəri**

***

**Hörmətli cənab Prezident!**

Ali dövləti vəzifəyə yenidən seçilməyiniz münasibətilə Zati-alinizə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının adından və şəxsən öz adımdan təbriklərimi çatdırmaqdan şərəf duyur, Sizə cansağlığı və ali dövləti vəzifənizin icrasında uğurlar arzulayıram.

Ümumi məqsədlərimizə çatmaq yolunda Azərbaycan Respublikasının xalqına xoşbəxtlik və firavanlıq arzularımı çatdırmaq istərdim.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul edin.

**Hörmətlə,**

***Qu DONQYU,***
***BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Baş direktoru***

**Hörmətli cənab Prezident!**

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə İtaliya–Azərbaycan Dostluq Qrupunun sədri qismində Sizi ürəkdən təbrik etməyi vacib hesab edirəm.

Mən dövlətlərimiz arasında ticarət və mədəni əlaqələrin inkişafını, bunun nəticəsi olaraq Roma ilə Bakı arasında 30 ildən artıq davam edən əlaqələrin intensivləşməsini qətiyyətlə dəstəkləyirəm.

Tezliklə uyğun bir zamanda növbəti missiyalardan birində Sizinlə görüşə biləcəyimə ümid edirəm.

Fürsətdən istifadə edib Sizə ən səmimi salamlarımı çatdırıram.

**Hörmətlə,**

***Marko SKURRİA,***
***İtaliya–Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun sədri, İtaliya Senatının senatoru***

***

**Hörmətli cənab Prezident!**

Xantı-Mansiysk muxtar dairəsi Yuqrada yaşayan azərbaycanlıların adından Prezident seçkilərində qazandığınız qələbə münasibətilə Sizi ürəkdən təbrik etdiyimə görə böyük sevinc hissi keçirirəm.

Azərbaycanın suverenliyinin bərpasından sonra ilk dəfə Qarabağ iqtisadi rayonu da daxil olmaqla ölkənin bütün bölgələrində keçirilən seçkilərdə inamlı qələbəniz, şübhəsiz ki, xalqın Sizin müdrik rəhbərliyinizlə əldə edilmiş uğurları davam etdirmək niyyətinin əyani təsdiqidir.

Cənab Prezident, bu xoş fürsətdən istifadə edərək, bütün sahələrdə qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsinin, Azərbaycan və Rusiya Federasiyası xalqları üçün rifah və firavanlığın yeni üfüqlərinin açılmasının vacibliyini vurğulamaq istərdim.

Siz Azərbaycanın inkişafına, xalqın rifahına yönəlmiş balanslaşdırılmış siyasət aparan müdrik dövlət başçısı, əsl vətənpərvərsiniz. Əminəm ki, Sizin rəhbərliyinizlə Azərbaycan Respublikası demokratik dövlət quruculuğu, sabit iqtisadi və sosial inkişaf yolu ilə inamla irəliləyəcək. Sizin yorulmaz zəhmətiniz və xalqın inamı vətəndaşların güzəranının daha da firavan olması üçün həyata keçirdiyiniz şərəfli fəaliyyətinizdə uğurlarınızı daha da artıracaqdır.

Sizə və əzizlərinizə möhkəm cansağlığı, səadət və xoşbəxtlik, Azərbaycan xalqına isə davamlı tərəqqi və firavanlıq arzulayıram.

**Dərin hörmət və ehtiramla,**

***İsmayılov XƏYAL,***
***Xantı-Mansiysk muxtar dairəsi Yuqrada fəaliyyət göstərən Azərbaycan xalqının "Dostluq" ictimai milli-mədəni təşkilatının sədri.***

**Rusiya Federasiyası, Koqalım şəhəri.**

***

**Hörmətli cənab Prezident!**

"Azərbaycan" Milli-Mədəni Cəmiyyətinin üzvləri adından Sizi 2024-cü il fevralın 7-də keçirilmiş prezident seçkilərində qazandığınız qələbə münasibətilə təbrik edirəm.

Sizin inamlı qələbəniz Azərbaycan xalqına xidmətinizə və fədakarlığınıza verilən qiymətlə yanaşı, Azərbaycan xalqının Sizə göstərdiyi qeyd-şərtsiz dəstəyi və etimadı ifadə edir. Rusiya Federasiyasının Həştərxan vilayətinin "Azərbaycan" Cəmiyyəti ölkəmizdə keçirilən prezident seçkilərini diqqətlə izləyərkən məhz bu qənaətə əmin olub.

Sizin rəhbərliyinizlə respublikada həyata keçirilən islahatlar və əldə olunan nailiyyətlər Azərbaycanın sabit inkişafına, ölkənin həyat və fəaliyyətinin bütün sahələrində mühüm uğurların əldə olunmasına, beynəlxalq aləmdə mövqelərinin möhkəmlənməsinə zəmin olub.

Ölkəmiz Ali Baş Komandan kimi Sizin qətiyyətli fəaliyyətiniz nəticəsində ərazi bütövlüyünü bərpa etdi. Bu, Azərbaycan xalqı üçün tarixi hadisə oldu. Bundan əlavə, Siz Qarabağın işğaldan azad edilmiş ərazilərinin bərpasına və inkişafına böyük diqqət yetirirsiniz, infrastrukturun bərpası, yeni yolların, məktəblərin, xəstəxanaların və digər obyektlərin tikintisinə, eləcə də xalqımızın mədəni-tarixi irsinin qorunub saxlanılmasına yönəlmiş genişmiqyaslı layihələr həyata keçirirsiniz.

Sevindirici haldır ki, Azərbaycanla Rusiya arasında, iki dövlətin başçıları arasında qarşılıqlı hörmət, anlayış və dəstəyə əsaslanan etibarlı münasibətlər qurulub. Rus və Azərbaycan xalqları arasında münasibətlər uzun tarixə malikdir və zamanın sınağından çıxmışdır. İki xalq arasında dostluq körpüləri möhkəm və sarsılmazdır. Onlar ümumi mədəni və tarixi dəyərlər, eləcə də sıx iqtisadi və siyasi əlaqələr üzərində qurulub.

Əminəm ki, Siz bundan sonra da Rusiya ilə strateji tərəfdaşlığın möhkəmləndirilməsi, regionda və beynəlxalq aləmdə sülhə və sabitliyə nail olmaq, Azərbaycanın inkişafı və çiçəklənməsi üçün bütün səylərinizi əsirgəməyəcəksiniz.

Sizə möhkəm cansağlığı, səadət və xalqımızın rifahı naminə gələcək fəaliyyətinizdə daha böyük uğurlar arzulayıram.

**Hörmətlə,**

***Vahid RƏHİMOV,***
***"Azərbaycan" Milli-Mədəni Cəmiyyətinin sədri***

**Rusiya Federasiyası, Həştərxan şəhəri**

***

**Hörmətli cənab Prezident!**

Böyük sevinc və qürur hissi ilə Sizi Rusiyanın Primorye vilayətində yaşayan bütün azərbaycanlılar, o cümlədən "Dostluq" Azərbaycan diaspora cəmiyyətinin üzvləri adından seçkilərdə növbəti inamlı qələbəniz və yenidən Prezident seçilməyiniz münasibətilə təbrik edirik. Bu qələbə xalqın etimadının təsdiqi və hər zaman ölkə vətəndaşlarının rifahı naminə mühüm qərarlar qəbul edən liderlik qabiliyyətinizə inamdır.

Sizin qələbəniz xalqın yaşadığı fərəh, sevinc, ölkəmiz üçün daha yaxşı gələcəyə ümid hisslərini əks etdirir. Sizin strateji liderlik qabiliyyətiniz, müdrik siyasətiniz, fədakarlığınız, ali məqsədlərə çatmaq əzminiz xalqın düzgün seçim etməsinə zəmin oldu.

Əminik ki, Sizin rəhbərliyinizlə ölkəmiz daha da güclənəcək, çiçəklənəcək, xalqımız ətrafınızda daha sıx birləşəcək. İnanırıq ki, Siz bundan sonra da ədalət uğrunda mübarizənizi davam etdirəcək, iqtisadi vəziyyətin yaxşılaşdırılması, infrastrukturun inkişafı və bütün vətəndaşların rifahı və firavanlığı üçün çalışacaqsınız.

Sizə hərtərəfli fəaliyyətinizdə uğurlar, əzmkarlıq v və məqsədlərinizə çatmaqda qətiyyət arzulayırıq. Qoy, Sizin liderliyiniz hamı üçün ilham mənbəyi olsun və Vətənimizi daha qüdrətli ölkəyə çevirməyə xidmət etsin.

**Ən xoş arzularla,**

***Ramiz ZEYNALOV,***
***Rusiyanın Primorye vilayətində "Dostluq" Azərbaycan diaspora cəmiyyətinin sədri***

**Rusiya Federasiyası, Primorye vilayəti, Vladivostok şəhəri**

***

**Hörmətli cənab Prezident!**

Sizi növbədənkənar prezident seçkilərində inamlı qələbəniz münasibətilə Qazaxıstan Azərbaycanlıları Birliyi adından səmimi-qəlbdən təbrik edir, Azərbaycanın inkişafı və rifahı naminə fəaliyyətinizdə yeni-yeni uğurlar və qələbələr arzulayıram.

2024-cü il fevralın 7-də keçirilən tarixi prezident seçkilərində Sizin qələbə qazanmağınız Azərbaycan xalqının öz rəhbərinə etimadını və səmimi vətəndaş sevgisini bir daha əyani şəkildə göstərdi.

Bütün ölkə ərazisini əhatə edən prezident seçkilərində tarixi missiya ilə ölkənin bütövlüyünü və firavanlığını təmin etmiş Liderinə səs verməklə sarsılmaz birlik və həmrəylik nümunəsi göstərən Azərbaycan xalqına sülh və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***Əbilfəs HAMEDOV,***
***Qazaxıstan Azərbaycanlıları Birliyinin prezidenti***

**Qazaxıstan Respublikası**

***

**Hörmətli cənab Prezident!**

Fevralın 7-də keçirilmiş prezident seçkilərində Azərbaycan xalqı öz liderinə böyük dəstək nümayiş etdirdi. Xalq mütləq səs çoxluğu ilə Sizi yenidən Azərbaycan Respublikasının Prezidenti seçdi. Bu münasibətlə Sizi təbrik etməkdən şərəf hissi duyuram.

Mən Azərbaycandakı seçkilərlə bağlı prosesləri mediadan izləyirdim və bir çox saytlarda, qəzetlərdə bu barədə yazmışam. Azərbaycanın seçki təcrübəsi kifayət qədər müsbətdir. Jurnalistlərin seçki günündə səsvermə prosesini yaxından müşahidə etmələrini və səslərin hesablanmasında da iştirak imkanına malik olmalarını əsl nümunə hesab etmək olar. Azərbaycan 7 fevral prezident seçkiləri ilə demokratik seçki ənənəsini bir daha nümayiş etdirdi. Bir qrup küveytli jurnalistlə birlikdə Sizinlə görüşüb qələbənizi təbrik etmək bizə böyük şərəf olardı.

Əminəm ki, Sizin prezidentliyiniz dövründə Azərbaycanın müxtəlif ölkələrlə, o cümlədən, Küveytlə münasibətləri daha da inkişaf edəcəkdir.

Sizə ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

**Hörmətlə,**

***Əbdülrəhman Əl ƏCMİ,***
***Küveytin "Əl-seyassah" qəzetinin icmalçısı və media məsləhətçisi***

# 20 il: milli dövlətçiliyin yeni mərhələsinə doğru



## Fəlsəfi-sinergetik təhlil

XIII MƏQALƏ

**Liderlik baxışları reallığa çevirmək qabiliyyətidir.**
**Uorren BENNİS**

### Daxili mühitdən regional miqyasa

Cəmiyyətdaxili multikultural durumla regional və regionlararası miqyasda qarşılıqlı faydalı əməkdaşlığın fəlsəfəsini uyğunlaşdırmaq yaradıcı bir prosesdir. Çünki bir cəmiyyətin daxili mühiti əsrlərlə eyni məkanda formalaşmış və oturuşmuş faktorlardan yaranır. Regional miqyas isə bundan kənara çıxmağı tələb edir. Bu zaman həmin siyasi, tarixi, mənəvi, mədəni və əxlaqi sərhədi "keçmək" fərqli meyarlar üzrə hərəkəti tələb edir. Buna regionlararası məkanda qarşılıqlı faydalı əməkdaşlıq məsələsini də əlavə etdikdə mərhələli mürəkkəb vəzifə qarşıya çıxır. Təcrübə də göstərir ki, nadir hallarda müstəqil dövlətlər bu vəzifənin öhdəsindən gələ bilirlər. Azərbaycan bu baxımdan Avrasiya üçün bir nümunədir.

Cəmiyyətdaxili situasiyanın regional və oradan da regionlararası münasibətlər mühitinə uğurlu transformasiyası fəlsəfi-sinergetik baxımdan mürəkkəb və özündə ziddiyyətlər daşıyan bir prosesdir. Burada faktiki olaraq məsələnin fəlsəfi və politoloji aspektləri həm nəzəri, həm də praktiki olaraq "kəsişir". Yəni liderin fəaliyyətini motivasiya edən ümumi məqamlarla praktiki fəaliyyətin nəticələri arasında uyğunluq olmalıdır. Liderin uğurlu olması məhz həmin "kəsişmə sahəsi"ndə hansı "yeni siyasi və geosiyasi dəyərlər" yarada bilməsi ilə müəyyənləşir. Başqa sözlə, həmin uyğunluğun göstəricisi liderin situasiyaya nə dərəcədə yaradıcı yanaşa bilməsi ilə şərtlənir. Əgər liderin fəaliyyətinin nəticəsi olaraq keyfiyyətcə yeni dəyərlər yaranırsa, o halda fəaliyyət uğurlu sayıla bilər. Burada bir neçə politoloji anlayışın qarşılıqlı münasibətləri fonunda məsələni izah etmək mümkündür.

### Siyasi fəallıq, attityüd və alternativ inkişaf

Siyasi aktivlik ümumi halda politologiyada fərdin və sosial qrupların özünün və ətrafın siyasi statusunu dəyişməyə istiqamətlənmiş davranışlar kompleksidir. Bu anlayışı liderlik kontekstində fəlsəfi-sinergetik ümumiləşdirsək, belə bir məzmun alınar: Liderin səmərəli siyasi aktivliyi mövcud situasiyada dövlətin onun yerləşdiyi region kontekstində siyasi və geosiyasi statusunu daha təhlükəsiz, daha çox əməkdaşlıq müstəvisinə çıxarmaq qabiliyyəti ilə müəyyən olunur. Liderin siyasi aktivliyi daxildə vətəndaşların siyasi attityüdlüğü və regional miqyasda alternativ inkişaf yollarının qarşılıqlı münasibətlərinin mövcudluğu şəraitində konkret məzmun alır.

"Attityüd" ingiliscə "attitude" sözündən olub, "münasibət" deməkdir. Siyasi aspektdə bu termin vətəndaşın siyasi yönünü, istiqamətini, davranışını necə qurmaq haqqında strategiyasını ifadə edir. Təcrübə göstərir ki, adətən, ideologiya və baxışların çoxluğu şəraitində özünü göstərir. Vəziyyəti həssas edən də bu məqamdır. Çünki fərqli baxışların və ideoloji mövqelərin varlığı vətəndaşın radikal mövqe dəyişikliyi etməsinə imkan yaradır. Güclü lider olmadıqda bu vəziyyətdə cəmiyyət parçalana və vahid strateji xətti gözləməyə bilər. Xüsusilə regional miqyasda ümumi vəziyyət qarışıq olanda attityüd faktoru toplum üçün neqativ situasiyalarla nəticələnə bilər.

Məsələnin digər tərəfi siyasi inkişafın alternativlərinin mövcud olması ilə bağlıdır. Daxildə attityüdün yarada biləcəyi vəziyyət regional miqyasda bir sıra qüvvələr tərəfindən alternativ inkişaf adı altında formalaşdırıla bilər. Bununla müstəqil dövlətin lideri iki tərəfdən – daxildən attityüd, kənardan (regional mühitdən) seçilmiş inkişaf kursuna alternativ kimi göstərilən, lakin milli dövlətçilik maraqlarına uyğun olmayan inkişaf modellərinin məcburi qəbul etdirilməsi prosesi ilə üz-üzə qala bilər.

Bütün bunlara görə, Azərbaycan kimi dövlətlərdə müstəqilliyin taleyi siyasi aktivlik, siyasi attityüd və alternativ inkişaf faktorlarının qarşılıqlı münasibətlərindən xeyli asılı olur. Uğurlu lider bu üç faktoru milli dövlətçilik maraqları müstəvisində balanslaşdıra biləndir. Buradan da daha bir neçə politoloji anlayışın qarşılıqlı əlaqəsinin aktuallığı meydana çıxır.

### Milli və regional təhlükəsizlik: geosiyasi balanslaşdırma

Milli təhlükəsizliklə regional təhlükəsizliyin qarşılıqlı münasibətləri ayrıca bir siyasi problemdir. Azərbaycan üçün, bu, ölkənin ərazi bütövlüyünü və suverenliyini təmin etmək əsasında milli maraqların gözləməkdən ibarətdir. Milli maraqların gözlənildiyi şərtlər daxilində regional təhlükəsizliyin təmini xüsusi fəaliyyət istiqaməti tələb edir. Prezident İlham Əliyev 20 il müddətində həmin fəaliyyət istiqamətini məharətlə aparmışdır. Bu, Prezidentin daxili multikultural şərtləri saxlamaqla çox sayda konkret proqramlar və layihələr həyata keçirməsində təcəssüm olunmuşdur.

Regional miqyasda əhəmiyyəti olan reallaşan hər bir layihə Azərbaycanın daxili birliyinin saxlanması şərti ilə həyata keçmişdir. Bunu Azərbaycan lideri geosiyasi qüvvələrin Cənubi Qafqazdakı maraqlarını milli maraqlara görə balanslaşdırma, tarazlaşdırma vasitəsilə təmin etmişdir. Konkret olaraq regionda fəaliyyət göstərən hər bir böyük geosiyasi güc Azərbaycanın maraqlarını nəzərə almalı və ona uyğun fəaliyyət göstərməlidir. Bu zaman həmin geosiyasi güclərin münasibətlərinin balanslaşması da Azərbaycanın milli maraqlarının təminatı şərti daxilində konkret məzmun kəsb etməlidir.

Bu məqamın konkret nümunəsi kimi enerji layihələrinin enerji təhlükəsizliyi ilə milli təhlükəsizliyin vəhdətinə xidmət etməsini göstərə bilərik. Bakı–Tbilisi–Ceyhan, Cənub Qaz Dəhlizi, bərpaolunan enerji layihələri, nəqliyyat-loqistika sisteminin yaradılması və rəqəmsal informasiya texnologiyalarının tətbiqi ilə bağlı proqramların reallaşması buna misaldır.

Prezident İlham Əliyev bu layihələri regional və regionlararası miqyasların ziddiyyətsiz əlaqələrdə uyğunlaşdırılması şərti ilə reallaşdırır. Burada fəaliyyət başlıca olaraq regional təşkilatlar çərçivəsində həyata keçirilir. O cümlədən, burada Türk Dövlətləri Təşkilatı (TDT) mühüm rol oynayır. Həmin təşkilat çərçivəsində Azərbaycan Prezidenti Cənubi Qafqaz regionu ilə Mərkəzi Asiya, Yaxın Şərq, Avropa və Uzaq Şərq regionları arasında qarşılıqlı fayda verən əməkdaşlıq şəbəkəsi yaratmaqda aparıcı rol oynamışdır. Hazırda bir sıra energetik, informasiya-texnologiya, iqtisadi və nəqliyyat-loqistika layihələri vasitəsilə vurğulanan regionlar arasında əməkdaşlıq, sabitlik və təhlükəsizliyin milli təhlükəsizliklə sıx bağlantısı yaradılmışdır. Şərqi və Cənubi Avropanın bir neçə dövləti artıq həmin şəbəkədə mövcuddur. Mərkəzi Asiyanın bütün dövlətləri Azərbaycan liderinin bu təşəbbüslərinə dəstək verirlər. Çin Orta Dəhliz layihəsi üzrə Azərbaycan Prezidentinin fəaliyyətinə tam dəstək verir. Rəsmi Moskva da İlham Əliyevin həmin istiqamətdə fəaliyyətini müsbət qəbul edir.

Türkiyəyə gəldikdə isə regional və regionlararası miqyasda hər bir layihədə Ankara–Bakı birliyi özünü göstərir. Bu güc, faktiki olaraq, hazırda regional təhlükəsizlik və sabitliyin əsas təminatçısıdır.

Beləliklə, İlham Əliyevin liderliyində milli, regional və regionlararası miqyasların bir-birini tamamlaması başlıca özəllikdir. Burada cəmiyyətdaxili mühitdə yaradılmış siyasi sinerji uğurla regional və regionlararası miqyasa proyeksiya oluna bilir. Həmin prosesdə Azərbaycan cəmiyyətinin multikultural mühiti müxtəlifliyin vəhdəti kimi regional və regionlararası miqyasın geosiyasi aspektinə transformasiya edilmişdir. Bu, konkret layihələrin təşəbbüskarı kimi çıxış etməklə və regional təşkilatlarda siyasi-diplomatik aktivliklə təmin edilmişdir.

İlham Əliyevin Prezident kimi yeni liderlik aspektində bir sıra fəlsəfi-sinergetik qənaət əldə etmək olar.

### a) Strateji zəka və xarizmanın vəhdəti

Mürəkkəb və böhranlı situasiyalarda liderin strateji zəkası və xarizması düzgün qərarlar qəbul etməyə imkan yaradır. İlham Əliyev artıq 20 ildir ki, dünyanın ən mürəkkəb, ziddiyyətli və böhranlarla müşayiət olunan regionlarından birində uğurlu liderlik nümayiş etdirə bilir. Bu, o deməkdir ki, Azərbaycan Prezidenti strateji zəka ilə siyasi xarizmanın vəhdətinə nail olmuşdur.

Strateji zəka liderin hər bir situasiyada yerli vəziyyəti uzaq vədənin işığında görə bilməsi ilə bağlıdır. Yəni, mövcud vəziyyətə gələcəyin mümkün ssenariləri kontekstində dəyərləndirə bilməsidir. O halda indi qəbul edilən qərarların strategiyada verəcəyi müsbət nəticələri müəyyən etmək mümkün olur. Ancaq bunun üçün siyasi xarizma adlanan maraqlı fenomen də mövcud olmalıdır.

Siyasi xarizma (yunanca "charisma" – ilahi fitrət) liderin prinsipallığını, siyasi iradəsini, qərarqəbuletmə qətiyyətini və seçdiyi kursdan dönməzliyini özündə ehtiva edir. Xarizması yüksək olan liderlər milli liderliyə və oradan da ümummilli liderliyə yüksələ bilirlər.

Strateji zəkanın görə bildiyi məqamları həyata keçirmək üçün mütləq yüksək siyasi xarizma lazımdır. Bu iki faktorun vəhdəti xüsusilə böhranlı situasiyalarda lideri uğurlu edə bilir. Çünki böhranlı vəziyyətlərdə istənilən kursa qarşı çıxanlar, fərqli mövqe tutanlar və nəhayət, sadəcə, qısqanclıq edənlər olur. Bütün bunlarla yanaşı, müxtəlif maraqları olan dairələr tələlər qururlar. Bu kimi maneələri aradan qaldırıb seçilən yolla getmək üçün strateji zəka ilə siyasi xarizmanın bir-birini tamamlaması şərtdir.

İlham Əliyev bütün maneələrə baxmayaraq, enerji layihələrini nəinki həyata keçirdi, həm də yeni layihələr irəli sürərək mövcud vəziyyətə yaradıcı yanaşdığını nümayiş etdirdi. Buradan yaradıcı liderliyin vacibliyi nəticəsini çıxara bilərik.

### b) Yaradıcı lider: yeniləşdirmə qabiliyyəti

İslahatçı lider yaradıcı olmalıdır. İlham Əliyev həyata keçirdiyi islahatlarla yeniliklər etməklə nail olmuşdur. Fəlsəfi baxımdan çox maraqlıdır ki, Azərbaycan Prezidenti ən çətin anlarda belə uzaqgörən hərəkət etmiş, vəziyyətin ağırlığı fonunda qətiyyətli addımlar atmışdır. Sonradan aydın olmuşdur ki, İlham Əliyev siyasi uzaqgörənlik, müdriklik və qətiyyət nümayiş etdirmişdir. Gürcüstanın ən böhranlı anlarında Azərbaycan Prezidentinin atdığı addımlar buna nümunədir. Qonşu dövlət üçün ən ağır, böhranlı situasiyalarda İlham Əliyev bu dövlətə səfərlər etmiş, konkret təkliflərlə onu düşdüyü vəziyyətdən çıxarmışdır. Eyni mənzərə Ukrayna ilə münasibətlərdə də özünü göstərməkdədir. Azərbaycan Prezidenti qətiyyətli və güclü gedişləri ilə bu dövlətə yardım etməkdədir.

Yaradıcı liderlik qabiliyyəti II Qarabağ savaşı zamanı da özünü aydın göstərmişdir. İlham Əliyev bütün savaş boyu prosesləri elə koordinasiya etmişdir ki, ordu daim irəliləmiş, informasiya sahəsində rəqibi üstələmiş və situasiyanı Azərbaycanın xeyrinə dəyişmişdir.

Lakin məsələ bunlarla məhdudlaşmır.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# İrəvan sülh istəyirsə, Konstitusiyanı dəyişməlidir

## *Ermənistanda bununla bağlı müzakirələr davam edir*



**Baş nazir Nikol Paşinyanın gündəmə gətirdiyi bu məsələ ilə əlaqədar ölkə siyasətində birmənalı münasibət yoxdur. Paşinyana qarşı olan parlament müxalifəti və parlamentdənkənar revansist qüvvələr onun bu addımının Azərbaycanın təzyiqləri nəticəsində baş verdiyini iddia edirlər.**

Bu fikrin əsası ona görə yoxdur ki, Ermənistanın Konstitusiyasına son 30 ilə yaxın bir dövrdə bir neçə dəfə dəyişikliklər edilmişdir və bunun Azərbaycanla münasibətlərlə heç bir əlaqəsi olmamışdır. Konstitusiyaya dəyişikliklər edilərkən bu gün Ermənistan üçün maneələr təşkil edəcək maddələrin üzərində durulmamışdı və bu addımların yanlış olduğunu Ermənistanda yalnız indi anlamağa başlayıblar. Çünki Ermənistanda öz qonşuları ilə sülh danışıqlarına getmək iddiası səsləndirilir və təbii ki, Konstitusiyaya buna uyğun tənzimləmələr olmalıdır.

1990-cı il avqustun 23-də Ermənistan Ali Sovetinin birinci sessiyası "Ermənistanın Müstəqilliyi haqqında Bəyannamə"ni qəbul etdi. Müstəqillik yolunda hüquqi sənəd olan və Ermənistanın siyasi, iqtisadi və mədəni inkişaf yollarını göstərən bu bəyannamə 12 bənddən ibarət idi. Bəyannamənin preamblasında Ermənistan SSR Ali Sovetinin və Dağlıq Qarabağ İcraiyyə Komitəsinin "Ermənistan SSR-in və Dağlıq Qarabağ Muxtar Vilayətinin birləşdirilməsi haqqında" 1989-cu il 1 dekabr tarixli birgə qərarı əsasında müstəqil Ermənistan Respublikasının hüquqi bazası müəyyənləşdirilirdi. Həmin bəyannamənin 11-ci bəndində elan olunurdu: "Ermənistan Respublikası Osmanlı Türkiyəsi və "Qərbi Ermənistanda" (Türkiyənin Şərqi Anadolu vilayətləri nəzərdə tutulur) 1915-ci ildə "erməni soyqırımı"nın beynəlxalq səviyyədə tanınmasını dəstəkləyir".

Göründüyü kimi, 1991-ci il Ermənistanın Müstəqillik Bəyannaməsində həm Azərbaycana, həm də Türkiyəyə qarşı ərazi iddiaları irəli sürülürdü. Bu iddialar 1995-ci ildə qəbul olunan Ermənistanın Əsas Qanununda- Konstitusiyasında da yer almışdır. Söhbət bundan gedir. Bəyannamə və Konstitusiyada Azərbaycanın əzəli torpaqları olan Dağlıq Qarabağın guya Ermənistan ərazisinin ayrılmaz hissəsi kimi tanıyan maddə bu gün də qalmaqdadır. Ermənistanda ayrı-ayrı illərdə Konstitusiya dəyişikliyi olsa da, bu maddələr dəyişdirilməmişdir. Bunu da yada salaq ki, 1992-ci ildə də Ermənistan parlamentinin qəbul etdiyi və hələ də qüvvədə olan qanuna əsasən, heç bir erməni rəsmisi Dağlıq Qarabağın Azərbaycan tərkibində göstərildiyi hər hansı bir sənədə imza ata bilməz. Bu dəyişikliklər olmadan Azərbaycanla bağlanacaq müqavilə Konstitusiya ilə ziddiyyət təşkil edəcəkdir, 11-ci maddənin qalması Türkiyə ilə münasibətlərin qurulmasına mane olacaqdır. Ermənistan mövcud Konstitusiya ilə nə Azərbaycanla, nə də Türkiyə ilə sülh müqaviləsinə gedə bilməz.

Birmənalı şəkildə həm Müstəqillik Bəyannaməsi, həm də 1995-ci il Ermənistan Konstitusiyası dəyişməlidir. Bir daha vurğulamaq istəyirik ki, oradakı bəzi maddələrdən imtina etmədən bağlanacaq hər hansı müqavilə Konstitusiya ilə ziddiyyət təşkil edəcək. 2009- cu ildə Türkiyə ilə münasibətlərin normallaşması və sərhədlərin açılması ilə bağlı imzalanan protokollar Konstitusiya Məhkəməsi tərəfindən bu səbəbdən təsdiq olunmamışdı. Ermənistanda bu cəhətlərin fərqindədirlər. Cəmiyyətin bəzi qrupları buna Azərbaycanın tələbi kimi baxır. Bu da siyasi mübarizə müstəvisinə çıxarılmışdır. Əslində, Azərbaycanın tələbi deyil, bir zamanlar şovinist əhvali-ruhiyyə nəticəsində edilmiş siyasi avanturanın düzəldilməsidir.

Təbii ki, bütün bunlar Azərbaycan və Türkiyəni maraqlandırır. Ermənistan tərəfindən ölkələrimizə qarşı düşmənçilik siyasəti dövlətin əsas qanununda qala bilməz.

Azərbaycan Prezidenti İlham Əliyev demişdir ki, Ermənistanın Müstəqillik Bəyannaməsində ölkəmizin Qarabağ bölgəsinin Ermənistana birləşdirilməsi və Azərbaycanın ərazi bütövlüyünün pozulması ilə bağlı birbaşa çağırışlar var və həmin sənədə istinadlar Ermənistan Konstitusiyasında da əksini tapıb. Həmçinin Ermənistanın qoşulduğu bir çox konvensiyalar və digər sənədlərdə Azərbaycanın Qarabağ üzərində suverenliyini tanımayan çoxsaylı qeydlər, hətta ərazi iddiaları var.

Ermənistanın baş naziri Nikol Paşinyan bu il yanvarın 19-da hökumətin iclasında bildirib ki, yeni geosiyasi və regional şəraitdə daha rəqabətli və həyat qabiliyyətli edəcək yeni Konstitusiya lazımdır. O da ifadə olunur ki, atılacaq addımlar Konstitusiyada bəzi maddələrin dəyişdirilməsi ilə məhdudlaşa bilməz, bütünlüklə, yeni Konstitusiya qəbulu olmalıdır. Ermənistan bu qanunda dəyişdirmək üçün referenduma getməlidir. Bunlar olmasa, Ermənistan Azərbaycanla və Türkiyə ilə heç bir sənədə imza ata bilməz.

Ermənistanda belə fikirləşirlər ki, Paşinyan yaxın 4 ayda yeni Konstitusiya ilə bağlı referendum keçirməyə hazırlaşır. Erməni nəşrləri də yazırlar ki, Qərb Azərbaycanla sülh müqaviləsini maneəsiz imzalamaq üçün Nikol Paşinyandan ölkə daxilində əlavə legitimlik də tələb edir. Əlavə legitimlik isə növbədənkənar seçkilərin keçirilməsidir. Belə bir fikir irəli sürənlər də var ki, Konstitusiya dəyişiklikləri ilə bağlı referendumla növbədənkənar seçkilər eyni vaxtda keçirilə bilər.

Ermənistanda dəyişikliklər yalnız Konstitusiyada edilməməlidir, dövlətin atributlarında, rəmzlərində də dəyişiklik edilməsi gündəmə gətirilmişdir. Məsələn, Ermənistanın gerbindəki "Ağrı dağı" təsviri götürülməlidir, Paşinyanın özü bir çıxışında bildirmişdi ki, "Ağrı dağı" Ermənistanın sərhədləri daxilində deyil, onu Araqats (Ələyəz) dağı ilə əvəz etmək məqsədəuyğundur.

Ermənistanın himnində "düşmən" ifadəsi yer alır, açıq şəkildə qonşu Azərbaycan və türk xalqları nəzərdə tutulur. Belə nifrət ifadələrindən imtina edilməlidir. Orta məktəblərdə tədris olunan "Erməni tarixi" kitabları da dəyişdirilməlidir. Təklif edirlər ki, bu ifadə "Ermənistan tarixi" olmalıdır. "Erməni ordusu" ifadəsi də dəyişdirilməlidir.

Belə ki, Amerikada, Rusiyada və başqa ölkələrdə yaşayan ermənilərin ordusu anlamına gələn həmin ifadə yanlışdır, ordu Ermənistan dövlətinə aiddir və s. Müzakirələr bu istiqamətdə gedir, amma Paşinyan hakimiyyəti çox ciddi çətinliklər qarşısındadır. Mövcud durumun Azərbaycanla aparılan sülh prosesinə mənfi təsirini bu ölkədə hər kəs bilir. Həm də Paşinyan hakimiyyətinin möhkəm əsaslarla, legitim olaraq davam etməsi üçün açılmaz bir proses olduğu da reallıqdır.

***Qafar ÇAXMAQLI,***
***Türkiyənin Ərciyəs Universitetinin professoru***

(əvvəli 1-ci səhifədə)

# Hərbi təxribat Ermənistanın sülhə çıxışını ağırlaşdıracaq!

Bəli, aylar sonra Azərbaycan–Ermənistan şərti sərhədində silahlı insident yaşandı. Deməli, Prezident İlham Əliyevin yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində təsvir etdiyi durum artıq yoxdur. Dövlətimizin başçısı son 4-5 ayda tərəflər arasında ən sabit dövrün müşahidə olunduğunu vurğulamışdı.

Sabitlik aradan qalxacağının anonsunu verən baş nazir N.Paşinyan haqqında söz açdığımız müsahibəsində həm də elə rəy formalaşdırıb ki, sanki, Azərbaycanla danışığa getmək mümkünsüzdür. Çünki, guya, Bakı üzərinə düşən öhdəlikləri yerinə yetirmir. Nəzərə alaq ki, Nikol Ermənistanı, belə demək mümkünsə, demokratiya adası kimi göstərib. O, təxminən, belə bir təəssürat formalaşdırmağa çalışıb: Demokratik Ermənistanın antidemokratik Azərbaycanla bir masaya əyləşməsi mümkünsüzdür.

Yeri gəlmişkən, N.Paşinyan 44 günlük müharibədən əvvəl də eyni cür davranmışdı. Qarabağ danışıqlarını boykot yolu tutan baş nazir mövqeyini belə əsaslandırmışdı ki, sanki Azərbaycanda legitim hakimiyyət yoxdur və buna görə ölkə ilə danışıq aparmaq mümkünsüzdür. Bu sərsəm düşüncənin İrəvan üçün hansı acınacaqlı sonluq vəd etdiyini hər kəs yaxşı gördü. Elə Nikolun özü də. Ancaq, deyəsən, ötən müddətdə yaşananlar Paşinyan üçün dərs olmayıb. O, 44 günlük müharibədən əvvəl özünün "demokratiyanın qladiatoru" obrazına güvənirdisə, belə təəssürat var ki, hazırda yenə də həmin obraza, habelə Fransadan və Hindistandan aldığı silahlara güvənməkdədir...

***

Diqqət yetirək, erməni silahlı təxribatı Avropa İttifaqının müşahidə missiyasının patrul xidməti həyata keçirdiyi ərazidə baş verir. Sözügedən missiyanın real, bəzək-düzəksiz məqsədi Ermənistanı qorumaqdır. Nəticə hasil olur ki, İrəvan hər cür yaramazlığa yol verəcək, sonra avropalı müşahidəçilərin arxasında gizlənəcək. Müşahidəçilər isə öz növbələrində, "təcavüzkar Azərbaycanın Ermənistanı işğal etməsinin" qarşısını alacaqlar.

İşğaldan söz düşmüşkən, son vaxtlar Ermənistanın ictimai rəyində bu mövzu daha çox qabardılmaqdadır. Eyni zamanda, rəsmi İrəvanın ayrı-ayrı təmsilçiləri bütün beynəlxalq platformalarda ölkəmizin "Qarabağın işğalından" sonra Ermənistan ərazisinə də təcavüz reallaşdıracağına dair cəfəngiyyatı tirajlamaqdadırlar. İndi sərhəddə yaşananlar göstərir ki, Ermənistan rəhbərliyi sözdən əmələ keçib. Heç şübhəsiz, hazırkı təxribatda məqsəd ölkəmizi sərt addımlara təhrik etməkdir. Yəni, İrəvanın Azərbaycan–Ermənistan sülh prosesini pozmaq istəklərini mövcud aspektdən də əsaslandırmaq mümkündür. Bəs Ermənistan nə üçün sülh istəmir?

Ümumən, 44 günlük müharibədən sonra Ermənistanın heç vaxt sülh niyyəti olmayıb. Həmişə vaxt qazanmağa və güclənməyə çalışıb. Baş nazir N.Paşinyan Qarabağ daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bildirəndə də səmimi olmayıb. Ermənistan rəhbərliyi həmişə çalışıb ki, Qarabağdakı artıq canını tapşırmış separatçı rejim saxlanılsın. Vaxtilə bölgəyə gizli yollarla silah-sursat daşınması buna hesablanmışdı. Nəhayət, bıçaq sümüyə dirəndi və ölkəmiz ötən ilin sentyabrında lokal xarakterli antiterror tədbirləri keçirərək, suverenliyinə qovuşdu. İlk baxışdan, sülh yolunda heç bir əngəl qalmadı. Ortada beynəlxalq hüquq var. Azərbaycan həmin hüquqa əsaslanaraq, haqqı bərpa etdi, daha doğrusu, haqsızlığı aradan qaldırdı.



Ancaq Ermənistanda bununla razılaşmayanlar da var. Revanşist dairələr, xaricdəki anti-Azərbaycançı qüvvələr Ermənistanın mövcud hakimiyyəti ilə birləşərək, sülh müqaviləsinin imzalanmasının qarşısını almaq yolu tuturlar. Onlar erməni avantürizmini qoruyub saxlamaqla, Cənubi Qafqaz maraqlarını gerçəkləşdirməyə çalışırlar. Belə niyyət güdənlərin bir qütbünü Fransa təşkil edir. Digər mövqedə qərarlaşan isə kollektiv Qərbin aparıcı siyasi aktoru ABŞ-dır. Görünür, ABŞ və Fransa bölgədəki erməni ambisiyalarını diri tutmağa cəhd göstərir. Şərti sərhəddə erməni silahlı təxribatının törədilməsində bir məqsəd də elə budur. Növbəti məqsəd isə Azərbaycanı yenidən müharibəyə təhrik etməkdir. Kollektiv Qərb çox yaxşı anlayır ki, ölkəmiz özünə ünvanlanmış hərbi təhdidlərin qarşısını almaqda israrlıdır. Sərhəd insidentində iki erməni hərbçisinin cəhənnəmə vasil edilməsi də sözümüzün təsdiqidir.

***

Bəli, Aİ missiyasının genişləndirilməsi, Ermənistanın silahlandırılması, Avropa məmurlarının Ermənistana gəlmələri, Fransa generalının ölkəyə səfəri və Azərbaycanla sərhəddə peyda olması fonunda "durbin diplomatiyası", habelə ABŞ hərbi təlimatçılarının Ermənistandakı fəaliyyəti və digər faktlar göstərir ki, İrəvan hərbi əməliyyatlara hazırlaşır. Konkret desək, sərhəd ərazilərində Azərbaycan Ordusunun qərarlaşdığı strateji nöqtələrin ələ keçirilməsinə dair plan var. Planın reallaşması İrəvan üçün motivasiyadır. Hesab edilir ki, şərti sərhəddə qazanacağı uğur Ermənistana mənəvi stimul verəcək və ölkənin Azərbaycana qarşı sınmış mübarizə ruhunu yenidən formalaşdıracaq.

Diqqət yetirsək görərik ki, hadisələr, sanki, paralel şəkildə gerçəkləşdirilir. Bir yandan hərbi təxribat törədilir, digər tərəfdən Ermənistan daxilində revanşist ideyaların ciddi təbliğinə girişilir. İrəvan rəsmilərinin bütün beynəlxalq platformalarda aktiv anti-Azərbaycan fəaliyyəti barışmazlıq mənzərəsini tamamlayır. Mövcud trayektoriyada sülh görünmür və sülh adı altında irəli sürülən təşəbbüslərin yalnız manipulyativ xarakter daşıdığı nəzərə çarpır. Ola bilər, Ş.Mişel səmimidir. Ancaq o, sülh danışıqlarının bərpası təşəbbüsünü qaldıranda, Ermənistan təxribata əl atırsa, bunu Aİ Şurasının Prezidentinə verilən cavab kimi qiymətləndirmək mümkündür. Ancaq Mişelin özünün də oyunda yer alma ehtimalını kənara qoymayaq.

Yeri gəlmişkən, yada salaq ki, Aİ Şurasının prezidenti ötən il dekabrın 12-də "Azadlıq" radiosuna müsahibəsində təşəbbüskarı olduğu Brüssel formatının ruhuna zidd fikirlər səsləndirmiş, sülhün komponenti kimi Qarabağ ermənilərinin bölgəyə qayıtmalarının vacibliyindən söz açmış, etniklərin hüquqları zəminində reallığı təhrif etmişdi. Düşünməmişdi ki, Azərbaycan həmin erməniləri öz evlərindən zorla çıxarmayıb və onların Azərbaycan vətəndaşı qismində vaxtilə yaşadıqları yerlərə qayıtmalarına heç bir maneə yoxdur.

Cənab Mişel Qarabağ ermənilərinin bölgəyə qayıtmaları ilə paralel olaraq, Ermənistandan 1988–1991-ci illərdə qovulmuş azərbaycanlıların öz doğma yurd-yuvalarına dönmək hüquqlarının mövcudluğunu heçə saymışdı. Halbuki, Azərbaycanın, kifayət qədər, aydın və məntiqi tələbi var: Sülh müqaviləsinə Qarabağ ermənilərinin bölgəyə qayıtmaları xüsusu əlavə olunursa, o zaman sənəddə Qərbi azərbaycanlıların da hüquqları eyni dərəcədə əksini tapmalıdır.

Əlbəttə, hazırkı sərhəd insidenti böyük ölçüdə Ermənistanın haqq və ədalətdən uzaqlığının, reallıqları qəbul etmək istəməməsinin, avantürizmi qorumaq niyyətinin sübutudur. Bu, bir daha onu göstərir ki, İrəvan yalnız gücün dilindən anlayır. Yəni, ona üzərinə götürdüyü öhdəlikləri xatırlatmağın ən yaxşı vasitəsi gücdür. Əks halda, ölkə manipulyasiyalarını davam etdirəcək, ABŞ və Fransa başda olmaqla, kollektiv Qərbin Cənubi Qafqaz planlarında, ümumən bölgə üzərində qurulmuş qlobal oyunlarda kiçik alətə çevrilməsinə davam edəcək. Sərhəd təxribatı da İrəvanın alətə çevrilmək mahiyyətinin növbəti təzahürüdür və deməli, Ermənistan illüziya bataqlığından qurtulmağı bacarmır.

***

N.Paşinyan tez-tez Ermənistan dövlətçiliyinin qorunmasından, ölkənin təhlükəsizliyinin möhkəmləndirilməsi zərurətindən söz açır. Ancaq etdiyi əməllər göstərir ki, o, təhlükəsizlik və dövlətçiliyin qorunması naminə real tədbirlər görməyi yox, Qərbin qlobal siyasi oyunlarının elementinə çevrilməyi üstün tutur. Qərb isə Yaxın Şərqdə vəziyyəti gərginləşdirdiyi kimi, eyni addımı Cənubi Qafqaz müstəvisində atmaqda maraqlıdır.

ABŞ və Fransa kimi ölkələr özlərindən min kilometrlərlə uzaq, heç bir mənəvi və hüquqi məsuliyyət daşımadıqları regionda konfliktli durum yaratmağa çalışırlar. Onları düşündürən bir şey var – Rusiyanın və İranın sərhədlərinə yaxın ərazilərdə münaqişə ocaqları alovlansın, qanlar axsın. Bu ölkələr Cənubi Qafqazı da Yaxın Şərqə və Ukraynaya çevirmək niyyəti güdürlər, mövcud istiqamətdə zəmin hazırlayırlar. Deməli, sülh üçün heç bir əsas yoxdur. Məsələyə bu prizmadan yanaşsaq, dünən ABŞ Dövlət Departamentinin rəsmi nümayəndəsi Metyu Millerin Azərbaycan və Ermənistan arasındakı durumla bağlı "tərəflər arasında dialoq təminatlı nizamlamanın ən yaxşı yoludur" fikri söz yığınından başqa şey təsiri bağışlamır.

***

Qərbin hədəfi həm Rusiyadır, həm də İran. İslam respublikasının rəsmiləri tez-tez bildirirlər ki, Cənubi Qafqazda sərhədlərin dəyişməsinə razı deyillər, onlar üçün "qırmızı xətt"lər var və sair. Aİ müşahidəçilərinin arxasında gizlənən Ermənistan həm də bu deyimi sipər sayır. Doğrudur, Tehran özünün strateji maraqlarını düşünə və hesab edə bilər ki, Ermənistan ərazisindən keçirərək reallaşdırdığı ənənəvi tranzit heç bir kənar təsirə məruz qalmamalıdır. Ancaq İran nəzərə almalıdır ki, İrəvanın ipə-sapa yatmaz hərəkətləri səbəbindən hazırda məhz həmin tranzitin təhlükəsizlik göstəricisi xeyli aşağı düşməkdədir. Bircə qalıb İrandan Ermənistan ərazisi ilə Şimal–Cənub marşrutu üzrə daşınan yüklərin Aİ-nin müşahidə missiyasının patrulları tərəfindən yoxlanılması. Qərbpərəst N.Paşinyan administrasiyası "təhlükəsizlik baxımından" buna da gedə bilər. Onsuz da Nikol və tərəfdarları hər yerdə bar-bar bağırırlar ki, ölkənin təhlükəsizliyinin başlıca faktoru Aİ-nin müşahidə missiyasıdır. Hazırkı dövrdə Ermənistanda İranın "qırmızı xətt"lərini mövcud anlamda dəyərləndirənlər, demək olar ki, qalmayıb. Deməli, Tehranın maraqları İrəvanın manipulyativ mövqeyi naminə sığınacaqdır. Yəni, Paşinyan hazırda, faktiki olaraq, həm də Qərbin İslam respublikasını parçalamaq oyununu gerçəkləşdirməkdədir. Tehran onun əsl mahiyyətini nə qədər tez dərk etsə, bir o qədər yaxşıdır.

Bəli, Ermənistanın sərhəd zolağında təxribata əl atması İranı münaqişə ocağına cəlb etmək istəyidir. Paşinyan və komandası hesab edir ki, Azərbaycanı təxribata adekvat addım atmağa sövq etmək, Bakı–Tehran münasibətlərini gərginləşdirmək yoludur. Ona görə çox rahatdır. Bir tərəfdə Aİ, digər yanda bölgəyə daha çox bağlılığı olan İran. İrəvanda belə düşünürlər ki, bu iki amil Azərbaycanı heçə saymaq üçün kifayətdir. Buna görə yekun sülhə razı deyillər. Hazır olmadıqlarını təxribat əməlləri ilə təsdiqləyirlər. Görünür, gələcəkdə belə əməllərin sayı artacaq.

Sonda bir el misalımızı xatırladaq: "İlan ulduz görməsə ölməz". İndiki durumda Ermənistan adlı ilan üçün ulduz gücdür. Bir daha deyək ki, ölkənin anladığı dil yalnız gücün dilidir. Ancaq Paşinyan, ümumən rəsmi İrəvan və onun xaricdəki havadarları anlamalıdır ki, hər güc tətbiqi ilə yaranacaq durum Ermənistan üçün sülhün şərtlərini bir qədər də ağırlaşdıracaq. Əgər bu ağırlığı istəyirlərsə, təxribatlarına ara verməsinlər.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Femidanın tərəzisi siyasi avantüraya əyiləcəkmi?

## İrəvanın "Roma statutu" adlı siyasi avantürası və yeni ideoloji "gedişi"

***Fevralın 1-dən Roma Statutunun qüvvəyə minməsi ilə bağlı Ermənistan hakimiyyətinin Azərbaycana yönəlik qərəzli və məsuliyyətsiz açıqlamasına qəzetimiz özünün operativ reaksiyasını bildirmişdi. Fəqət, mövzuya yenidən qayıtmağımızı zəruri edən bəzi məqamlar var. Bu məqamlardan ən başlıcası rəsmi İrəvanın Beynəlxalq Cinayət Məhkəməsində qazandığı yeni statusundan yararlanaraq, guya, bu müstəvidə Azərbaycana qarşı bəzi iddiaları qaldıra biləcəyi ehtimalını ictimai rəyə sırımağa çalışmasıdır. Məqsəd isə məhz beynəlxalq ictimai rəy ilə manipulyasiya üzərində qurduğu ideoloji mübarizəsinə təzə nəfəs verməkdir. Əlbəttə, istər 44 günlük müharibənin gedişində, istərsə də postmüharibə dönəmində bütün cəbhələrdə ağır məğlubiyyətə uğramış Ermənistanın diplomatik isteblişmentinin həm yerli ictimaiyyətin, həm də dünya birliyinin gözündə özünü reablitasiya cəhdlərində bulunması başadüşüləndir.***



Əgər həqiqətə və reallığa Femidanın bağlı deyil, açıq gözü ilə baxılarsa, əslində, konstitusiyasında qonşu dövlətlərə qarşı ərazi iddiasının yer aldığı Ermənistanın özü müttəhimlər kürsüsünə oturdulmalıdır. 30 il davam edən işğal dövründə Qarabağda və ətraf rayonlarımızda həyata keçirdiyi soyqırımından tutmuş çoxsaylı hərbi cinayətlərə, minlərlə soydaşımızı qətlə yetirdiyinə görə ittihamlar məhz həmin Beynəlxalq Cinayət Məhkəməsinin tribunasından irəli sürülməlidir. Bundan başqa, işğal altında saxladığı onlarca şəhərimizi, minlərlə qəsəbə və kəndimizi xarabazara çevirməsi rəsmi İrəvana xatırladılmalı, buna görə boynuna məsuliyyət yükü qoyulmalı, eyni zamanda, ondan Azərbaycana vurduğu ziyana görə təzminat tələb olunmalıdır.

"Beynəlxalq birliyin Ermənistanın Azərbaycana qarşı təcavüzünün qarşısını ala bilməməsi və 30 ilə yaxın müddətdə ərazilərimizin işğalına son qoyulmaması, Ermənistan tərəfindən kütləvi vəhşiliklər və insanlıq əleyhinə cinayətlər törədilməsinə, Ermənistanın müharibəni qızışdıran bəyanat və hərəkətlərini davam etdirməsinə maneçilik törətməməsi bu ölkədə cəzasızlıq hissinə təkan verib". Azərbaycan XİN-in hayların baş diplomatı Ararat Mirzoyanın Niderlandda Ermənistanın Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutuna qoşulmasına həsr olunmuş mərasimdəki çıxışına verdiyi şərhdə belə deyilir. Şərhdə birmənalı şəkildə qeyd olunur ki, Mirzoyanın məlum çıxışı Ermənistanın Roma Statutuna qoşulmasının bu qurumlardan özünün əsassız iddiaları, məkrli hərəkətləri, nifrət təbliğatı, dezinformasiya və beynəlxalq hüququn yanlış təfsiri üçün istifadə etmək cəhdidir.

* * *

"Ermənilər Azərbaycan torpaqlarında cinayətlər törədəndə beynəlxalq təşkilatlarla məsafə saxlayırdılar. Çünki bilirdilər ki, həmin qurumların qarşısında cavab verməli olacaqlar. Necə ki, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsini heç nə sanırdılar, Baş Assambleyanın qərarlarını veclərinə almırdılar. Avropa Parlamentinin, Avropa Şurasının, İslam Əməkdaşlıq Təşkilatının, eləcə də Qoşulmama Hərəkatının çoxsaylı çağırışlarına da məhəl qoymurdular".

**Mövzu ilə bağlı "XQ"-ya açıqlamasında bu fikirləri xüsusi olaraq vurğulayan Milli Məclisin deputatı, politoloq Rasim Musabəyov rəsmi İrəvanın indiki vəziyyətdə müəyyən beynəlxalq təşkilatlara soxulmaqla onlardan Azərbaycana qarşı istifadə etməyə çalışdığını dedi:**



"Hazırda quyruğu qapı arasında qalmış Ernmənistan hakimiyyətinin bu cəhdlərinin heç bir faydası olmayacaq. Heç kəs çörəyi qulağına yemir. İrəvan həmin Beynəlxalq Cinayət Məhkəməsinə üz tutacağı halda, Bakının ermənilərin bizim torpaqlarımızda törətdiyi cinayətlərlə bağlı məhkəməyə onlarla, yüzlərlə fakt və sübutlar təqdim olunacaq. Əgər İrəvan düşünürsə ki, bu yolla Azərbaycana siyasi təzyiq göstərə biləcək, kökündən yanılır. Onlar üz tutduqları beynəlxalq qurumlardan, bu vaxtacan olduğu kimi, yenə də əlləri ətəklərindən uzun qayıdacaqlar. Roma Statunun verdiyi digər imtiyaza gəldikdə isə İrəvanın Rusiya Prezidenti Vladimir Putinin həbsinə qərar verməyə cürəti çatmaz. Moskva lap əvvəldən İrəvanın bu avantürasına kəskin tənqidini açıqladı və indiki vəziyyətdə oradan Ermənistan hakimiyyətinə minnətçi düşənin olmayacağı aydındır".

Ermənistan XİN başçısı Ararat Mirzoyanın yaramaz və satqın olduğunu Nikol Paşinyanın özünün də yaxşı bildiyinə diqqəti çəkən R.Musabəyov yaxın vaxtlarda onun tutduğu vəzifədən uzaqlaşdırılması ehtimalını da istisna etmədi.

* * *

Rəsmi İrəvan son günlər sərgilədiyi məlum siyasi davranışları ilə Bakı üçün yeni heç nə ortaya qoymur. Bütün müstəvilərdə və platformalarda üstün mövqelərdə olan Azərbaycana hansı cinahdan və kimlərin vasitəsilə zərbə vurmaq barədə baş sındıran Ermənistan hakimiyyətinin sınaqdan çıxardığı yalan, dezinfiormasiya "taktikasından" heç cür irəli gedə bilmədiyi aşkar görünməkdədir. Bu durum təkcə ölkənin siyasi elitasına deyil, eyni zamanda, cəmiyyətin "daxili təzyiqinə" də mənfi təsirini göstərir.

**Tanınmış siyasi şərhçi Tofiq Abbasov İrəvanın diplomatik savaşda elementar leksikonunun belə tükəndiyini dilə gətirdi:**



"Ermənistan Roma Statutu ilə bağlı böyük bir "spekulyativ" əməliyyata start verib. Biz Hayastan cəmiyyətində siyasi parçalanmaların əlamətlərini görürük. Baş nazir Nikol Paşinyan ictimai rəyi bir tərəfə, spiker Alenm Simonyan başqa tərəfə çəkir. Qərbin məlum institutlarına sıx bağlı olan bədnam xarici işlər naziri Ararat Mirzoyan isə öz oyununu oynayır. Bütün bunların bizə birbaşa təsiri olmasa da, sadəcə kiminlə tərəf müqabili olduğumuzu dəqiq bilməliyik. Digər tərəfdən isə yüksək səlahiyyət sahibi olan erməni siyasi fiqurların fərqli qütblərə bağlılığı hakimiyyətdə, o cümlədən, cəmiyyətdə hərc-mərclik yaratdığı kimi, Azərbaycanla ikitərəfli dialoqda da ikibaşlılıq, anlaşılmazlıq yaradır. Düşünürəm ki, bu mərhələdə tələskənliyə yol verməməliyik. Bizi etmədiyimiz cinayətlərdə suçlamağa cəhdlər edən İrəvan bu zaman ümidlərini beynəlxalq arbitraja bağlayır. Amma bunun nəticəsi olacaqmı? Bu, harada görünüb ki, yalançı, cinayətkar tərəfi haqlı, düzü, qarşı tərəfin əməllərinin qurbanı olanı isə günahkar çıxarsınlar? Bu, mümkün deyil".

T.Abbasov sözlərinə onu da əlavə etdi ki, erməni tərəfi yaxşı bilir ki, Azərbaycan beynəlxalq Femidanın qarşısında işğalçı və talançı İrəvana qarşı təzminat məsələsini qaldıranda və bu məsələlər məhkəmə araşdırmasına çevriləndə əlləri boş qalacaq: "Özü üçün o arzuolunmaz perspektivə indidən "dəstəvuz" hazırlamağa girişən İrəvanın nə müşahidə etdiyimiz diplomatik fəaliyyətinin, nə də deyəcəyi sözlərin heç bir əhəmiyyəti olmayacaq. Məhz, bu baxımdan, Azərbaycan ciddi və təkzibolunmaz təminat bazasına malikdir. Bu prosesə peşəkar milli hüquqşünaslarımız və neytral beynəlxalq ekspertlər cəlb olunub. Ermənistanın ötən əsrin 90-cı illərindən başladığı cinayət əməlləri bir-bir araşdırılır və müvafiq hüquqi rəylər hazırlanır".

* * *

Niderlandda avantürist çıxışı ilə ictimai rəydə "xüsusi effekt" yaratmağa çalışan Ararat Mirzoyanın timsalında anti-Azərbaycan kampaniyasını genişləndirməyə qərar verən İrəvanın, ilk növbədə, özünüqoruma instikti ilə davrandığı şübhə doğurmur. Bu yersiz səylərdən heç bir nəticə hasil olmayacağını təşəbbüskarların özləri də yaxşı bilirlər. Sadəcə, onların bu gün qaldırdıqları hay-küy sabah geri çəkilmək üçün "siyasi sığınacaq nöqtəsi" hazırlamağa xidmət edir. Onların bu müstəvidə də heç bir şansı yoxdur. Bu, sadəcə məğlubiyyətini göz qabağına almış rəqibin düşəcəyi durumda özünə haqq qazandırmaqdan ötrü ətrafını aldatmasına bənzəyir. Amma İrəvanın Femidanın mizan-tərəzisinin gözünü belə avantüralarla əyə biləcəyi inandırıcı deyil. Bu həqiqətin sonda Beynəlxalq Cinayət Məhkəməsinin tribunasından elan olunacağına qətiyyən şübhəniz olmasın.

***İmran BƏDİRXANLI***
***XQ***

# Baş prokuror BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi ilə görüşüb

**Fevralın 13-də Baş prokuror Kamran Əliyev Birləşmiş Millətlər Təşkilatının Azərbaycandakı rezident-əlaqələndiricisi xanım Vladanka Andreyeva ilə görüşüb.**




Baş Prokurorluğun mətbuat xidmətindən verilən məlumata görə, görüşdə Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində Birləşmiş Millətlər Təşkilatı və onun qurumları arasında münasibətlərin yüksək səviyyədə olmasını bildirib.

Baş prokuror, həmçinin dünyanın ən mötəbər beynəlxalq tədbirlərindən biri olan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) ölkəmizdə keçirilməsinin dünya ölkələrinin növbəti dəfə Azərbaycana olan böyük etimad və hörmətinin, o cümlədən ölkəmizin dünya miqyasında artan nüfuzu və güclü mövqelərinin göstəricisi olduğunu xüsusilə vurğulayıb.

BMT-nin rezident-əlaqələndiricisi Vladanka Andreyeva səmimi qəbula görə təşəkkürünü bildirərək, ölkəmizin sədrliyi çərçivəsində təşkil olunacaq COP29 kimi nüfuzlu beynəlxalq konfransın önəmindən və dünya dövlətlərinin üzləşdiyi qlobal ekoloji problemlərin həllinə töhfəsindən danışıb.

Görüşdə tərəfləri maraqlandıran bir sıra məsələlər, o cümlədən Baş Prokurorluqla BMT-nin Narkotiklər və Cinayətkarlıqla Mübarizə İdarəsi (UNODC) arasında cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlıq və sair məsələlər ətrafında faydalı müzakirələr aparılıb.

# Hərbi qulluqçumuzun yaralanması ilə bağlı cinayət işi başlanılıb

**Dövlət Sərhəd Xidmətinin əsgəri Xəlilzadə Pərviz Ağakişi oğlunun düşmən tərəfindən odlu silahdan açılmış atəş nəticəsində yaralanması barədə Qubadlı Hərbi Prokurorluğuna məlumat daxil olub.**



Hərbi Prokurorluğun mətbuat xidmətindən verilən məlumata görə, daxil olmuş məlumat əsasında izahatlar alınıb, hadisə yerinə baxış keçirilib və digər müvafiq zəruri tədbirlər icra edilib.

Fakt üzrə Cinayət Məcəlləsinin 29,120.2.12-ci (milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə qəsdən adam öldürməyə cəhd) maddəsi ilə cinayət işi başlanılaraq təxirəsalınmaz zəruri istintaq hərəkətləri həyata keçirilib. İstintaq davam edir.

# Düşmən təxribatına sarsıdıcı cavab



**Fevralın 12-si saat 20:50-də və 23:40-da Ermənistan silahlı qüvvələrinin bölmələri Tovuzqala rayonunun Çinarlı yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Ordumuzun Tovuz rayonunun Koxanəbi yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.**

Bu barədə Azərbaycanın Müdafiə Nazirliyi məlumat yayıb.

* * *

**Fevralın 13-də Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən Ermənistan silahlı qüvvələrinin dünən törətdikləri təxribata cavab olaraq "qisas əməliyyatı" keçirilib.**




Əməliyyat nəticəsində dünən əsgərimizə atəş açılan Ermənistan silahlı qüvvələrinin Qafan rayonunun Nerkin-And yaşayış məntəqəsinin yaxınlığındakı döyüş postu tamamilə darmadağın edilib, döyüş mövqeləri susdurulub.

Məhv edilmiş döyüş postunun şəxsi heyəti arasında ciddi itkilərin olması barədə məlumatlar mövcuddur.

Ermənistan tərəfinin Azərbaycan–Ermənistan şərti dövlət sərhədində əməliyyat şəraitinin gərginləşdirilməsinə yönələn hər bir təxribatına bundan sonra daha ciddi və qəti tədbirlərlə cavab veriləcəkdir.

Baş vermiş hadisəyə görə məsuliyyət tam şəkildə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

**XQ**

# Yaralı əsgərimiz müalicə olunur

*Pərviz Xəlilzadə sağalıb xidmətini davam etdirəcək*

**Xəbər verildiyi kimi, fevralın 12-də Ermənistan Silahlı Qüvvələri tərəfindən Zəngilan istiqamətində açılan atəş nəticəsində yaralanan Dövlət Sərhəd Xidmətinin əsgəri Pərviz Xəlilzadə DSX-nin təcili tibbi yardım maşını vasitəsilə təcili Respublika Neyrocərrahiyyə Xəstəxanasına gətirilərək əməliyyata götürülüb, 24 yaşlı gəncin həyatı xilas edilib.**



Bu barədə xəstəxananın baş həkimi Elçin İbrahimov mediaya açıqlamasında bildirdi ki, xəstə daxil olarkən onda ilkin olaraq müayinələr nəticəsində üçüncü boyun fəqərəsində odlu silah yaralanması – kor güllə yarası aşkar olunub. İlkin təcili yardımlardan sonra sürətli cərrahi əməliyyat aparılıb: "Yaralı xəstəxanaya daxil olarkən vəziyyəti ağır idi. Güllənin onurğa kanalının yan elementlərini zədələməsi nəticəsində yuxarı ətrafda hərəkət zəifliyi, ağrılar qeyd olunurdu. Təxirəsalınmaz cərrahi əməliyyatdan sonra güllə yaradan çıxarıldı. Əsgərin vəziyyəti kafidir, müalicəsi davam edilir. Əməliyyat 1 saat davam etdi. Hazırda əsgərin vəziyyəti düzəlir. Onun bundan sonrakı fiziki sağlamlığı ilə bağlı proqnozumuz da yaxşıdır. Xəstənin bədənindən çıxardığımız yad metal cisim isə hərbi mütəxəssislərin ilkin rəyinə görə, xaricdə istehsal olunmuş snayper gülləsidir".

Yaralı əsgər Pərviz Xəlilzadə palataya köçürüldükdən sonra jurnalistlərə söylədi: "Sərhəd xidmət məntəqəmizdə 2 nəfər keşik çəkirdik. Qarşıdakı düşmən postlarını müşahidə edərkən qəfil atəş səsi eşitdim. Həmin an yıxılıb huşumu itirmişəm. Həkimlər həyatımı xilas etdilər. Artıq özümə gəlmişəm.Tibb heyəti nə lazımdırsa edir. Hamısına minnətdarlığımı bildirirəm və bunun əvəzini Vətənə xidmətimlə qaytaracağam. Sərhədçi olmağımla fəxr edirəm. Qoy düşmən görsün ki, onun hər gülləsinin qarşısında canlı bir sipər dayanıb. Bu zireh hərəkətə gəlsə bütün Ermənistanı süpürüb atar. Belə təxribatlar düşmənin zəifliyinin və ağılsızlığının nəticəsidir. Tezliklə sağalmaq, hərbi hissəyə qayıdıb xidmətimi davam etdirmək istəyirəm. Vətən sağ olsun!".

***T.RÜSTƏMLİ***
**XQ**

# Xarici İşlər Nazirliyində

## Ermənistan hərbi eskalasiyalardan çəkinməlidir



**Ermənistan Xarici İşlər Nazirliyinin Azərbaycan Silahlı Qüvvələrinin Ermənistan tərəfinin təxribatına qarşı gördüyü tədbirlərin eskalasiya üçün bəhanə olması ilə bağlı iddiaları tamamilə əsassızdır.**

Bu fikir son hərbi təxribatlarla bağlı Ermənistan XİN-in bəyanatına dair Azərbaycan XİN-in şərhində yer alıb.

Şərhdə qeyd edilib ki, Azərbaycan hərbi qulluqçusunun yaralanması ilə nəticələnən hərbi təxribatdan sonra Azərbaycan tərəfi erməni hərbi postundan irəli gələn təhlükəni aradan qaldırıb. Bu tədbir sırf cavab tədbiri idi.

"Azərbaycan sülh prosesinə sadiqdir və Ermənistan tərəfini bu istiqamətdə səyləri təhlükə altına qoya biləcək hərbi eskalasiyalardan çəkinməyə çağırır", – deyə XİN-in şərhində vurğulanıb.

## Sülhməramlıların müddəti 2025-ci ildə yekunlaşır

**Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə Rusiya Federasiyasının ölkəmizdəki səfiri Mixail Yevdokimovun "İzvestiya" qəzetində dərc edilmiş müsahibəsi ilə bağlı yerli medianın sualını cavablandırıb.**

Ayxan Hacızadə deyib: "Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin 10 noyabr tarixli bəyanatına əsasən, Rusiya Federasiyasının sülhməramlı kontingentinin Azərbaycanda qalma müddəti 2025-ci ildə yekunlaşır.

Azərbaycan tərəfindən ötən il bölgədə həyata keçirilmiş antiterror tədbirlərindən sonra sülhməramlı kontingentin gündəlik fəaliyyəti, onların müxtəlif ehtiyacları ilə bağlı mütəmadi görüşlər keçirilməsi və müzakirələr aparılması ehtiyacı yaranmışdır.

Bununla yanaşı, sülhməramlıların yerləşdiyi ərazilərimizdə Ermənistan silahlı qüvvələri tərəfindən son 3 il ərzində genişmiqyaslı minalanma fəaliyyəti aparıldığı və ərazidə partlamamış hərbi sursat problemi nəzərə alınaraq, bu təhdidlərin aradan qaldırılması istiqamətində birgə səylərin həyata keçirilməsi üzrə məsləhətləşmələr aparılması zərurəti mövcuddur".

Qeyd edək ki, Rusiyanın ölkəmizdəki səfirinin "İzvestiya" qəzetinə müsahibəsi zamanı Rusiyanın sülhməramlı kontingenti ilə bağlı Moskva və Bakı arasında danışıqların növbəti raundunun tarixlərinin Azərbaycan XİN ilə razılaşdırılma mərhələsində olduğunu bildirib.

**XQ**

# Ərəb Parlamenti sədrinin AŞPA-ya ölkəmizlə bağlı çağırışı




**Fevralın 13-də Ərəb Parlamentinin sədri Adel bin Abdul Rahman Əl-Asumi Avropa Şurası Parlament Assambleyasının (AŞPA) sədri Teodoros Rusopulosa qurumun Azərbaycan nümayəndə heyətinin səlahiyyətlərinin ratifikasiya olunmamasına dair qəbul etdiyi qətnamə ilə əlaqədar məktub ünvanlayıb.**

Məktubda deyilir: "Ərəb Parlamenti bu qətnamənin qəbul olunması ilə bağlı dərin təəssüfünü bildirir. Azərbaycan Respublikası ərəb dövlətlərinin yaxın dostu və strateji tərəfdaşı olmaqla yanaşı, həm Avropa, həm də dünya miqyasında mədəni müxtəlifliyin qorunmasında, həmçinin sivilizasiyalararası dialoqun təşviqində əhəmiyyətli rol oynayır".

Məktubda diqqətə çatdırılır ki, Ərəb Parlamenti bir daha Azərbaycan parlament nümayəndə heyətinin səlahiyyətlərinin təsdiqlənməməsi ilə bağlı təəssüfünü bildirir, AŞPA-nın əsasını təşkil edən dialoq və əməkdaşlıq prinsiplərinə zidd olan bu qətnaməyə yenidən baxılmasında AŞPA sədrinin şəxsi və peşəkar dəstəyinə ümid edir, AŞPA ilə Azərbaycan Milli Məclisini tez bir zamanda birbaşa dialoqa səsləyir.

**XQ**

# Kərkicahanlılar bu il evlərinə dönəcəklər

**Dünən Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev vətəndaşların növbəti qəbulunu keçirib.**



Vətəndaşların fərdi qəbulu başa çatdıqdan sonra Dövlət Komitəsinin sədri Xankəndi şəhərinin Kərkicahan qəsəbəsinin bir qrup sakini ilə görüşüb. O, dövlət başçısı İlham Əliyevin işğaldan azad edilmiş ərazilərin bərpası, məcburi köçkünlərin doğma yurda effektiv qayıdışı ilə əlaqədar verdiyi tapşırıqların icra vəziyyəti barədə görüş iştirakçılarına ətraflı məlumat verilib. Qeyd olunub ki, bu il məcburi köçkünlərin ilk qrupu Kərkicahan qəsəbəsinə köçürüləcək. Qəbulda iştirak edən sakinlər doğma yurda qayıtmağa hazır olduğunu bildirilər.

# İqlim maliyyəsi yaratmaq günün tələbidir

**"Biz COP29-un ev sahibi kimi inkişaf etmiş və inkişaf etməkdə olan dünya arasında bir körpü olaraq gücümüzdən istifadə edərək, iqlim istiləşməni 1,5 dərəcə səviyyəsində saxlamaq üçün səyləri sürətləndirməyə sadiqik. Bunun açarı iqlim probleminin miqyasını və aktuallığını əks etdirən yeni iqlim maliyyəsinin yaradılması olacaq".**

AZƏRTAC COP29-un rəsmi "X" hesabına istinadən xəbər verir ki, bu fikirləri Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər naziri, COP29-un prezidenti Muxtar Babayev Dünya Hökumət Sammitində çıxışı zamanı bildirib. O, yeni yaradılacaq iqlim maliyyəsinin ən çox ehtiyacı olan ölkələrə çatdırılmasının vacibliyini də vurğulayıb. COP29 prezidenti, həmçinin COP prezidentlərinin "üçlüyü"nün birgə fəaliyyətə başlamasını şərh edərək, Azərbaycanın sədrliyinin "missiya 1.5°C"in qorunması üçün səylərin artırılmasına sadiqliyini vurğulayıb.

Qeyd edək ki, Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən Dünya Hökumət Sammitində iştirak edən hazırkı və gələcək COP prezidentləri arasında əməkdaşlığı və davamlılığı möhkəmləndirmək üçün Azərbaycan, BƏƏ və Braziliya arasında tərəfdaşlığa başlanılıb.

# ABŞ və Fransa Cənubi Qafqazı xaosa sürükləməyə çalışır

**Ermənistan yenə də sakit dayanmır. Qərbin, konkret olaraq ABŞ və Fransanın idarə etdiyi İrəvan Azərbaycana qarşı hərbi təxribata əl atır. Fevralın 12-də Azərbaycan–Ermənistan şərti dövlət sərhədində əməliyyat şəraitinin gərginləşdirilməsinə yönələn addım atmaqla Ermənistan xaricdəki kuratorlarının siyasi sifarişlərini yerinə yetirməyə çalışır. Əlbəttə ki, ermənilərin törətdikləri təxribat cavabsız qalmadı, fevralın 13-də Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən Ermənistan silahlı qüvvələrinin təxribatına cavab olaraq "qisas əməliyyatı" keçirildi. Ermənilər və xaricdəki təlimatçılar anlamalıdırlar ki, Azərbaycan belə təxribatlara bundan sonra da cavab verəcək və postmüharibə reallıqlarının nəticələrini dəyişməyə cəhd göstərən qüvvələrə qarşı milli maraqlarına uyğun addımlar atacaq.**

İkinci Qarabağ müharibəsindən sonra Cənubi Qafqaz regionundakı proseslər yeni reallıqlar şəraitində inkişaf edir. Postmüharibə reallıqlarının məntiqinə uyğun olaraq Azərbaycan Ermənistana əməkdaşlıq əlini uzadır və regional təhlükəsizliyin gücləndirməsinə, eyni zamanda, iki ölkə arasında münasibətlərin normallaşmasına şərait yaradacaq sülh müqaviləsinin imzalanmağa çağırır. Lakin ABŞ başda olmaqla Qərb Cənubi Qafqazdakı yeni reallığı qəbul etmək istəmir və Ermənistanı sülh gündəminə sadiq qalmasına yox, təhlükəsizliyə təhdid törədən yol tutmağa şirnikləşdirir. Əlbəttə, Ermənistanın Qərb üçün strateji əhəmiyyəti böyük düşdüyü hazırkı çətin vəziyyətini daha da ağırlaşdıracaq.

Azərbaycan bütün ərazisi üzərində öz suverenliyini bərqərar etdi. Heç bir mübahisəli məsələ qalmadı. Azərbaycanın Ermənistana qarşı heç bir ərazi iddiası yoxdur. Bütün bunları nəzərə alaraq deyə bilərik ki, Nikol Paşinyan heç bir səbəb olmadan Azərbaycana qarşı əsassız bəyanatlar verir, sülh müqaviləsinin imzalanmasına süni əngəllər yaradır. İrəvanın da belə məsuliyyətsiz davranmasında ABŞ və Fransa günahkardır. Bu ölkələr geosiyasi maraqları naminə Ermənistana sülh yox, müharibə yolunu tutmağa sürükləyir. Qərb Ermənistanın himayədarı kimi



deyil, İrəvan bir əsr öncə olduğu kimi, bu gün də digər ölkələrə qarşı, indiki halda Rusiyaya qarşı alət rolunu oynayır. Qərb ermənilərin əli ilə regiona soxulmaq və Rusiyanı buradan çıxarmaq məqsədini güdür. Ermənistanın son iki ildə anti-Rusiya siyasəti və Qərb ilə dialoqunu gücləndirməyə çalışması buna sübutdur.

Təbii ki, Cənubi Qafqaz regionunun uzun əsrlər boyu tarixin müəyyən dövrlərində böyük dövlətlər üçün böyük strateji əhəmiyyətə malik olduğu məlumdur. Böyük İpək Yolu dövründən Cənubi Qafqaz regionunun Çini Avropa ilə birləşdirən ən qısa quru dəhlizi kimi mühüm rol oynaması da heç kimə sirr deyil. Bölgə həm də Qara və Xəzər dənizləri arasında körpüdür və Yaxın Şərq və Mərkəzi Asiyaya giriş qapısı kimi xidmət edir. Buna görə də, Cənubi Qafqazın coğrafi mövqeyinin strateji aspektləri və nəqliyyat kommunikasiyaları sistemində tutduğu yer çox önəmlidir. Regionun strateji əhəmiyyətinə görə ABŞ-ın rəhbərliyi altında kollektiv Qərb Cənubi Qafqazda möhkəmlənməyə çalışır və bunun üçün destruktiv addımlar atmaqdan çəkinmir. 44 günlük müharibədə darmadağın edilmiş və müharibənin acısını hələ də unutmamış Ermənistana siyasi-hərbi dəstək verməsi Qərbin bölgədə Böyük oyun oynamağa başladığını təsdiqləyir.

Əslində, Qərb hər zaman təsir dairəsi yaratmaq istədiyi hər bölgədə məhz belə siyasət yürüdür. Qərb bu siyasəti bir çox regionlarda və ya ölkələrdə – Yaxın Şərqdə, Əfqanıstanda, Ukraynada həyata keçirir. Problem dərinləşəndə və ya münaqişəyə çevriləndə Qərb müvafiq bölgəni və ya ölkəni problemləri ilə tək qoyub uzaqdan seyr etməyə üstünlük verir. Çox az hallarda dəstək verir. İndi də Qərb Cənubi Qafqazda sabitliyi pozmaq üçün Ermənistan vasitəsilə hərəkət edir. Qərb regionda təsirini artırmağa çalışır. Belə ki, o, xüsusilə, regionda böyük enerji ehtiyatlarına malik olan Azərbaycana nəzarət etməyi, Rusiyanı regiondan çıxartmağı, Türkiyə və İranının təsirini məhdudlaşdırmağı hədəfləyir. Ermənistan Qərbin bu təhlükəli oyununda marianet olmağa razıdır. Lakin regional və qlobal vəziyyətə nəzər salsaq, kifayət qədər infrastruktura malik olmayan Qərbin başladığı bu oyunda uğur qazana biləcəyi şübhə doğurur. Bu gün regionda əsas aktorlar Azərbaycan, Rusiya, Türkiyə və İrandır, buna görə də bu ölkələrlə hesablaşmamaq mümkün deyil. Ermənistan isə Qərbin alətinə çevrilməklə çıxış edir, bu da onu Ukrayna, Suriya kimi dövlətlərin vəziyyətinə salır. Nikol Paşinyan hökuməti Ermənistanı sülhün yox, böyük dövlətlərin haqq-hesab çəkdikləri məkana çevrilməsi üçün əlindən gələni edir.

Ermənilər də etiraf edirlər ki, Nikol Paşinyan ölkə üçün təhlükəli siyasət yürüdür. Məsələn, Ermənistan İrəvan Dövlət Universitetinin Avropa Araşdırmaları Mərkəzinin rəhbəri, siyasi elmlər namizədi, dosent Vladimir Martirosyan mətbuata müsahibəsi zamanı deyib ki, Nikol Paşinyanın siyasi davranışı təkcə Ermənistan üçün deyil, həm də region və digər ölkələr üçün təhlükəsizlik problemi yaradır: Onun sözlərinə görə, xüsusilə təhlükəsizlik sahəsində qonşularla münasibətdə gözlənilməzlik Ermənistan rəhbərinin irəli aydın prinsiplərin olmaması ilə bağlıdır: "Bu, xarici siyasət tərəfdaşları üçün onun müxtəlif təhlükəsizlik vəziyyətlərində davranışının proqnozlaşdırmaqda çətinlik yaradır. Xarici siyasət tərəfdaşları Paşinyana qulaq assalar da, onu öz ölkələrinin təhlükəsizliyinə potensial təhlükə kimi görürlər".

Göründüyü kimi, Ermənistanın xarici kuratorlarının təlimatları əsasında fəaliyyət göstərdiyini erməni mütəxəssislər də etiraf edirlər. Rusiya rəsmiləri də hesab edirlər ki, Birləşmiş Ştatlar Cənubi Qafqazdan Rusiyaya qarşı "ikinci cəbhə" açmaq üçün istifadə etmək istəyir. Xarici işlər nazirinin müavini Mixail Qaluzin bildirmişdi ki, "bütün bunlar region xalqlarının həqiqi maraqlarına əsaslı şəkildə ziddir". Rusiya Xarici İşlər Nazirliyinin rəsmisi Mariya Zaxarova da hesab edir ki, Ermənistan xarici siyasətini yenidən istiqamətləndirmək niyyətini nümayiş etdirir. Onun fikrincə, ABŞ və Avropa İttifaqının hərəkətləri "Rusiyanı Cənubi Qafqazdan sıxışdırmaq məqsədinə tabedir". "Onlar regionda mövcud təhlükəsizlik mexanizmlərini məhv etmək istəyirlər, eyni zamanda, Moskvanın iştirakı ilə əldə edilmiş üçtərəfli razılaşmaları, sözün əsl mənasında, həyasızcasına oğurlayıb, konyektur mülahizələrə uyğun dəyişmək istəyirlər". Belə görünür, İrəvan ona ünvanlanmış bu xəbərdarlıqları ciddiyə almır və ona görə də, Avropa İttifaqı missiyasının yerləşdiyi ərazidən Azərbaycan əsgərinə snayperdən atəş açır. Bu isə o deməkdir ki, ABŞ və Fransa Ermənistanla Azərbaycan arasında hərbi əməliyyatların əsas sponsorlarıdır.

**S.ELAY**
**XQ**

# İrəvan Moskvadan qopmağa çalışır

## Xarici jurnalistlər Paşinyana NATO-ya üzvlüklə bağlı suallar veriblər

*(əvvəli 1-ci səhifədə)*

Proseslərin Azərbaycanda diqqətlə izlənilməsi o dövrdə hələ həllini tapmamış Qarabağ münaqişəsi ilə bağlı idi. Rusiya tərəfinin qayğısı isə Paşinyanın Qərbpərəst keçmişi, onun deputat olduğu dövrdə verdiyi açıqlamalarla bağlı ğın daha bir nümunəsi idi.

Koçaryan–Sarkisyan cütlüyünün bu hiylegər gedişləri Paşinyanda yox idi. Paşinyan 2019-cu ilin avqustunda Xankəndi şəhərindəki mərkəzi meydanda çıxış edərək, "Qarabağ Ermənistandır və nöqtə" dedi. Bununla



idi. Ancaq Rusiyanın Ermənistan üçün etdiyi yaxşılıqların misilsiz dərəcədə böyük olması, Hayastanın yaradıcısının Moskva olması, iki ölkəni bir-birinə bağlayan bağların möhkəmliyi Paşinyanın əl-qolunu yanına sallamasına gətirib çıxardı. Bununla belə, Nikolun bu istiqamətdə tamamilə boş oturduğunu da iddia etmək doğru olmazdı. Onun dərhal hərəkətə keçərək əsas rəqibi, Rusiya xüsusi yaxınlığı ilə seçilən sabiq prezident Robert Koçaryanı həbs etdirməsi bunun bariz nümunəsi oldu. Paşinyan həmin dövrdə Moskvadan Koçaryanın azadlığa buraxılmasına dair ünvanlanan çoxsaylı çağırışları qulaqardına vurdu. Koçaryanın pensiyasından başqa bütün əmlakına həbs qoyuldu. 2018-ci ilin avqustunda həbs olunan, sonra azadlığa buraxılan, daha sonra yenidən həbs edilən Qarabağdakı separatizm hərəkatının əsas təşkilatçısı yalnız 2020-ci ilin iyununda canını ədalət mühakiməsindən qurtara bildi.

Ümumilikdə, Paşinyanın hakimiyyətə gəlişi ilə hamar, möhkəm Ermənistan–Rusiya münasibətləri geosiyasi turbulentlik (fırtınalı, burulğanlı, dalğavari) dövrünə qədəm qoydu. Buna baxmayaraq, 2020-ci ilədək zahirən hər şey qaydasında göründü. Qarabağ məsələsinin həllini tapmaması da rəsmi İrəvanın manevr imkanlarını azaldırdı. Ermənistan Qarabağ məsələsində Rusiyanın dəstəyinə çox arxalanırdı. Ancaq Azərbaycanın yürütdüyü sabit, ardıcıl, müstəqil və balanslı xarici siyasət kursu, Rusiya ilə əlaqələrin keyfiyyətcə yeni müstəviyə qədəm qoyması rəsmi Moskvanın Qarabağ məsələsinə baxışlarında da müsbət mənada dəyişikliyə səbəb oldu. Eyni zamanda, Azərbaycanın uzun və yorucu danışıqlar prosesi zamanı edilən təzyiqlərə mərdliklə sinə gərməsi, İrəvanın isə müxtəlif geosiyasi mərkəzlər arasında manevr etməsi də bu məsələdə öz rolunu oynadı. Beləliklə, Rusiya da aydın dərk etdilər ki, Qarabağ Azərbaycandır!

Paşinyanı siyasətdə naşı, avantürist adlandıranlar səhv etmirlər. Ermənistanın əvvəlki rəhbərləri – xüsusilə Koçaryan və Sarkisyan isə siyasi hazırlığa malik, necə deyərlər, siyasətdə bişmiş, bic, hiylegər şəxslər idilər. Paşinyan birinci sinfə gedəndə – 1982-83-cü illərdə Koçaryan və Sarkisyan Azərbaycan SSR-in tamhüquqlu vətəndaşları kimi Bakı Ali Partiya Məktəbində oxuyurdular. Koçaryan və Sarkisyanın hiylegərliyi danışıqlar prosesi zaman öz sözünü deyirdi. Onlar uzun-uzadı danışıqlar aparır, əksər məsələr razılaşdırılır, son məqamda isə elə şərtlər irəli sürürdülər ki, bunun nəticəsində bütün proses pozulurdu. Yaxud da, son anda ən müxtəlif bəhanələrlə aradan çıxırdılar. Bunun ən mühüm örnəyi Rambuye danışıqlarıdır. 2006-ci il fevralın 10-da Parisin 45 kilometrliyindəki Rambuye şəhərindəki tarixi qəsrdə Qarabağ münaqişəsinin yekun həlli üçün danışıqlar aparılırdı. Fevralın 11-də keçiriləni növbəti görüşdə Koçaryan ayaqyoluna getmək adı ilə danışıqları yarımçıq saxlamışdı. Bundan sonra isə heç kimə xəbər vermədən Rambuye qəsrini tərk edərək Parisdən İrəvana uçmuşdu. O, sonradan bunu həmin vaxt müdafiə naziri olan Serj Sarkisyanın qayınanasının ölümü ilə əlaqələndirmişdi. Əslində isə həmin addım son anda aradan çıxma- da faktiki olaraq, danışıqlar prosesi pozuldu. Məhz Paşinyanın yürütdüyü siyasət 2020-ci ilin iyulunda Tovuz döyüşlərinin, həmin ilin payızında isə Vətən müharibəsinin baş verməsində həlledici rol oynadı.

Azərbaycanın gücünü, ölkəmizin potensialının qat-qat üstün olduğunu lazımınca qiymətləndirməyən Paşinyan yenə də xarici aktorlara arxalandı. Ancaq Azərbaycanın ordu quruculuğu, vətənpərvər gənc nəslin yetişdirilməsi, dünyanın yaxın-uzaq ölkələri, beynəlxalq təşkilatlarla apardığı iş öz sözünü dedi. Prezident İlham Əliyevin dediyi kimi, heç bir qüvvə bizi dayandıra bilməzdi. Yalnız Ermənistan rəhbərliyi tərəfindən rəsmi Bakının işğal olunmuş ərazilərdən çıxmaqla bağlı tələbi yerinə yetirildikdən sonra hərbi əməliyyatlar dayandırıldı. Döyüşlərin dayandırılmasında Rusiya rəhbərliyinin aktiv vasitəçilik səyləri mühüm rol oynadı.

Qarabağ münaqişəsinin həllini tapmasından sonra Ermənistanda Rusiyaya qarşı açıq çıxışlar başladı. Bu çıxışlardan məlum oldu ki, haylar Rusiyanın Azərbaycanla döyüşməsini gözləyirmişlər... Müharibədən ötən dövrdə – 2020-2023-cü illərdə Ermənistanın Rusiya ilə münasibətləri pisləşməyə doğru getdi. İrəvan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını öz vəzifə öhdəliyini yerinə yetirməməkdə ittiham etdi. Lokal xarakterli antiterror tədbirlərindən sonra isə Ermənistanın Rusiya ilə münasibətləri daha da korlandı. İrəvan Moskvaya demarş edərək MDB-nin, KTMT-nin yüksək səviyyəli tədbirlərinə qatılmaqdan imtina etdi. Paşinyan yalnız 2023-cü ilin sonunda Avrasiya İqtisadi İttifaqının (AİI) dövlət və hökumət başçılarının Sankt-Peterburqda keçirilən görüşünə qatıldı. Həmin görüşdə isə bildirdi ki, AİI iqtisadi təşkilatdır və onun geosiyasi gündəmi olmamalıdır.

Bu gün isə Paşinyan artıq "Qarabağ yükü"nün ağırlığı və məsuliyyəti üzərindən götürüldüyü üçün Qərb strukturlarına daha geniş inteqrasiya edir. Onun fevralın 7-də parlamentdə çıxış edərkən dediyi sözlər bundan xəbər verir. Deyib ki, bizim mühitimiz və münasibətlərimiz dəyişib: "Bu gün qlobal dünya 5 il əvvəlki kimi deyil. Artıq heç bir subyektlə münasibətlərimiz əvvəldə olduğu kimi deyil, bu münasibətlərin xarakteri dəyişib, regionumuz da dəyişib".

Paşinyanın sözlərinə görə, Gürcüstanın Aİ-yə üzvlük üçün namizəd statusu alması regionumuza obyektiv təsir göstərir: "Hazırda bizim iki qonşu ölkəmiz (Paşinyan Ukraynanı nəzərdə tutur–S.H.) Aİ-yə üzv olmaq üçün namizəd statusuna malikdir. Əvvəllər biz deyirdik ki, Aİ haradadır, bizim regionumuz harada. İndi isə Aİ, əslində, mahiyyətcə bizim regionumuzdur və biz bu şəraiti nəzərə almalıyıq".

Görün iş hansı yerə gəlib çıxıb ki, artıq xarici jurnalistlər Paşinyana ölkəsinin NATO-ya üzv olub-olmayacağı barədə suallar verirlər. İki gün öncə Böyük Britaniyanın "The Telegraph" qəzetinin müxbiri Paşinyana bununla bağlı sual ünvanlayıb. Baş nazir deyib: "Biz NATO-ya üzvlük məsələsini müzakirə etməmişik və müzakirə etmirik. Bizim NATO ilə tərəfdaşlıq münasibətlərimiz var və burada yeni heç nə yoxdur. Əvvəllər Fərdi Tərəfdaşlıq üzrə Fəaliyyət Planı mövcud idi, indi həmin proqram üzvlüklə bağlı olmayan xüsusi tərəfdaşlıq formatına yenidən formatlaşdırılır. Əvvəla, biz Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvüyük. Ancaq Ermənistanda blokun strategiyasının uzunmüddətli perspektivdə İrəvanın maraqlarına nə dərəcədə uyğun olması mövzusunda müzakirələr gedir".

Paşinyan bir daha bildirib ki, onlar, ümumən Rusiya ilə, xüsusən də təhlükəsizlik sektorunda əməkdaşlığı inkar və rədd etdiklərini deməyiblər: "Biz təhlükəsizlik sektorunda əlaqələrimizi şaxələndirmək fikrində olduğumuzu demişik. Hesab edirik ki, bu da doğru yanaşmadır".

Göründüyü kimi, müxtəlif geosiyasi mərkəzlər arasında manevr edən, bir budaqda oturub min budağı silkələyən Hayastan hökuməti indi yeni macəra axtarışındadır. Onun bu axtarışları isə yeqin ki, erməni xalqının, el dilində desək, başında çatlayacaq. Necə deyərlər, su çanağı suda sınar.

**Səxavət HƏMİD**
**XQ**

### Ekspert rəyi



**Zaur MƏMMƏDOV,**
**politoloq**

**Ermənistan baş nazirinin geosiyasi istiqamətdə atdığı addımlar və manevrləri hər kəsə məlumdur. Paşinyanın dediyinə görə, bu addımlar onunla bağlıdır ki, İrəvan hazırda bir sıra hərbi-siyasi çətinliklərlə üz-üzədir və öz təhlükəsizliyini qorumalıdır. Əslində, Paşinyan, bütövlükdə, Ermənistanın daxili və xarici siyasət fəlsəfəsinə yenidən baxılmasının tərəfdarıdır. Onun konstitusiya ilə bağlı irəli sürdüyü fikirlər, hakim partiya rəsmilərinin "Ermənistan indiyədək suveren dövlət olmayıb, bundan sonra olmalıdır" sözləri öz-özlüyündə ondan xəbər verir ki, İrəvan yeni-yeni təhlükəsizlik istiqamətləri üzərində işləməkdədir.**

**Amma biz bunu təkcə Ermənistanın Rusiyaya qarşı olması kimi başa düşməməliyik. İrəvan İkinci Qarabağ müharibəsi zamanı gördü ki, kimsə bel bağlamaq onun qalib gələcəyi, təhlükələrdən sığortalanacağı demək deyil. Buna görə də Nikol həm Rusiyadan, həm İrandan, həm Fransadan, həm də Qərbin digər ölkələrindən gələcəkdə təhlükəsizliyini təmin etmək üçün istifadə edəcək. Bir sözlə, biz görürük ki, İrəvan çoxvektorlu xarici siyasətin əsasını qoymaq istəyir. Görünür, düşünürlər ki, Azərbaycanın yürütdüyü kimi müxtəlif vektorlu və balanslı siyasət onların dadına çatacaq. Ancaq xarici siyasətdə liderin potensialı, resursların mövcudluğu, digər meyarlar da vacibdir. Ermənistanda isə həmin meyarlar yoxdur. Buna görə də Paşinyan böyük çağırışlarla qarşılaşmış olacaq.**

**Ermənistan hər kəslə səmimi olsa, daha yaxşı olar. Onun baş naziri də başa düşməlidir ki, ölkəsinin təhlükəsizlik konsepsiyası ilə bağlı etdiyi dəyişikliklərin faydası olmayacaq. İrəvanın yalnız bir çıxış yolu var. Bu da ondan ibarətdir ki, Azərbaycanla yeni münasibətlərin əsası qoyulmalıdır. Azərbaycana ərazi iddiasını özündə əks etdirən Konstitusiya və digər normativ-hüquqi aktlar dəyişdirilməlidir. İrəvan öz gələcəyi və qonşuları ilə bağlı illüziyalardan uzaq olmalıdır. Bunu edərsə, Ermənistan öz təhlükəsizliyini təmin etmiş olar. Əks-təqdirdə, əlbəttə, heç bir təhlükəsizliyin təmin olunmasından söhbət getməməlidir və getməyəcək.**



# Şərti sərhəddə sükut niyə pozuldu?

(əvvəli 1-ci səhifədə)

Hərbi təxribata dərhal cavab verilməsi Prezident İlham Əliyevin yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində səsləndirdiyi fikirləri bir daha təsdiqlədi. Xatırladaq ki, dövlət başçımız müsahibəsində demişdi: "Ona görə biz heç vaxt sakitləşməməliyik və xatırlayırsınızsa, mən İkinci Qarabağ müharibəsindən sonra demişdim ki, biz daha güclü ordu yaratmalıyıq. Bunu da etdik. Biz son üç il ərzində böyük yol keçmişik. İndi bunların hamısını demək yəqin ki, düzgün olmaz, amma mətbuatda olan məlumat kifayətdir. Yeni silahlı birləşmələr antiterror tədbirlərində çox önəmli rol oynamışdılar, yeni texnika, yeni sursatlar, ən müasir avadanlıq. Mən artıq bunu demişəm, bu il müdafiə sənayesi kompleksinin nəzdində olan zavodlarımıza həm dövlət, həm özəl sektor tərəfindən ən azı bir milyard manat investisiya qoyulacaq. Yəni, biz özümüzü daha böyük həcmdə lazım olan vasitələrlə təmin edəcəyik. Yəni, biz heç vaxt sakitləşə bilmərik. Bizim ordu quruculuğu prosesi davam edəcək və Ermənistan da bilməlidir, o, nə qədər silah alsa da, onlara nə qədər ürək-dirək versələr də, əgər bizə qarşı hər hansı bir təhlükə mənbəyi olsa, biz dərhal o təhlükə mənbəyini məhv edəcəyik. Mən bunu gizlətmirəm ki, sabah heç kim deməsin nəsə gözlənilməz oldu. Qoy eşidən eşitsin ki, biz görsək, bizə qarşı real təhlükə, o Fransanın sınıq-salxaq "Bastion" maşınları, o konserv bankaları yox, real təhlükə yaransa, biz preventiv addımlarla o təhlükəni istənilən nöqtədə məhv edəcəyik".

Girişdə qeyd etdiyimiz kimi, şərti sərhəddə bir neçə aydır nisbi sakitlik mövcud idi. Hər iki tərəfdən silahlar susmuşdu. Daha doğrusu, Ermənistandan təxribatlar olmadığı üçün Azərbaycan Ordusunun bölmələri kazarmalarda idi. Bu məqamı Prezident İlham Əliyev də fevralın 1-də Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonqu qəbul edərkən qeyd etmişdi. Dövlətimizin başçısı bildirmişdi ki, Azərbaycanla Ermənistan arasında artıq de-fakto sülh mövcuddur və iki ölkənin sərhədində bir neçə aydır sülh şəraiti hökm sürür. Amma bu prosesin məntiqi sonluğa çatdırılması üçün sülh müqaviləsi imzalanmalı və Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına son qoyulmalıdır.

Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev də bir müddət öncə Almaniyanın "Berliner Zeitung" qəzetinə müsahibəsində bu barədə danışmışdı. Qeyd etmişdi ki, sentyabrın 19-20-də keçirilən antiterror tədbirlərindən və Azərbaycanın suverenliyinin tam bərpasından sonra iki ölkə arasında gərginliyin əsas mənbəyi olan Qarabağ məsələsi gündəmdən tamamilə çıxarılıb: "Beləliklə, hazırda biz sülh sazişinin bağlanmasına ciddi maneə görmürük. İndi biz iki ölkə arasında son 30 ilin ən sakit günlərini müşahidə edirik. Hər iki ordu öz kazarmalarına qayıtdığı gündən hətta atışma da baş vermir..."

Xarici İşlər Nazirliyinin dünən yaydığı məlumatda deyilir ki, hərbi qulluqçumuzun yaralanması ilə nəticələnən hərbi təxribatdan sonra Azərbaycan tərəfi erməni hərbi postundan irəli gələn təhlükəni aradan qaldırıb: "Bu tədbir sırf cavab tədbiri idi. Azərbaycan sülh prosesinə sadiqdir və Ermənistan tərəfini bu istiqamətdə səyləri təhlükə altına qoya biləcək hərbi eskalasiyalardan çəkinməyə çağırır".

Baş vermiş hadisəyə münasibət bildirən Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov Azərbaycan və Ermənistanı təmkinli olmağa çağırıb. "Hər iki tərəfi təmkinli olmağa çağırırıq. Biz diqqətlə izləyəcəyik", – deyən Kreml sözçüsü əlavə edib ki, belə hadisələr danışıqlar prosesinin irəliləməsinə kömək etmir və Bakı ilə İrəvan arasında sülh müqaviləsinin imzalanmasına yaxınlaşdırmır. Rusiya Prezidentinin mətbuat katibi vurğulayıb ki, sülh müqaviləsinin imzalanması üçün danışıqlar prosesinin davam etdiriləcəyinə ümidvardır.

**Rusiyalı analitik, Siyasi Tədqiqatlar İnstitutunun direktoru Sergey Markov** Azərbaycan–Ermənistan şərti



sərhədində baş verən eskalasiyanın Fransa tərəfindən təşkil olunduğunu bildirib. Politoloq Bakı və İrəvanın sülh müqaviləsini imzalamağa hazırlaşdığı vaxtda baş verənlərin suallar doğurduğunu vurğulayıb: "Niyə? Axı hər iki tərəf sülh müqaviləsi imzalamaq istəyir. Mümkündür ki, suala cavab hadisə yerindədir. Çünki Ermənistan ordusu Avropa İttifaqı missiyasının yerləşdiyi ərazidən zərbələr endirib. Mümkündür ki, bunun təşəbbüskarı Fransa kəşfiyyatıdır. Çünki Makron Rusiyanı bu mövqedən itələyib çıxarıb, Ermənistanın əsas hərbi müttəfiqi olmaq istəyir. Ona görə də, Fransa, Aİ və NATO Ermənistanla Azərbaycan arasında hərbi əməliyyatların əsas benefisiarlarıdır".

**Ehtiyatda olan polkovnik Cəlil Xəlilov** Ermənistan ordusunun törətdiyi təxribatı şərh edərkən bildirib ki, son hadisələr İrəvanın sülhdən uzaq olduğunu, bölgədə vəziyyəti məqsədli şəkildə gərginləşdirməyə çalışdığını göstərir: "Qarşı tərəf şərti sərhəddə vaxtaşırı bu cür insidentlər törətməklə bölgədə vəziyyəti daim gərgin saxlamağa çalışır. Məqsəd regionda davamlı sülhün qarşısını almaqdır".



Onun sözlərinə görə, sərhəd təxribatları həm regional sülhü sual altında qoyur, həm də beynəlxalq hüquqa hörmətsizlikdir: "Əlbəttə, bu, Ermənistanın məqsədyönlü təxribatı idi. Bunu sübut edən konkret faktlar var. Yayılan videogörüntülərdən aydın olur ki, bu təxribatlar əvvəlcədən hazırlanıb. Kadrların təhlili göstərir ki, erməni snayperi sərhədçimizə atəş açandan dərhal sonra öz mövqeyini rahat şəkildə tərk edir. Yəni, erməni snayperi məqsədli şəkildə ön xətdə yerləşdirilib və Azərbaycana qarşı təxribat törədib. Hadisənin bir neçə erməni hərbçisinin iştirakı ilə törədilməsi onu deməyə əsas verir ki, İrəvanın bu təxribatı hansısa əsgərin özfəaliyyəti kimi təqdim etməyə çalışması absurddur və həqiqətdən uzaqdır".

**Siyasi şərhçi Asif Nərimanlı bildirib:** "Baş verənlərə görə Ermənistanın



hərbi-siyasi rəhbərliyi ilə yanaşı, Avropa İttifaqının missiyası da məsuliyyət daşıyır. Missiya normalda insidentə reaksiya verməli, baş vermiş təxribatı qınamalı idi. Ancaq onlar nədənsə, bunu etmədilər. Görünən odur ki, avropalı emissarlar hadisəni araşdırmağa belə cəhd göstərmirlər. Halbuki, baş vermiş hadisəyə münasibət bildirmək onların vəzifəsidir. ABŞ, Fransa vəziyyəti gərginləşdirməklə Ermənistanda və regionda mövcudluqlarını qoruyub saxlamaq istəyirlər. Amma Ermənistan, nəhayət, başa düşməlidir ki, bundan sonra heç kim onun arxasında dayana bilməyəcək".

**Səxavət HƏMİD**
**XQ**

**Siyasi replika**

# Ermənistanın bala dovşan aqibəti

## *"Dağlıq Qarabağ problemi"nin yoxluğu barədə bir neçə söz*

**Belə bir lətifə var: Ayı bala dovşanı vurur. Bala dovşan anasının yanına gəlib birincidən şikayənlənir. Ana dovşan balasını götürüb ayının yanına gəlir. Hiddətlə ondan balasını bir daha vurmasını istəyir. Ayı vurur, bala dovşan şilküt olur. Özünə gələr-gəlməz ana dovşan yenə ayıdan əməlini təkrarlamasını istəyir. Ayı yenə də tənbəllik eləməyib bala dovşanı şillələyib. Üçüncü dəfə ana dovşan ayıdan balasını vurmağı tələb edəndə ayının yazığı gəlir. Boyun qaçırır. Yolda bala dovşan ağlaya-ağlaya anasından gileylənir: "Sən niyə məni müdafiə eləmədn? Ana dovşanın cavabı belə olur: Hünəri var idisə, səni üçüncü dəfə də vuraydı, görərdi neylərəm..."**

Ermənistan hakimiyyətinin hazırkı durumu ana dovşanın günündədir. Artıq sərhəd təxribatı nəticəsində öldürülən erməni hərbçilərinin sayının dördə çatdığı bildirilir. Ancaq ölkə iqtidarı nəticə çıxarmır. Əslində, mövzumuz da elə rəsmi İrəvanın olanlardan nəticə çıxarmadığının növbəti təzahür formasıdır. Əlbəttə ki, bir qədər fərqli...

Ermənistan hakimiyyətinin Qarabağ avantürasının məngənəsində boğulduğu faktdır. Bu avantüra üçün beynəlxalq hüquq, haqq-ədalət anlayışları yoxdur, yalnız kor iddia var. Elə bir iddia ki, nəinki Azərbaycan torpaqlarına, ümumən qonşuluqdakı xalqların ərazilərinə göz dikmək kimi sərsəmliyə əsaslanır, tipik erməni xəstəliyinin təzahürü kimi meydana çıxır.

Baş nazir Nikol Paşinyan iqtidara yiyələnəndə düşünmək olardı ki, Ermənistan hakimiyyəti ölkəni cənginə almış xəstəlikdən qurtulmaq üçün iradə nümayiş etdirəcək. Lakin gözləntilər özünü doğrultmadı. Paşinyan və komandası, sanki, özlərindən əvvəlkilərdən daha pis, bəlkə də daha yaxşı erməni olmaq yarışına girdilər və beləliklə, ortaya Nikolun "Qarabağ Ermənistandır və nöqtə" bəyanatı çıxdı.

Sözügedən bəyanatın nələrə başa gəldiyindən söz açıb Ermənistanın 44 günlük müharibədəki rüsvayçı məğlubiyyətinin ayrı-ayrı fraqmentlərini yada salmaq niyyətindən uzağıq. Çalışacağıq ki, Qarabağ avantürasının bilavasitə Ermənistan hakimiyyəti üçün də aktuallığını kiçik bir epizodla göstərək. Bəri başdan deyək ki, mövcud xüsusda üzərində dayanacağımız başlıca fiqur, daha doğrusu, fiqur qırığı Ermənistanın xarici işlər nazirliyinin mətbuat katibi Ani Badalyandır.

Məsələ bundadır ki, iki gün əvvəl erməni politoloq Sergey Melkonyan Ermənistan XİN-nin saytına baxanda, oradakı "Dağlıq Qarabağ problemi" bölümünün yoxa çıxdığını görüb. Politoloq dərhal vay-şivən qaldırıb və durumu özünün sosial şəbəkə profilində ictimailəşdirib. Məsələ müəyyən ajiotaj doğurub. Haşiyə çıxaq ki, Ermənistan XİN-in rəsmi internet səhifəsindəki "Dağlıq Qarabağ problemi" bölümündəki materiallar erməni, rus, ingilis və fransız dillərində idi və başdan-ayağa cəfəngiyyata əsaslanırdı.

Əlqərəz, Melkonyanın hay-küyündən sonra müxtəlif erməni rəsmiləri məsələni texniki problem kimi əsaslandırmağa çalışıblar. Müzakirələrə son nöqtəni isə adını çəkdiyimiz A.Badalyan qoyub. Xanım mətbuat katibi erməni mediasının sualına bircə cümləlik fikirlə münasibət bildirib. O, bildirib ki, təmsil olunduğu qurumun rəsmi internet saytındakı "Dağlıq Qarabağ problemi" bölümü çıxarılmayıb, zamanı gələndə yenidən saytda əksini tapacaq.

Yəqin, Badalyanın "zamanı gələndə" məntiqinin nədən ibarət olduğunu heç kəs başa düşmədi. Görəsən, mətbuat katibi belə münasibət bildirməklə nə demək istəyib? Axı məlumdur ki, Qarabağ münaqişəsi tarixin arxivinə gömülüb və bir daha oradan çıxarılmayacaq. Başlıca məqam isə əvvəldə haqqında söz açdığımız avantürizmdə, tipik erməni xəstəliyindədir. Ona görə Badalyanın yanaşmasının sırf psixoloji mahiyyət daşıdığını deməliyik.

Xanım mətbuat katibinin və təmsil olunduğu qurumun şansı var idi ki, məsələyə düzgün reaksiya versin, ancaq iradəsi çatmadı. Yəni, deyilmədi ki, Qarabağ münaqişəsi adlı bir məfhum artıq sıradan çıxdığından, Qarabağ beynəlxalq hüquq nöqteyi-nəzərindən Azərbaycana məxsus olduğundan, onunla bağlı bölümün Ermənistan XİN-in rəsmi saytında yer alması düzgün deyil. Əvəzində Badalyan, belə demək mümkünsə, ana dovşan olmağı üstün tutdu və sanki ölkəsini yenidən döyülmək üçün Azərbaycanın qabağına qoydu. Hələ zaman uydurmağı da yaddan çıxarmadı.

Sonda bir daha erməni xəstəliyindən söz açaq. Vurğuladığımız kimi, haqqında söz açdığımız məsələ Ermənistanda ajiotaj doğurmuşdu. Bildirilmişdi ki, "Dağlıq Qarabağ problemi" bölümü Ermənistan XİN-in rəsmi saytından çıxarılırsa, deməli, İrəvan Bakının həmin problemin artıq olmadığına dair fikri ilə razılaşır. Görəsən, razılaşmayıb nə etməlidir? Problem bundadır ki, Ermənistandakı başıpozuqlar məsələ barədə düşünmür, reallıqları görmürlər. Yəni, əslində, Badalyan tək deyil. Ölkənin avantürizmə qapılmış, tipik erməni xəstəliyindən əziyyət çəkən kəsimi əməlləri ilə ölkəni, obrazlı desək, bala dovşanın gününə salmaq istəyirlər. Elə sanırlar ki, öldürücü zərbə ilə üzləşməyəcəklər. Ancaq səhvə yol verirlər. Problem həm də onadır ki, hazırda ana dovşan olan Ermənistanın sahibləri az deyil. Onu döydürmək istəyənlər sıraya düzülüblər.

***Ə.RÜSTƏMOV***
***XQ***

**İran dövlətinin Ermənistandakı səfiri Mehdi Sübhani rəsmi Tehranın mövqeyinə tamamilə tərs mütənasib olan fikirlər səsləndirməkdə davam edir.**

"Ermənistandan Qara dənizə yol Azərbaycan ərazisindən daha qısadır. Əgər biz zəruri infrastrukturu yarada bilsək, eləcə də gömrük tariflərini aşağı salsaq, bu halda Ermənistan bölgənin nəqliyyat qovşağına çevriləcək. Təbiidir ki, bu, yükdaşımaları ilə bağlı iqtisadi məsələdir. Yük maşınının sürücüsü görsə ki, bu yolla getmək daha sərfəlidir, o, bu marşrutu seçəcək. Yəni, bu, suverenliklə bağlı olmayan, sırf iqtisadi məsələdir".

Altniyyətli bu sərsəm açıqlamanı səfir Mehdi Sübhani "news.am" saytına müsahibəsində verib. Onun Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi layihəsi ilə bağlı dedikləri heyrət qarışıq ironiya doğurur: "İran və Avrasiya İqtisadi İttifaqı ölkələri arasında sərbəst ticarət barədə razılaşma böyük təsir gücünə malikdir. Çünki İrandan ötrü Ermənistan 200 milyon əhalisi olan Avrasiya iqtisadi bazarına çıxış üçün platforma deməkdir. Əlbəttə, biz Ermənistanı da 3 milyonluq əhalisi ilə faydalı bazar kimi görürük".

Səfir müsahibəsində son bir ildə iki ölkənin yüksək ranqlı məmurlarının qarşılıqlı səfərlərinin artdığını və bunun münasibətlərə xüsusi dinamika verdiyini ayrıca qeyd edir. Yaxın vaxtlarda hökumətlərarası komissiyanın növbəti iclasının keçiriləcəyini ərz edən Sübhani həmin görüşlərin ikitərəfli münasibətlərin inkişafına yeni stimul verəcəyini, əməkdaşlığın gələcək istiqamətləri üçün uzun bir syahının hazırlandığını ayrıca vurğulayır.

Daha sonra "news.am" müxbirinin İran, Rusiya və Hindistanın Ermənistana Şimal–Cənub əsas nəqliyyat marşrutunun keçəcəyi ölkə qismində nəzərdən keçirdikləri barədə sualını səfir belə cavablandırıb: "Biz adekvat infrasktukturu yaratmaqdan ötrü İran iqtisadiyyatına kifayət qədər böyük həcmdə investisiyalar qoyuruq. Ermənistan büdcəsindən və digər imkanlarından istifadə edərək öz işini Asiya Bankı vasitəsilə həyata keçirir. Ola bilsin ki, bu layihəyə maraq göstərən xarici şirkətlər də tapılacaq. Düşünürəm ki, onlar bu addımı atmağa hazır olarlar. Burada ən önəmli məsələ yolun inşa edilməsidir".

* * *

Cənab səfirin iki ölkə arasında ticari-iqtisadi əlaqələr barədə dedikləri ilə işimiz yoxdur. Əlbəttə ki, bu xarakterli əməkdaşlıq, xüsusilə, qonşu dövlətlərin maraqlarının kəsişdiyi layihələrlə bağlı ortaq layihələrin icrası həmin ölkələrin daxili işləridir. Sadəcə, bu iqtisadi məsələlərin altından boylanan və bölgədəki üçüncü ölkənin ərazi bütövlüyünə, suverenliyinə yönəlik avantürist ismarıclar, ehkamlar qətiyyən qəbul edilə bilməz. Dövlətlərarası münasibətlərə xələl gətirə biləcək belə təxribatçı siyasi açıqlamalar diplomatik ranqa malik səfirin dilindən səslənəndə isə tamamilə fərqli kontekstdə qəbul olunur, xüsusi məna kəsb edir. Çünki səfir öz ölkəsinin xaricdə təmsilçisi kimi, həm də onun siyasi kursunun, rəsmi mövqeyinin ifadəçisidir. Mehdi Sübhaninin məhz bu incə məqamı "unutduğunu" söyləyə bilərik. Həm də bu, üzdəniraq diplomatın eyni xarakterli ilk qələti deyil.

**Səfirin erməni saytına müsahibəsinin "kulminasiya nöqtəsi" isə sonuncu sual və onun həmin suala verdiyi cavabdır:**

"Cənab səfir, Tehran və Bakı Azərbaycanı Naxçıvanla birləşdirəcək ərazi üzərində yolun çəkilməsi ilə bağlı razılığa gəlmələrinə baxmayaraq, Azərbaycan yenə də "Zəngəzur dəhlizi" tələbi ilə təhdidlərini davam etdirir.Bu məsələdə Ermənistanın ərazi bütövlüyünü müdafiə edən İranın mövqeyi bizə məlumdur. Bəs, Tehran Azərbaycan tərəfdən Sünikə (Zəngəzura) təhlükəni görürmü?

– Bizim təqdim etdiyimiz imkanlar bütün ölkələrin biznesini və ticarətini inkişaf etdirmək üçün nəzərdə tutulub. Əlbəttə, bu əlaqələr, ilk növbədə, ölkələrin ərazi bütövlüyünə, suverenliyinə və tanınmış sərhədlərinə hörmətə əsaslanmalıdır. Bu məsələdə beynəlxalq normaların pozulması yolverilməzdir".

* * *

Vaxtilə İranın Azərbaycandakı səfirliyinin 2-ci katibi vəzifəsində işləmiş Mehdi Sübhani məhz sonuncu suala cavabında dişinin altında sıxıb saxladığını, başqa sözlə, sözünün "mustafası"nı açıq mətnlə ifadə edir. O, Bakıya ünvanladığı şübhə doğurmayan ismarıcında Hayastanın vəkili qismində çıxış edir. Sübhani özünün diplomatik missiyasına xəyanət edərək, üçüncü dövlətin ərazisi barədə beynəlxalq hüquqa zidd, reallıqdan uzaq bəyanatlar verir. Bu, həmin Sübhanidir ki, üç ay bundan əvvəl erməni jurnalistin "Azərbaycanın Qarabağ bölgəsinin sakinlərinin hüquqlarının müdafiəsi ilə bağlı rəsmi Tehranın mövqeyi necədir?" – sualına – "Qarabağ əhalisinin, hər bir sakinin hüquqları təmin edilməlidir. Onların öz müqəddəratını təyinetmə hüququna hörmətlə yanaşılmalıdır. Bu, bir reallıqdır ki, heç kim, o cümlədən, Azərbaycan dövləti bu hüququ tapdalaya bilməz" – şəklində cavab vermişdi.

O zaman özünəməxsus şəkildə Qarabağ iqtisadi rayonumuzda yaşamış erməni əhalini "Qarabağ xalqı" adlandıran, onların üzləşdikləri təhlükə ucbatından bölgədən getməyə məcbur olduqlarını deyən, Zəngəzur dəhlizinin mahiyyətini təhrif edən Mehdi Sübhaninin təxribatçı açıqlamalarına Azərbaycan XİN layiqli cavab vermişdi. Fəqət rəsmi Tehran bu fakta hələ də münasibət bildirməyib.

İndiki məqamda Tehranın səfirin dili ilə Ermənistanla bağlı bu qədər açıq siyasi ritorika ilə danışması müəyyən ehtimallara yol açır. Üstəlik, bir neçə gün əvvəl İİR Ali Dini Rəhbərinin köməkçisi Kamal Xarazinin İrəvana səfəri, Ermənistanın siyasi rəhbərliyi ilə görüşü də suallar doğurur. Daha doğrusu, sualların mənzərəsini açıqlayır. Cizgiləri aydın görünən siyasi tablo onu deyir ki, Tehran güclü, döyüşməyə hazır İrəvan görməyi arzulayır. Bir qədər əvvəl həmin Sübhani Hindistan silahlarının İran ərazisindən Ermənistana daşınması məsələsinə şərh verərkən etiraf edib ki, Tehran güclü Ermənistan görmək istəyir. Növbəti qələtində isə səfir İranın Zəngəzurda söz sahibi olmağa çalışması ilə bağlı yayılan xəbərləri feyk adlandırmaqla tələskənliyə yol verib. O, bununla hətta rəsmi Tehranı qabaqlayıb.

İİR-in İrəvandakı elçisi Mehdi Sübhaninin öz statusu ilə bir araya sığmayan siyasi iddiası, təkcə diplomatik etiketi deyil, siyasi əndazəni aşması rəsmi Tehranın Azərbaycana qarşı qeyri-səmimi davranışının növbəti nümunəsi kimi qəbul edilməlidir. Bunun başqa izahı yoxdur!

***İ.HƏSƏNQALA***
***XQ***

# Bir səfirin xülyaları

## Mehdi Sübhani yuxusunda Ermənistanı bölgənin nəqliyyat qovşağı kimi görür



**Ekspert rəyi**



**Fərid ŞƏFİYEV,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin rəhbəri, politoloq**

**İrəvanın Tehranla əlaqələrini inkişaf etdirməsi normaldır. Nikol Paşinyanın Böyük Britaniyanın "Telegraf" qəzetinə müsahibəsində Ermənistanın İranla hərbi, təhlükəsizlik sahələrində əməkdaşlığı davam etdirəcəyini deyib. Bakının Naxçıvana çəkiləcək yolla bağlı Tehranla münasibətlərində müəyyən müsbət tendensiya var. Artıq həmin yolun inşası gedir. Amma təəssüflər olsun ki, bəzi fundamental məsələlərə yanaşmada İranla problemlərimiz hələ qalır. Məndə olan məlumata görə, Tehrandakı səfirliyimizə məlum hücumla bağlı məsələ hələ tam həllini tapmayıb. Tehranın İrəvandan Azərbaycana qarşı bir alət olaraq istifadə etmək siyasətindən əl çəkməyib.**

**Doğrudur, Bakı İran və Ermənistan arasında əməkdaşlığa etiraz etmir. Bu, onların suveren hüququdur və buna hörmətlə yanaşılmalıdır. Digər tərəfdən onu da qeyd etməliyik ki, məsələn, Şimal–Cənub nəqliyyat dəhlizi ən ucuz layihədir və onun cəmi bir seqmenti qalır. Söhbət Astara–Rəşt marşrutundan gedir. Bu layihə ilə də bağlı problemlər həll edilməyib. Bütün bunlar onu göstərir ki, İran bu transmilli nəqliyyat habının Azərbaycanın iştirakı ilə yaradılmasına maneçilik törətməyə çalışır. Əgər praqmatik yanaşılsa, bu dəhlizin Ermənistandan keçməsinə daha böyük sərmayə və daha çox vaxt tələb olunur. Halbuki, Azərbaycan ərazisi ilə bu marşturun bütün infrastrukturu artıq hazır vəziyyətə gətirilib. Yəni, bu, daha ucuz variant sayılır. Təbii ki, burada seçim İranındır və hər şeydən göründüyü kimi, Tehran seçimi Ermənistanın xeyrinə edəcək.**

Prezident seçkilərinin əks-sədası

# Mədəniyyətin böyük hamisi



**Nazim Kazımov, Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecinin direktoru, Əməkdar insəsənət xadimi, professor:**

– Olduqca qürurverici və fərəhli haldır ki, fevralın 7-də keçirilmiş növbədənkənar prezident seçkilərində xalqımız yenidən hər bir vətəndaşın Prezidenti olan cənab İlham Əliyevə səs verdi. Bu, xalq iradəsinin, xalq yekdilliyinin əsl ifadəsi idi.

Ulu öndər Heydər Əliyev müstəqilliyimizin ilk dövründə Azərbaycanın gələcək uğurlu inkişafının ideoloji prinsiplərini dəqiq müəyyənləşdirib və hər zaman milli mədəniyyət və incəsənətin inkişafını prioritet istiqamətlərdən sayıb. Son dərəcə fərəhli haldır ki, Ümummilli liderin ən layiqli davamçısı, "Mən ona özüm qədər inanıram" – dediyi İlham Əliyev də həmin kursu uğurla davam etdirir.

Yeni əsrin əvvəllərindən dövlətimizə başçılıq edən İlham Heydər oğlu Azərbaycanın tərəqqisi, xalqın rifahı naminə nələr etmədi?! Mötəbər beynəlxalq tribunalardan haqq səsimizi ucaltdı. Ordu quruculuğunu ən ideal səviyyəyə qaldırdı. Nəhayət, 44 günlük möhtəşəm "Zəfər Yürüşü" sayəsində Qarabağı və Şərqi Zəngəzuru düşmən tapdağından azad etdi. Azərbaycanı qalib dövlət, millətimizi qalib millət edən böyük sərkərdə kimi şöhrət qazandı. Bu gün məhz onun uzaqgörən siyasətinin, prinsipial məqamlarda qətiyyətli mövqeyinin, cəsarətli addımlarının hesabına bir millət kimi qəddimizi düzəltmişik və daha uca zirvələrə, daha böyük qələbələrə doğru gedirik. Qazanılan uğurlar Prezidentin "Sözümüz imzamızdır" fikrinin təsdiqi olub.

Ötən il dekabrin 30-da təsdiq edilmiş Bakının Baş Planında mədəni tərəqqiyə də geniş yer verilib, paytaxtın memarlıq simasına qayğıkeş münasibət sərgilənib, mədəniyyət ocaqlarının artırılması nəzərdə tutulub və s. Artıq azad edilmiş tac şəhərimiz Şuşaya ilk səfərində cənab İlham Əliyev Bülbülün dağıdılmış ev-muzeyinin, Şuşa Realnı Məktəbinin və bütün digər mədəni obyektlərin ən yüksək səviyyədə bərpa olunacağını söyləyərək deyib ki, Cıdır düzündə yenidən böyük tədbirlər keçiriləcək, toy-bayram olacaq, muğam səsi eşidiləcək. Doğrudan da, tezliklə orada ənənəvi "Xarıbülbül" musiqi festivalı, Vaqif Poeziya Günləri bərpa olunub. Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı təşkil edilib. Sənət beşiyi olan bu şəhər ötən il Azərbaycanın, bu il isə "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilmişdi. Bu il isə Şuşa İslam Dünyasının paytaxtı statusunda dünyaya mədəniyyət yayır. Əlbəttə, bütün bunlar sevimli Prezidentimizin uzaqgörən səylərinin fərəhli nəticələridir.

Azərbaycanın bugünkü uğurlarında məhz milli-mənəvi dəyərlərimizin rolu danılmazdır. Ölkəmizin dünyada mədəniyyətlərarası və sivilizasiyalararası dialoq və tolerantlıq məkanı kimi tanınması, sözsüz ki, Prezident İlham Əliyevin məxsusi xidmətidir. Prezident İlham Əliyev mədəniyyət, ədəbiyyat və incəsənət xadimlərimizi Azərbaycan cəmiyyətinin aparıcı təbəqəsi, elitası hesab edir və sənət adamlarından qayğısını əsirgəmir. Təbii ki, onlar da dövlət başçımızın siyasi kursunu dəstəkləyir, Azərbaycanın parlaq gələcəyi, mədəniyyətimizin inkişafı üçün əllərindən gələni edirlər.

Bu gün artıq Azərbaycan əsl festivallar diyarına çevrilib. Hər il dövlətin dəstəyi ilə kino, musiqi, teatr və digər sahələr üzrə neçə-neçə mötəbər beynəlxalq tədbir keçirilir, xarici qonaqlar yurdumuzun gözəllikləri ilə bərabər, mədəniyyətimizin tərəqqisinin də canlı şahidi olurlar. Özü də mədəni yüksəliş ab-havası ölkənin hər yerində– Naxçıvanda, Gəncədə, Sumqayıtda, Lənkəranda, Şəkidə, Şamaxıda da aşkar duyulur.

Bir qismini sadaladığımız faktlar dövlət başçısı səviyyəsində mədəniyyətə diqqət və qayğının təzahürləridir. İnanırıq ki, şair demişkən, "gözəl günlər, şən günlər, yoluna düşən günlər hələ qarşımızdadır".

**XQ**

Təqdimat

# "Tretyakovkanın şah əsərləri. Şəxsi baxış"



**Bakı Kitab Mərkəzində tanınmış rusiyalı sənətşünas, Rusiya Dövlət Tretyakov Qalereyasının keçmiş baş direktoru Zelfira Trequlova ilə görüş keçirilib.**




Gecədə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva iştirak ediblər.

Görüş çərçivəsində Zelfira Trequlovanın "Tretyakovkanın şah əsərləri. Şəxsi baxış" kitabının təqdimatı olub.

Tədbirdən əvvəl müəllif müsahibəsində bu kitabın ərsəyə gəlməsində nədən ilham aldığından danışıb: "Tretyakov Qalereyasında saxlanılan rus və sovet rəssamlarının əsərləri bu kitabın yazılmasına ilham verib. Bu sənətkarlar arasında mənim üçün çox böyük əhəmiyyət kəsb edən dahi sənətkar Tahir Salahov var. Buna görə də kitab onun yaratdığı Qara Qarayevin portreti və digər görkəmli rəssam Erik Bulatovun əsəri haqqında hekayə ilə başa çatır".

Əməkdar incəsənət xadimi Emin Məmmədov tədbiri açaraq, bir çox layihənin təşkilatçısı olan sənətşünas Zelfira Trequlovanın fəaliyyəti haqqında danışıb. "2015-ci ildə Zelfira xanım Venesiya Biennalesindəki Azərbaycan Milli Pavilyonunda olub, burada Heydər Əliyev Fondu, Azərbaycan Milli İncəsənət Muzeyi, Müasir İncəsənət Muzeyinin kolleksiyasından 1960-1980-ci illərin rəssamlarının əsərləri təqdim edilib. Həmin an sərgimizi görən Zelfira xanım bildirib: "Mən bu sərgini Tretyakov Qalereyasında keçirməliyəm". 2016-cı ildə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın və fondun vitse-prezidenti Leyla Əliyevanın iştirak etdiyi "Abşeronun bürcü" adlı sərginin qalereyada açılışı olub. Bu sərgidən sonra "Abşeronun bürcü" Sankt-Peterburqda nümayiş olunub".

Sonra söz kitabın müəllifi Zelfira Trequlovaya verilib. O, Rusiyadan kənarda ilk dəfə kitabının təqdimatının məhz Azərbaycanda – sevdiyi və məmnuniyyətlə gəldiyi Bakıda keçirilməsindən şad və xoşbəxt olduğunu xüsusi vurğulayıb.

O, Leyla Əliyevaya və Heydər Əliyev Fonduna minnətdarlığını bildirib.

Tədbirin sonunda kitabın müəllifi görüş iştirakçılarının suallarını cavablandırıb.

Qeyd edək ki, "Tretyakovkanın şah əsərləri. Şəxsi baxış" kitabında XIX və XX əsr Rusiya rəssamları İlya Repin, Mixail Vrubel, Kazimir Maleviç və başqalarının məşhur rəsmləri təsvir olunub. Müəllif dünya sənət tarixində hansı rəsmlərin ona nə üçün ən əhəmiyyətli göründüyü barədə bəhs edir.

***XQ***

# Həmyerlimizin şeirləri beynəlxalq portalda

**Belçikadan dünyaya yayımlanan "Atunis Galaxy Poetry" beynəlxalq onlayn poeziya antologiyası Avropanın ən nüfuzlu ədəbiyyat portalıdır. Bu günlərdə portalda həmyerlimiz Nəzakət Məmmədovanın şeirləri yayımlanıb. "Kədər", "Payız" və "Darıxıram, ay ana" adlı bu şeirləri saytın oxucuları maraqla qarşılayıblar.**

**Nəzakət Salah qızı Məmmədova Azərbaycan Respublikası "Xatirə kitabı" redaksiyasının və "Yada düşdü" jurnalının baş redaktorudur. Bakıda "Yurd dediyim bu torpaq" kitabı, Tehranda "Ərdəbilim" adlı şeirlər toplusu nəşr olunub. Prezident mükafatlarına, Rəsul Rza və Mikayıl Müşfiq adına mükafatlara layiq görülüb. Onun "Atunis Galaxy Poetry" portalında verilmiş şeirlərdən birini təqdim edirik.**

***XQ***






## DARIXIRAM, AY ANA

*Həsrət çəkən gözlərim dikilir yollarına*
*Gülüşünü gəzirəm hər dodaqlar qaçanda,*
*Mən ətrini gəzirəm çöldə güllər açanda.*
*Toxunuram güllərə mən sənin əlin ilə,*
*Oxşayıram onları hey sənin dilin ilə.*
*Heç nə yetmir dadıma,*
*sən düşəndə yadıma…*
*Darıxıram, ay ana.*

*Səsin gəldiyi yerdən gəldi çiçəkli yazım,*
*Səsinə qurban olum, hanı o xoş avazın?*
*Sənsiz dünyam qarışıb,*
*bu ömür nəyə lazım?*
*Hara tələsdin belə, bu imiş qara yazın?*
*Zümzümə eləyərdin "Qaragilə" havasın*
*Mən də heyran qalardım o şirin avazına...*
*Darıxıram, ay ana.*

*Böyütdün, "od götürdün"*
*kipriyinlə, gözünlə,*
*Mənə dünyanı verdin bircə kəlmə sözünlə.*
*Mehriban davranışı, dözümü, sədaqəti*
*Sən verdin, gözəl anam, ləyaqəti, qeyrəti.*
*Səndən aldığım dərslər hər an gəlir karıma,*
*Sənsiz qar yağıb, sanki, gül açan baharıma...*
*Darıxıram, ay ana.*

*Gördüyüm hər zərrədə səni axtarıram mən,*
*Gəl, gözümün işığı, sənsiz darıxıram mən.*
*Bu ayrılıq bənzəməz heç bir ayrılıqlara,*
*Gəl, aydınlıq gətir sən bütün qaranlıqlara.*
*Gəlmək sənə çətinsə, məni çağır yanına,*
*Darıxıram səninçün, darıxıram, ay ana...*
*Darıxıram, ay ana!*

***Nəzakət MƏMMƏDOVA***

Olanlardan-keçənlərdən

# Çexovanın boyunbağısı Gəncədə

**Bu günlərdə 110 yaşı tamam olan Xalq artisti Rəmziyyə Veysəlova uzun illər Gəncə Dövlət Dram Teatrında çalışıb, bir-birindən sanballı obrazları ilə yadda qalıb. Təbii ki, görkəmli aktrisanın həyatında bir çox maraqlı hadisələr də olub. Bunlardan biri boyunbağı əhvalatıdır.**

Həmin əhvalatı Rəmziyyə Veysəlovanın gəlini, onun oğlu Çingiz Yusifzadənin ömür-gün yoldaşı, yazıçı-dramaturq Nüşabə Əsəd Məmmədli danışıb. Teatrşünas Anar Ərtoğrul Burcəliyev Nüşabə xanıma istinadla yazır ki, 1941-ci ildə alman faşistləri Moskvaya yaxınlaşanda Moskva Bədaye Teatrı Gəncəyə köçürülüb. Rusiyanın böyük



sənətkarları – SSRİ Xalq artistləri Vasili Kaçalov, Faina Ranevskaya, yazıçı Anton Pavloviç Çexovun həyat yoldaşı Olqa Knipper-Çexova və başqaları o zaman Gəncədə yaşayıblar, azərbaycanlı həmkarları ilə çiyin-çiyinə işləyiblər.

Qayınanası haqqında danışan Nüşabə xanım daha sonra bildirir:

– Uzun illər evimizin divarından Əşrəf Yusifzadə ilə birgə Rəmziyyə xanımın da portreti asılmışdı. Bu şəkildə onun boynundan Anna Axmatovanın boyunbağısından var idi (Anna Axmatovanın şəkillərində görmüşdüm). Mən heç vaxt Rəmziyyə xanımdan bu boyunbağı ilə bağlı heç nə soruşmurdum. Ancaq ölümündən bir neçə ay qabaq Rəmziyyə xanım məndən xahiş etdi ki, ona kömək edib qonaq otağına aparım. O, içəri girəndə öz şəklinin qarşısında dayanıb baxdı və üzünü mənə tutub soruşdu:

– Nuşa, sən bilirsən bu boyunbağını mənə kim verib?

– Yox, – dedim.

O, söylədi ki, bir dəfə Gəncə Teatrında, deyəsən, Lermontovun "İki qardaş" pyesi oynanılırdı. Həmin tamaşada böyük sənətkarımız Məmmədrza Şeyxzamanovla tərəf-müqabil olan Rəmziyyə xanım səhnədə elə parlaq çıxış edib ki, zalda həmkarları ilə əyləşən Olqa Knipper-Çexova öz boyunbağısını onun boynuna taxıb.

– Mən bu boyunbağını düz 17 il saxladım, – dedi Rəmziyyə xanım. – Ancaq 1958-ci ildə "Nəsrəddin şah" tamaşasında həmkarım Sədayə Mustafayeva elə gözəl oynadı ki, mən boyunbağını ona bağışladım. Bu rolu vaxtı ilə mən də oynamışdım, lakin Sədayənin ifası məni elə



titrətdi ki, bəlkə də, böyük yazıçı Çexovun əli toxunmuş boyunbağını onun boynundan asdım.

Daha sonra Nüşabə xanım nəql edir ki, düz 42 ildən sonra, yəni 2000-ci ildə qızım Aysel universiteti bitirib Gəncəyə qayıdanda, çox sevdiyim sənətkar, Xalq artisti Sədayə Mustafayeva bizə gəldi. "Məni və uşaqlarımı öpdü. – Qızıcan, – dedi, – məndə Rəmziyyə xanımın Knipper-Çexovanın ona bağışladığı bir yadigarı var. İstəyirəm onu Rəmziyyə xanımın öz nəvəsinə bağışlayım". O həmin boyunbağını qızıma bağışladı.

Beləliklə, Aysel üçün bu, artıq 3 korifey sənətkarın – Olqa Knipper-Çexovanın, Rəmziyyə Veysəlovanın və Sədayə Mustafayevanın əziz yadigarı oldu.

***Ə.DOSTƏLİ***
***XQ***

Dünya ədəbiyyatı inciləri

# "Drakula" – qorxunc macəralar romanı

**Bir çox xalqların dilinə tərcümə olunaraq çap edilmiş məşhur "Drakula" əsəri irland yazıçısı, romançı, qısa hekayələr müəllifi və teatr tənqidçisi kimi tanınmış Brem Stokerin qələminin məhsuludur. Bu roman ilk dəfə 1897-ci ildə İngiltərədə çap olunub.**

Maraqlıdır ki, tənqidçilərin heyrancasına etiraflarına baxmayaraq, müəllifin sağlığında "Drakula" ona qazanc gətirə bilməyib. Brem Stoker son günlərini yoxsulluq içində yaşayıb, hətta Kral Ədəbiyyat Fonduna mərhəmət qrantı verilməsi barədə sənəd təqdim edib.




"Drakula"nın 1922-ci ildə ekranlaşdırılması sayəsində əsərə 2-ci nəfəs verilib. Alman rejissor Fridrix Vilhelm Murnau yazıçının ailəsindən icazə almadan, romanın motuvləri əsasında səssiz "Nosferatu" dəhşət filmini çəkib. Bununla bağlı qızışan mübahisələr fonunda cəmiyyətdə əsərin ilkin mənbəsinə maraq yaranıb. Romanın növbəti uğurlu kinoversiyası isə 1992-ci ildə təqdim olunub. Eyniadlı fantezi (ədəbiyyatdan götürülmə – Ə.D.) əsərini amerikalı rejissor Frensis Ford Koppola çəkib. Həmin film 3 "Oskar"a layiq görülüb.

Epistolyar kult romanı janrında qələmə alınmış əsərin baş qəhrəmanı əsilzadə-vampir, qraf Drakuladır. Əsər başdan-başa qəhrəmanların qeydləri, məktubları və gündəlikləri əsasında qurulub. İngilis romantizminin maraqlı nümunələrindən olan "Drakula" romanında oxucu gerçək sevginin, etibarın, güvəncin qüdrətini həyəcan və dəhşətlə izləyir.

"Oskar" mükafatları almış filmdə, eyni zamanda, ölüb-dirilən Drakulanın zühurundan xəbərsiz olan gənc hüquqşünas Conatan Harkerin əzablı sərgüzəşti diqqət çəkir. O, Transilvaniyaya yollanır ki, bir qrafa İngiltərədən daşınmaz əmlak almaqda kömək göstərsin. Əsilzadə onu sevimli qonağı kimi qarşılayır. Amma sövdələşmə başa çatandan sonra hər şey dəyişir – qorxunc həqiqətləri öyrənmiş hüquqşünas qədim qəsrdə girov saxlanır...

Bir sözlə, ingilis romantizminin maraqlı nümunələrindən sayılan "Drakula" öz mahiyyəti etibarı ilə bütün qorxulara qalib gələnlərin romanıdır. Həyəcan dolu dramatik anlarla zəngin əsər oxuculara əsl bədii zövq aşılayır.

***Ə.DOSTƏLİ***
***XQ***

# Tramp Avropanın təhlükəsizlik arxitekturasını lərzəyə gətirib

*(əvvəli 1-ci səhifədə)*

Fevralın 10-da 77 yaşlı Tramp Cənubi Karolinada tərəfdarları qarşısında çıxışı zamanı avropalı siyasətçilərlə görüşləri haqqında danışıb. Eks-prezidentin dediyinə görə, "böyük ölkənin" lideri ondan Rusiyanın hücumu zamanı ABŞ-ın bu dövləti müdafiə edib-etməyəcəyini soruşub. Cavab verib ki, NATO büdcəsinə üzvlük haqqı ödənilməsə, o, hücuma məruz qalan ölkəni müdafiə etməyəcək və hətta hücum edən tərəfi "istədiyini etməyə" "həvəsləndirəcək".

Bu, Ağ evin keçmiş sahibinin ilk belə bəyanatı deyil. Tramp hələ ilk prezidentliyi dövründə alyansın üzvlərini dəfələrlə NATO-dan çıxmaqla hədələyib. O, hesab edir ki, avropalıların silaha kifayət qədər pul xərcləmədiyi halda, Birləşmiş Ştatların digər 30 üzv ölkənin müdafiəsi üçün məsuliyyət daşıması ədalətsizlikdir. 2019-cu ilin dekabrında alyansın London sammitində Tramp bu hərbi blokun bütün ölkələrini üzvlük haqlarını ÜDM-in 4 faizinə çatdırmağa çağırmışdı. O zaman bu, kəskin narazılıq ilə qarşılanmışdı.




Bu dəfə Trampın Cənubi Karolinada açıqladığı fikirlər Aİ ölkələrinin liderlərini qarşıda onları nələrin gözləyə biləcəkləri haqqında ciddi düşünməyə vadar edib. Hansı addımı atacağını qabaqcadan demək mümkün olmayan Trampı nəzarətdə saxlamaq üçün Aİ Ukraynaya hərbi yardımı müstəqil şəkildə maliyyələşdirməyə davam edəcəyini təklif edə bilər. Alman–Amerika Ticarət Palatası güman edir ki, Tramp Aİ-dən cəza tariflərini tələb edəcək. Aİ də öz növbəsində idxal rüsumlarını artırmalı olacaq. Bu, ticarət həcminə və iqtisadi artıma mənfi təsir göstərəcək. Amma bununla məsələ bitmir.

Bir çox Aİ ölkələrinin mühüm ticarət tərəfdaşı olan Çinlə münasibətlər Trampın dövründə daha da pisləşəcəkmi? Belə olarsa, dünyada sabitlyin pozulacağı ehtimalları daha da artacaq. Bu isə Brüssel üçün əsl kabusa çevriləcək. Təkcə bir nəfərdən başqa. Ağ evin sahibinin dəyişməsinə sevinən yalnız bir avropalı siyasətçi olacaq – Viktor Orban. Macarıstanın baş naziri Trampı müttəfiqi kimi görməkdən çox məmnun olacaq.

Təbii ki, belə olan halda Avropa siyasi aktorlarının başağrısına çevriləcək ən ciddi problemlərdən biri NATO-nun indiki vəziyyətdə qalıb-qalmayacağı məsələsi olacaq. Eks-prezidentin bəyanatından dərhal sonra Aİ-nin Xarici siyasət idarəsinin başçısı Cozep Barrel NATO-ya restorandakı menyu kimi yanaşmamaq barədə xəbərdarlıq edib. O, bazar ertəsi Brüsseldə çıxışı zamanı xəbərdarlıq edib ki, "NATO ABŞ prezidentinin şıltaqlığına tabe olan hərbi ittifaq ola bilməz. Alyansın müdafiəsi məsələsi ortaya çıxanda üzv ölkələr bu gün "bəli", sabah isə "yox" deyə bilməz. O, ya mövcuddur, ya da yoxdur" .

Fevralın 11-də NATO-nun Baş katibi Yens Stoltenberq də Trampın bəyanatına münasibət bildirib. O, üzv dövlətləri bir daha əmin edib ki, onlardan hər hansı birinə hücum olarsa, hərbi blok onun müdafiəsinə qalxacaq. Stoltenberq Trampın adını çəkmədən, bu "aksiomu sual altına qoyan" bəyanatları tənqid edib.

"NATO bütün müttəfiqlərini qorumağa hazır və qadir olaraq qalır", – deyən baş katib, həmçinin bildirib ki, "alyansa qarşı istənilən hücum vahid və qətiyyətli reaksiyaya səbəb olacaq. Müttəfiqlərin bir-birini qorumayacağına dair hər hansı bir təklif, ABŞ-ın təhlükəsizliyi də daxil olmaqla, bizim ümumi təhlükəsizliyimizi pozur və Amerika və Avropa əsgərlərini daha çox risk altında qoyur". Stoltenberq əmin olduğunu bildirib ki, Birləşmiş Ştatlardakı prezident seçkilərində kimin qalib gəlməsindən asılı olmayaraq, bu ölkə NATO-nun güclü və sadiq müttəfiqi kimi qalacaq.

"Reuters" agentliyi xəbər verir ki, Polşanın Baş naziri Donald Tusk Donlad Trampın məlum bəyanatına ilk reaksiya verən siyasi liderlərdən biri olub. Parisdə səfrdə olan Tusk Fransa prezidenti Makronla birgə bəyanatla çıxış edərək deyib: "Artan təhlükəsizlik riskləri qarşısında Avropa, NATO və ABŞ-ın bir-biri ilə əməkdaşlığına alternativ yoxdur. Avropa təhlükəsiz qitəyə çevrilməlidir və bu o deməkdir ki, Aİ, Fransa və Polşa güclü olmalı və öz sərhədlərini qorumağa, həmçinin alyansdan kənarda müttəfiqlərimizi və dostlarımızı qorumağa və dəstəkləməyə hazır olmalıyıq". Polşanın baş naziri, həmçinin deyib: "Bəlkə də elə burada, Parisdə Aleksandr Dümanın "Üç muşketyor" əsərindəki sözləri xatırlatmaq yerinə düşür: "Birimiz hamımız üçün, hamımız birimiz üçün".

Almaniyanın maliyyə naziri Kristian Lindner əks-sədası Avropa silkələyən Trampın bəyanatını İngiltərədə səfərdə olarkən eşidib və buna özünəməxsus şəkildə soyuqqanlı cavab verib: "Ağ evdə kimin olmasından asılı olmayaraq, biz ABŞ-la iqtisadi, siyasi və təhlükəsizlik sahələrində əməkdaşlığı davam etdirməkdə maraqlıyıq".

Londonda öz həmkarı Ceremi Hantla görüşən Lindner əlavə edib ki, "Böyük Britaniya və Almaniyanın azad ticarət imkanlarının gücləndirilməsi ilə bağlı oxşar problemləri var. Trampın bəyanatlarından sonra London və Berlin arasında bu dialoq xüsusi əhəmiyyət kəsb edir. Çünki NATO-nun avropalı üzvləri olaraq biz ciddi problemlərlə üzləşirik".

Almaniya Bundestaqındakı Xristian Demokrat və Xristian Sosial Birlik fraksiyalarının xarici siyasət üzrə eksperti Norbert Röttgen məsələylə münasibətini belə açıqlayıb: "Trampın müdafiə xərcləri tələblərinə cavab verməyən NATO müttəfiqlərini müdafiə etməkdən imtina edəcəyi ilə bağlı bəyanatları, ilk növbədə, Almaniyaya qarşı yönəlib".

Avropa Şurasının sədri Şarl Mişel Cənubi Karolina ştatında səslənən fikirlərə daha kəskin reaksiya verib və Trampın sözlərini "məsuliyyətsizlik" adlandırıb.

Estoniyanın Baş naziri Kayya Kallas isə məlum hadisələrə daha diplomatik münasibət bildirərək deyib ki, Trampın NATO ilə bağlı açıqlamaları müdafiəyə böyük sərmayə qoymayan NATO üzvləri üçün həyəcan siqnalı olmalıdır. O, Avropa Parlamentinin sədri Roberta Metsola ilə keçirdiyi birgə mətbuat konfransında deyib: "Mən hesab edirəm ki, Amerikanın prezidentliyə mümkün namizədinin dedikləri çox iş görməyən bəzi müttəfiqləri də hərəkətə gətirməlidir".

Alyansa üzvlüyü ilə bağlı prosedurları tam başa çatdırmayan Finlandiyanın yeni seçilmiş Prezidenti Aleksandır Stubb isə dünən bəyan edib ki, Trampın alyansla bağlı şərhlərinə baxmayaraq, ölkəsi sakit olmalı və diqqətini NATO üzvlüyünə yönəltməlidir.

Fransanın xarici işlər naziri Stefan Sejurne fevralın 12-də Trampın sözlərini şərh edərək deyib: "Bəli, bizə NATO-nun əvəzinə, ona qarşı deyil, əlavə olaraq ikinci həyat sığortası lazımdır". Fransa diplomatiyası rəhbərinin sözləri, əslində, Makronun prezidentliyi dövründə Parisin Avropada fəal şəkildə təbliğ etdiyi strateji muxtariyyət ideyasını əks etdirir. Məram Amerika təhlükəsizlik çətirindən asılılığı azaltmaq və ilk növbədə, Avropa resurslarına güvənməkdir. Əvvəllər bu cür fikirlər həm Aİ-də, həm də ABŞ-da NATO-nun birliyini pozmaq cəhdi kimi qəbul edilirdi. Lakin Rusiyanın Ukraynaya genişmiqyaslı müdaxiləsindən sonra Avropanın təhlükəsizliyinin gücləndirilməsi məsələsi gündəmə gəldi.

Böyük Britaniyanın xarici işlər naziri Devid Kemeron da Trampın açıqlaması ilə razılaşmadığını bildirib. Nazir vurğulayıb ki, o, "NATO-nun son dərəcə qatı tərəfdarıdır" və Rusiya–Ukrayna müharibəsinin davam etdiyi dönəmdə alyansın müdafiə zəmanətlərinin əhəmiyyəti artıb.

"Əslində, bu il İsveç və Finlandiya üzv olduqdan sonra NATO daha da gücləndi. Təbii, biz istəyirik ki, bizim kimi bütün ölkələr ÜDM-in 2 faizini müdafiəyə xərcləsinlər, amma mən hesab edirəm ki, alyans haqqında deyilənlər ağlabatan yanaşma deyil."

Prezident Co Baydenin administrasiyası da Trampın Rusiyanın hücumu halında NATO müttəfiqlərinə kömək etməkdən imtina edəcəyi ilə bağlı bəyanatlarını kəskin tənqid edib. Açıqlamada qeyd edilib ki, Vaşinqtonun ən yaxın müttəfiqlərinin ərazisinə "qanlı rejimlərin təxribatının həvəsləndirilməsi" "dəhşətli və həyəcanvericidir". Bu, Birləşmiş Ştatların milli təhlükəsizliyini, qlobal təhlükəsizliyi və ABŞ iqtisadiyyatının sabitliyini təhdid edir.

Respublikaçılar partiyasının 2024-cü il ABŞ prezidentliyinə digər namizədi Nikki Heyli də rəqibi Trampın fikirlərini "CBS" nəşrinə müsahibəsində kəskin tənqid edib. Prezident olarsa, NATO-nun "birinə hücum hamıya hücumdur" prinsipini dəstəkləyəcəkmi sualına Respublikaçı namizəd "bəli" cavabını verib və deyib: "NATO son 75 ilin uğurlu tarixidir...NATO bizə müharibənin qarşısını almağa imkan verir. Biz həmişə müharibənin qarşısını almağa diqqət etməliyik".

Qərb siyasi elitasının bütün bu əndişələrini oxuduqca ortaya belə bir sual çıxır: Tramp Prezident seçilsə, həqiqətənmi, ABŞ NATO-nu tərk edəcək? Həqiqətənmi, Avropaya yeni təhlükəsizlik arxitekturası qurmaq lazım gələcək? Vaxtilə Tramp administrasiyasında ABŞ-ın milli təhlükəsizlik üzrə müşavir olmuş Con Bolton hesab edir ki, Trampın hakimiyyətə qayıdacağı təqdirdə NATO-dan çıxacağı ilə bağlı təhdidləri ciddi qəbul edilməlidir.

Görünür, Avropa siyasi elitasının narahatlığı əbəs deyil. Elə qitənin aparıcı media resurlarının da. Məsələn, "t-online" informasiya portalı Trampın bəyanatının mümkün epoxal nəticələrini belə təsvir edir: "Qəfildən bütün dünyaya onilliklər ərzində ağlasığmaz görünən bir ssenari təqdim olunur: Avropa İkinci Dünya müharibəsindən sonra ilk dəfə özünün NATO-nun çox mühüm və son dərəcə güclü həmtəsisçisinin müdafiəsindən məhrum olacaq. Bu, Trampın yenidən prezident olacağı təqdirdə baş verəcək".

"t-online" daha sonra yazır: "O, ayrı-ayrı ölkələri müdafiədən məhrum edəcəyi ilə hədələməklə, Qərbin və bununla da bütün dünyanın təhlükəsizlik arxitekturasını laxladır. Axı bu, əhəmiyyətli dərəcədə etibarlı çəkindirməyə əsaslanır. Tramp üçünsə bu, bir reket sistemi kimi görünür, ABŞ yalnız öz maliyyə və ya iqtisadi şərtlərinə cavab verdikdə digər ölkələrə müdafiə zəmanəti verəcək. Bu ideya, ən azı, ortaq demokratik dəyərlərə əsaslanan və Amerikanın maraqlarına açıq şəkildə xidmət edən əvvəlki sistemdən tamamilə fərqli görünür".

Nəşr xəbərdarlıq edir ki, ABŞ-ın xarici siyasət konsepsiyasında bu cür dəyişiklik bilavasitə Rusiyanın xeyrinə işləyəcək.

Sonda "t-online" belə proqnoz verir: "Əgər noyabrda Ağ evdə hakimiyyət dəyişikliyi olacağı məlum olarsa, o zaman Fransa, Böyük Britaniya və Almaniyaya tarixi görüşə toplaşmaq lazım gələ bilər. Bu təcili görüşün bir niyyəti olacaq: 1949-cu ildən bəri ilk dəfə olaraq amerikalılar olmadan Avropa üçün yeni təhlükəsizlik arxitekturası işləyib hazırlamaq".

Avropa siyasi elitası öz regionunun təhlükəsizliyi üçün bu qədər narahat ikən, görəsən, nədən bütün vasitələrlə Cənubi Qafqazda siyasi gərginliyi qızışdırmağa, Ermənistanı silahlandırıb "sönmüş ocağın üstünə yağ tökməyə" ciddi cəhdlər göstərir? Bu haqda gələn sayımızda geniş analitik məqalə ilə çıxış edəcəyik.

***İlqar RÜSTƏMOV***
***XQ***

## "Sumqayıt Sənayetikinti Avtonəqliyyat" ASC səhmdarlarının nəzərinə!

29 mart 2024-cü il saat 11.00-da cəmiyyətin Sumqayıt şəhəri, İnşaatçılar qəsəbəsində yerləşən inzibati binasında səhmdarların ümumi yığıncağı keçiriləcəkdir.

**ÜMUMİ YIĞINCAĞIN GÜNDƏLİYİ:**

1. "Sumqayıt Sənayetikinti Avtonəqliyyat" ASC-nin idarə heyətinin 2023-cü ilin yekunları və 2024-cü ildə görüləcək işlər haqqında hesabatı.
2. Müşahidə Şurasının hesabatı.
3. Maliyyə-Təftiş komissiyasının hesabatı.
4. 2023-cü təsərrüfat ilinin balansı, hesabatların təsdiq edilməsi və xalis mənfəətin bölüşdürülməsi.

***İdarə heyəti***

# Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti

## QƏRAR

**№ Q/1**

**Bakı şəhəri** **23 yanvar 2024-cü il**

**Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 27 dekabr tarixli 2435 nömrəli Fərmanının qəbul edilməsi ilə əlaqədar normativ hüquqi aktların kolliziyasının aradan qaldırılması məqsədilə Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

"Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya haqqında Əsasnamənin təsdiq edilməsi və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın tərkibi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 9 dekabr tarixli 224 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 27 dekabr tarixli 2435 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 dekabr tarixli 1055s nömrəli Sərəncamının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 724 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti haqqında Əsasnamə"nin 5.7.5-ci yarımbəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin 2017-ci il 15 may tarixli Q/9 nömrəli Qərarı ilə təsdiq edilmiş "İnformasiya mühafizə vasitələrinin sertifikatlaşdırılması və sertifikatlaşdırılmış informasiya mühafizə vasitələri üzərində dövlət nəzarətinin və müfəttiş yoxlamalarının həyata keçirilməsi qaydaları"nın 2.3.3-cü yarımbəndinin ikinci cümləsindən və 4.1-ci bəndindən "Azərbaycan Respublikasının Prezidenti yanında" sözləri çıxarılsın.

**2.** Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin 2017-ci il 06 sentyabr tarixli Q/17 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət sirri təşkil edən məlumatın qeyri-qanuni yayılması faktı üzrə qərarın qəbul edilməsi Qaydası"nın 2.13-cü bəndindən "Azərbaycan Respublikasının Prezidenti yanında" sözləri çıxarılsın.

3. Hüquqi təminat idarəsi: bu Qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün 3 gün müddətində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunması təmin edilsin.

***Rəis***
***general-polkovnik*** ***Əli NAĞIYEV***

# Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası

## QƏRAR

**№ 3-27/3-7-2/2024**

**Bakı şəhəri 12 yanvar 2024-cü il**

**Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin 2016-cı il 6 fevral tarixli 0001 nömrəli qərarı ilə təsdiq edilmiş "Poçt rabitəsi xidmətlərinin göstərilməsi Qaydaları"nda və Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Kollegiyasının 2022-ci il 20 sentyabr tarixli KQ-11/22 nömrəli qərarı ilə təsdiq edilmiş "Dövlət poçt ödənişi nişanlarının hazırlanması, nominal dəyərinin və tirajının təsdiq edilməsi, onların nəşri, dövriyyəyə buraxılması və dövriyyədən çıxarılması Qaydası"nda dəyişiklik edilməsi barədə**

"Azərbaycan Respublikası Prezidentinin "Poçt haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2004-cü il 31 avqust tarixli 115 nömrəli və "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında» 2007-ci il 22 may tarixli 583 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 13 noyabr tarixli 2350 nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 21 noyabr tarixli 889s nömrəli Sərəncamının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"nin 5.11-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası

**qərara alır:**

1. Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin 2016-cı il 6 fevral tarixli 0001 nömrəli qərarı ilə təsdiq edilmiş "Poçt rabitəsi xidmətlərinin göstərilməsi Qaydaları"nda və Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Kollegiyasının 2022-ci il 20 sentyabr tarixli KQ-11/22 nömrəli qərarı ilə təsdiq edilmiş "Dövlət poçt ödənişi nişanlarının hazırlanması, nominal dəyərinin və tirajının təsdiq edilməsi, onların nəşri, dövriyyəyə buraxılması və dövriyyədən çıxarılması Qaydası"nda dəyişikliklər təsdiq edilsin (əlavə olunur).

2. Hüquq şöbəsinə tapşırılsın ki, bu Qərarın qəbul edildiyi gündən 3 (üç) gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilməsini təmin etsin.

3. Bu Qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.

**Kollegiyanın sədri, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev**

Azərbaycan Respublikasının
Rəqəmsal İnkişaf və Nəqliyyat
Nazirliyinin Kollegiyasının
2024-cü il "12" yanvar tarixli
3-27/3-7-2/2024 nömrəli
Qərarı ilə təsdiq edilmişdir.

**Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin 2016-cı il 6 fevral tarixli 0001 nömrəli qərarı ilə təsdiq edilmiş "Poçt rabitəsi xidmətlərinin göstərilməsi Qaydaları"nda və Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Kollegiyasının 2022-ci il 20 sentyabr tarixli KQ-11/22 nömrəli qərarı ilə təsdiq edilmiş "Dövlət poçt ödənişi nişanlarının hazırlanması, nominal dəyərinin və tirajının təsdiq edilməsi, onların nəşri, dövriyyəyə buraxılması və dövriyyədən çıxarılması Qaydası"nda edilmiş dəyişikliklər:**

1. Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin 2016-cı il 6 fevral tarixli 0001 nömrəli qərarı ilə təsdiq edilmiş "Poçt rabitəsi xidmətlərinin göstərilməsi Qaydaları"nın 1.10-cu bəndində "Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası" sözləri "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəyi nəzərə alınmaqla, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Kollegiyasının 2022-ci il 20 sentyabr tarixli KQ-11/22 nömrəli qərarı ilə təsdiq edilmiş "Dövlət poçt ödənişi nişanlarının hazırlanması, nominal dəyərinin və tirajının təsdiq edilməsi, onların nəşri, dövriyyəyə buraxılması və dövriyyədən çıxarılması Qaydası"nın 1.2.2-ci yarımbəndində, 6.1-ci bəndində və 10.2.1-ci yarımbəndində "Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının qərarı ilə" sözləri "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəyi nəzərə alınmaqla, Nazirlik tərəfindən" sözü ilə əvəz edilsin.

## "Kapital Bank" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının nəzərinə!

29 mart 2024-cü il saat 11.00-da Bakı şəhəri, Badamdar qəsəbəsi, Mikayıl Müşfiq küçəsi 2 E nömrəli ünvanda yerləşən bankın ofisində (3-cü mərtəbə, iclas zalı) bankın səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcəkdir.

Səhmdarların növbəti ümumi yığıncağının gündəliyinə aşağıdakı məsələlər daxil edilmişdir:

I. "Kapital Bank" ASC-nin 2023-cü ilin yekunlarına aid maliyyə hesabatlarının təsdiq olunması.
Məruzəçi: Zaur Musayev

II. "Kapital Bank" ASC tərəfindən 2023-cü ilin maliyyə ilinin yekunlarına əsasən səhmdarlara dividend ödənilməsi.
Məruzəçi: Zaur Musayev

III. "Kapital Bank" ASC-nin müşahidə şurasının üzvü Fərid Məmmədovun növbəti dəfə müşahidə şurasının üzvü seçilməsi.
Məruzəçi- Yaşar Məmmədov.

IV. Digər məsələlər.
Məruzəçi- Yaşar Məmmədov.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 33 (30437) 14 fevral 2024-cü il, çərşənbə

## Murad Məmmədov Avropa çempionu oldu



**Rumıniyanın paytaxtı Buxarestdə güləş üzrə Avropa çempionatında yarışların ikinci günü yunan-Roma güləşçiləri döşək üzərinə çıxıblar.**

Dünən 4 güləşçimiz medallar uğrunda mübarizə aparıb. Soydaşımız Murad Məmmədov (63 kq) finalda Aleksandr Qruşini (Ukrayna) 2:1 hesabı ilə məğlub edərək ilk dəfə Avropa çempionu olub. Rəşad Məmmədov (55 kq) isə Artem Deleyana (Moldova) 3:5 hesabı ilə uduzub.

Bürünc medal üçün güləşən İslam Abbasov (87 kq) Jan Belenyuka (Ukrayna) uduzub – 1:2. Digər bürünc mübarizəsində Beka Kandelaki (130 kq) Oskar Marviki (Norveç) 2:2 hesabı ilə məğlub edərək, Avropa çempionatında 3-cü yeri tutub.

## Türkiyəli idmançının bayrağımıza ehtiramı



**Türkiyənin yunan-Roma güləşçisi Rza Kayaalp Rumıniyanın paytaxtı Buxarestdə keçirilən Avropa çempionatında təqdirəlayiq addım atıb. Belə ki, 130 kiloqram çəki dərəcəsində çıxış edən 12 qat Avropa çempionu yarımfinalda Azərbaycan təmsilçisi Beka Kandelakiyə qalib gələrək finala yüksəlib.**

Titullu güləşçi qarşılaşmadan sonra Kandelakiyə yaxınlaşaraq formasının üzərində əks olunmuş Azərbaycan Bayrağını öpüb. Qeyd edək ki, Beka Kandelaki bu gün bürünc mükafat uğrunda görüşə çıxacaq.

## Gənc atıcılarımız İspaniya finalında



**Azərbaycanın güllə atıcıları Leyli Əliyeva və Vladimir Kalmıkov İspaniyanın Qranada şəhərində gənclər arasında keçirilən Dünya Kubokunda finala yüksəliblər. Azərbaycan Atıcılıq Federasiyasından verilən məlumata görə, onlar qarışıq komanda yarışlarında fərqləniblər.**

Sofya Barxalova və Hacı Musayev isə 5-ci yerlə kifayətləniblər. Onlar ispaniyalı rəqibləri ilə eyni xal toplasalar da, mərkəzi atışmada nisbətən aşağı nəticə göstəriblər.

**XQ**

# Bilmək, yoxsa bacarmaq?



**Fizika üzrə Nobel mükafatı laureatı (1978), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı Pyotr Kapitsanın oğlu, fizika-riyaziyyat elmləri doktoru, professor, akademik, Rusiya Təbiət Elmləri Akademiyasının vitse-prezidenti, "В мире науки" ("Elm dünyasında") jurnalının baş redaktoru, maarifçi, 1973-cü ildən SSRİ-də ən populyar elmi-kütləvi "Очевидное – невероятное" ("Həqiqətlər və ağıla gəlməyənlər") televiziya verilişinin uzun illər boyu aparıcısı olmuş Sergey Kapitsanın (1928-2012) şahidi olduğu maraqlı bir olay belə baş verib:**

"Bu hadisə 1960-cı illərdə olmuşdu. Rusiya Təbiət Elmləri Akademiyasının qapalı Elmi Tədqiqat İnstitutunda (ETİ) nüvə fizikası sahəsində çalışan bir qrup alimi Qara dəniz sahillərindəki məşhur kurortların birinə istirahətə gedir. Qrupdakıların hamısı fizika üzrə elmlər doktorları idilər. Aralarında hətta bir nəfər olsun belə elmlər namizədi yox idi.

Elmlər doktorları, professorlar yolüstü bir neçə şüşə şərab alıb dəniz sahilinə gəlirlər. Süfrədə məlum olur ki, şərab şüşələri pərçimlənmiş plastik qapaqla bərk bağlanıb. Qapaqları yalnız bıçaqla kəsmək mümkün olardı. Bıçağı isə özləri ilə götürməyiblər, qapaqları açmağa başqa heç nə yoxdur! Xeyli düşünürlər, lakin bir çarə tapa bilmirlər.

Bu vaxt görürlər ki, yaxınlıqdan səfil-sərgədan keçir. Onu səsləyirlər:

– Ay yoldaş, şərab şüşələrini açmaq üçün sizdə bir şey olmaz ki? Bunları aça bilərsinizmi?

–Açarıq, əlbəttə, açarıq! – deyə kişi onlara yaxınlaşır.

Həmin şəxs şüşələrdən birini əlinə alıb soruşur:

– Kibritiniz var?

Kibrit qutusunu ona verirlər. O, bir kibrit yandırır, qapağı qızdırır, yumşalmış qapağı əllə dartıb çıxarır və heyrətlə ona baxan alimlərə deyir:

– Məktəbdə fizikanı oxumaq lazım idi, ay bisavadlar.

Professor Sergey Kapitsa bu hekayətdən belə bir nəticə çıxarır:

–Tələbələri kor-korana əzbərçiliyə öyrətmək lazım deyil, əksinə, onların düşünmək qabiliyyətini gücləndirmək çox vacibdir.

Akademikin fikrincə, tələbə hətta imtahana kitabla gələ də bilər, təki, o, həmin kitabda nə yazıldığının fərqinə varsın və çox şeyi müstəqil surətdə dərk etsin. Yəni, gərək bildiyini bacarasan da.

*Təqdim etdi:*
*M.HACIXANLI*
**XQ**

**İyirmi ildən çox davam edən bərpa işlərindən sonra qədim Misirin XVIII Amun sülaləsinin (e.ə. 1550-1292) böyük katibi Neferhotepin sərdabəsinin rəsmi açılışı olub.**

## Luksorda qədim Misir sərdabəsi bərpa edilib

Sərdabə Luksor şəhərinin Əl-Xoxa bölgəsində yerləşir. Burada gözəl rənglənmiş səhnələr və yazılar var. Sərdabənin bərpasına 2000-ci ildə başlanılıb. Argentinanın Buenos-Ayres Universitetinin missiyası onun epiqrafik və arxeoloji aspektlərinin qeydə alınması və öyrənilməsinə cavabdeh idi. Almaniya arxeoloji qrupu isə divar rəsmlərinin konservasiyası və təmizlənməsi ilə məşğul olub.



Sərdabədəki divar rəsmlərinin bir vaxtlar rəngarəng və yüksək bədii keyfiyyəti olsa da, XIX əsrin əvvəllərində onların bir hissəsi pozulub. Geniş və diqqətli araşdırmadan sonra alman komandası lazerlərdən istifadə edərək, kövrək divar rəsmlərini və heroqlifləri üzə çıxarmaq üçün yeni üsul hazırlayıb.

Bundan əlavə, divar rəsmlərini, relyef və heykəllər üzərində boş daş parçaları, çatları, ayrılmış suvaq və boya qatlarını sabitləşdirmək üçün daha geniş konservasiya tədbirləri həyata keçirilib.

**XQ**

**14 Fevral Kitab Bağışlama Günü**

# Sən oxudunsa, ver başqasına...

**Dünyanın bir çox ölkələrində hər il fevralın 14-də Beynəlxalq Kitab Bağışlama Günü kimi qeyd olunur. Bu əlamətdar gün özündə iki amili ehtiva edir: kitab sevgisi və insanlara olan sevgi. Bu günün ideyası "Delightful Children's" təşkilatının yaradıcısı Emi Broadmur tərəfindən hazırlanmışdır.**

Qeyd edək ki, ilk Beynəlxalq Kitab Hədiyyə Günü üçün kitab lövhəsi uşaq kitablarının məşhur illüstratoru və "Dotty Detective" və "The Bear with Vicky Paws" daxil olmaqla doqquz kitabın müəllifi Klara Vulliami tərəfindən hazırlanmışdır. İlk başlığı və loqonu isə yazıçı və illüstrator Viviane Schwarz tərtib etmişdir.




Yeri gəlmişkən, 14 fevral, həmçinin Sevgililər Günü kimi qeyd olunur. Tanınmış yazıçı Kənan Hacı hər iki əlamətdar günün eyni tarixdə qeyd olunmasını müsbət hal kimi qiymətləndirir. Onun sözlərinə görə, insanın sevdiyi birinə kitab bağışlamasından gözəl heç nə ola bilməz.

Beynəlxalq Kitab Bağışlama Günü 44-dən çox ölkədə – Fransa, Ukrayna, Cənubi Afrika, Yaponiya, İngiltərə, ABŞ, Malayziya, o cümlədən, doğma yurdumuz Azərbaycanda da qeyd olunur.

Kitabı oxumaq da, bağışlamaq da gözəldir. Ən pisi, kitaba biganə qalmaqdır. Qoy, bizi dünyada həm də kitabla dost olan, mütaliəni çox sevən bir xalq kimi tanısınlar.

*Fidan HÜQUQQIZI*
**XQ**



# Yağmasa da, dumanlı olacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, fevralın 14-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Bəzi yerlərdə arabir duman olacaq. Cənub-şərq küləyi əsəcək, gündüz şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 5-9°, gündüz 12-16° isti olacaq. Atmosfer təzyiqi 759 mm civə sütunu, nisbi rütubət 60-70 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin axşam qərb rayonlarında arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 4-8°, gündüz 17-22° isti, dağlarda gecə 1° şaxtadan 4°-dək isti, gündüz 5-10° isti olacaq.

*Q. QASIMOV*
**XQ**

# Ürək, nə tez qocaldın sən?

**Ürək bədəndəki bütün orqanlardan daha tez qocala bilər. Bunun səbəbi isə həyat tərzi və qidalanmadır. ABŞ Xəstəliklərə Nəzarət Mərkəzinin əhali arasında apardığı araşdırmada hər ikinci kişi və hər beşinci qadının ürəyinin təqvim yaşından 5 il böyük olduğu sübut olunub. Hətta ürəyi 11 il qoca olanlar da müşahidə edilib.**



Klivlend klinikasının kardioloqu Vikas Sander bunu şərh edərək bildirib ki, ürək aşırı yüklənmədən, gərginlikdən qocalır. Ürəyi artıq çəki, həddən çox ağır iş, az hərəkətlilik, qeyri-sağlam qida verdişləri yükləyir.

Ürəyi qocaldan qidalar içində ilk yeri şəkər və duz tutur. Onu gənc və sağlam saxlamaq üçün təzyiqi və xolesterini azaldan qidalar –tərəvəz, taxıl, yağsız ət, zülal tərkibli qidalar seçmək, transyağlar, düz və rafinəolunmuş şəkərdən uzaq durmaq lazımdır.

Ürək, eləcə də digər xroniki xəstəliklərdən də qocala bilər. İnsan vaxtında xəstəlikləri nəzarətə almalı, qanda şəkər, xolesterin, lipid və arterial təzyiq normada olmalıdır. Zob və hormonal disbalans da ürəyi yorur.

Əgər tənəffüsdə çətinlik, əl-ayaqda şişmə, sinədə ağırlıq, yorğunluq, döyüntü, başhərlənmə kimi simptomlar olarsa, yubanmadan ürəyi yoxlatmaq lazımdır.

*Z.HÜSEYNLİ*
**XQ**

*✓ Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi tərəfindən Nuriyeva Nərgilə Şirqasım qızının adına verilmiş "Şəhid ailə üzvünün vəsiqəsi" itdiyi üçün etibarsız sayılır.*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3548
SİFARİŞ 342
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır
00:00